www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8-9 iyun 2019-cu il Şənbə № 122 (7192) Qiyməti 60 qəpik

**Xəbər**

## 4 yaşlı Zəhranın oğurlanmasının ilginc təfərrüatı

yazısı səh.10-da

**Gündəm**

### Elçibəyin Surət Hüseynovun məhvinə dair göstərişi niyə icra edilməyib...



Pənah Hüseynin 26 il sonra yaydığı sənəd ilginc məqamları üzə çıxardı

yazısı səh.5-də

### AXC hakimiyyətinin bir ili: Elçibəy hansı işləri gördü?

yazısı səh.3-də

### Vaşinqton İranı "çarpaz atəş" altında saxlamaq istəyir

yazısı səh.10-da

### Eldar Mahmudovun Londondakı kompromat sandığı

yazısı səh.3-də

### Nazirlik "kombayn çatışmır" iddialarına cavab verdi

yazısı səh.12-də

### "Azərbaycanı dağıdıcı zəlzələ gözləmir" - Qurban Yetirmişli

yazısı səh.15-də

### BMT-də bayrağı olan, dövləti olmayan millət - qaraçılar haqda bilinməyənlər...

yazısı səh.12-də

### Bakıda Gürcüstan nömrəli maşınlar artır - səbəb...

yazısı səh.15-də

### Yay istirahət düşərgəsi, yoxsa valideyni "qaz kimi yolma" siyasəti?

yazısı səh.14-də

### DİM-in islahatlarına kölgə salan "700 bal" məsələsi...

yazısı səh.13-də

### Toy mövsümü başladı, Bakı yenə tüstüyə qərq oldu

yazısı səh.14-də

# REGİON BÖYÜK MÜHARİBƏ ASTANASINDA - PAŞİNYANIN QORXULU QARABAĞ GEDİŞLƏRİ

Ermənistanın baş naziri Rusiyadan yenə əliboş qayıtdı; İrəvanın "bir qarış torpaq da verməyəcəyik" ritorikasının mümkün sonucları; **rusiyalı politoloq:** "İrəvan Bakını bilərəkdən yeni müharibəyə təhrik etmək üçün əlindən gələni edib..."



yazısı səh.8-də

## Xalq artistinin nəvəsinin qorxu filmi kimi cinayəti - marixuana, rəngli kapsullar və qətl...

Həyat yoldaşını balkondan yerə ataraq xüsusi amansızlıqla öldürməkdə suçlanan Ramiz Taxveli məhkəmədə özünü dəli kimi aparıb; Gülağa Məmmədovun qız nəvəsi barbituratlardan niyə istifadə edirmiş?

yazısı səh.4-də



*Hadi Rəcəbli:*

**"Amerikada bir dənə karton stəkanda çay 4 dollardır"**

yazısı səh.7-də



*Nəzakət Məmmədova:*

**"Mənasız şərhlər verən bəzi politoloqlar hansı haqla qonorar tələb edə bilər?"**

yazısı səh.6-da



*Azay Quliyev:*

**"Parlamentarilər dövlət başçılarının apardıqları müzakirələrə və danışıqlara dəstək verməlidir"**

yazısı səh.9-da



## "Turizm sektoru dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rol oynamaqdadır" - Prezident İlham Əliyev

**"Artıq ayrıca sənaye sahəsinə çevrilmiş olan turizm sektoru hazırda dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli rol oynamaqdadır. Azərbaycanı onun təbii sərvətləri və rəngarəng coğrafi landşaftı, zəngin mədəni irsi və yenilənmiş infrastrukturu turizm baxımından cəlbedici edir. Bu mədəni və ekoloji turizm potensialı nəzərə alınaraq respublikamızda turizm sektorunun inkişafı ən prioritet hədəflərdən biri elan edilmişdir. Məqsəd təbiət abidələrimizi və xalqımızın böyük keçmişinin izini yaşadan qədim mədəniyyət yadigarlarını geniş miqyasda tanıtmaqdır".**

APA-nın xəbərinə görə, bu barədə Prezident İlham Əliyev "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumunun iştirakçılarına göndərdiyi təbrik məktubunda bildirilib.

Məktubda qeyd edilir ki, müstəqillik illərində memarlıq və şəhərsalma sahəsində sosial inkişafın əsası kimi qiymətləndirilən mühüm işlər görülüb: "Yaşayış yerlərinin mühəndislik və nəqliyyat infrastrukturu modernləşdirilib, yüksək səviyyəli otellər və neçə-neçə sosial obyekt inşa edilib. Bu işlərin uğurla gerçəkləşdirilməsi memarlarımızın fəaliyyəti ilə sıx əlaqəlidir. Onlar ölkəmizdə mədəni özünəməxsusluğun qorunub saxlanması və əcdadlardan qalma mirasın gələcək nəsillərə layiqli şəkildə çatdırılması naminə var qüvvələri ilə çalışırlar. Son illər memarlarımızın xüsusən tarixi şəhərlər və kütləvi turizm arasında ahəngdarlığın təmin edilməsi üçün Beynəlxalq Memarlar İttifaqı ilə münasibətləri zəminində göstərdiyi təşəbbüs və atdığı addımlar təqdirəlayiqdir.

Hörmətli forum iştirakçıları!

Sizi ölkəmizin paytaxtında "Tarixi şəhərlərdə kütləvi turizm" mövzusunda beynəlxalq memarlıq forumunun öz işinə başlaması münasibətilə səmimi təbrik edir, hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Biz ilk mötəbər forumunuzun unikal memarlıq abidələri və eyni zamanda modern üslublu binalarla zəngin, təkrarsız görkəmə malik Bakı şəhərində təşkilini yüksək qiymətləndiririk. Bu, şəhərsalma və memarlığı özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan mədəniyyətinə ehtiramın təzahürüdür. Turizmin müasir problemləri, o cümlədən dövrümüzün reallıqları ilə yaxından səsləşən kütləvi turizm fenomeni ətrafında müzakirələrin məhz belə tarixi məkanda aparılması forumunuza aktuallıq qazandırır.

Ümidvaram ki, forum çərçivəsində memarların tarixi yerlərdə kütləvi turizmin idarə olunmasında roluna dair aparacağınız diskussiya və fikir mübadilələri, irəli sürəcəyiniz tövsiyə və təkliflər turizmin aktual məsələlərinin həllinə öz töhfəsini verəcək, həmçinin əməkdaşlığınızın daha da dərinləşməsi və yeni istiqamətlərinin müəyyənləşməsinə xidmət edəcək".


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Naxçıvanda Azərbaycan-Türkiyə birgə təlimi başladı





**Naxçıvanda "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb. Müdafiə Nazirliyindən APA-ya verilən məlumata görə, təlimin ssenarisinə əsasən, Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb.**

Təlimə 5000 nəfərədək şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 21 ədəd təyyarə, helikopter, pilotsuz uçuş aparatı və silahlanmaya yeni daxil edilmiş müxtəlif növ müasir silah və texnika nümunələri cəlb olunub.

Təlimin məqsədi qərargahların müştərək döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaqdır.

"Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi iyunun 11-dək davam edəcək.

## İsgəndər Həmidov bu gün ölkəyə qayıdır

### Şəhriyar Məcidzadə: "O deyir ki, nə olursa, olsun, vətənimdə olsun"


musavat.com/ Fərahim İLQAROĞLU

**Türkiyədə müalicə alan sabiq daxili işlər naziri İsgəndər Həmidovun bu gün ölkəyə qayıdacağı gözlənilir. Bir neçə gün öncə onun yanında olan köməkçisinin feysbuqda paylaşdığı statusda qeyd edilib ki, sabiq nazir iyunun 8-də vətənində olacaq.**

Hazırda İ.Həmidovun səhhəti düşərgə təmsilçilərinin diqqət mərkəzindədir. Eyni zamanda, iki hissəyə parçalanan Azərbaycan Xalq Hərəkatının sabiq nazirin lideri olduğu qanadındakı durum da müzakirə predmetidir.

İ.Həmidovun qardaşı oğlu, Milli Fikir Mərkəzinin sədri, etatist.com internet qəzetinin təsisçisi **Şəhriyar Məcidzadə** əmisi üçün dönüş biletinin alındığını söylədi: "Danışığımıza əsasən deyə bilərəm ki, İsgəndər bəy ayın 8-də gələcək. Amma hansı saatda gələcəyini mənə deməyib. Mənə dedilər ki, bilet alınıb. Gələndə mənə saatını deyəcək ki, onu qarşılayım. Bir fövqəladə vəziyyət baş verməsə, yeni sağlamlığı ilə bağlı nəsə bir şey olmasa, mütləq gələcək. Sonuncu dəfə onunla iyunun 5-də danışdım. İsgəndər bəyin xarakteri hər kəsə bəllidir. O deyir ki, nə olursa-olsun, vətənimdə olsun. Səhhəti imkan versə də, verməsə də, o qayıdacaq. Bu düşüncədəyəm. Bu adamın bütün taleyi, həyatı ölkəsi ilə bağlıdır. Ondan çıxış edərək qayıdacağını düşünürəm".

**Gələcək Azərbaycan Partiyasının sədri, AXH-nin dönəm sədri Ağasif Şakiroğlu İ.Həmidovun gələcəyini təsdiqlədi:** "Yaxınları 8-i saat 16:05-də Bakıya enəcəyini bildirir. Səhhətində irəliləyiş yoxdur. Ağrıları var. Hazırda da həkim nəzarətindədir. Ölkəyə də həkim nəzarətində gələcək".

**Dönəm sədri AXH-nin son durumundan da danışdı:** "Hərəkatın fəaliyyətində heç bir durğunluq yoxdur. AXH əvvəl necə öz gücü ilə çalışıbsa, indi də elədir. Hər həftə stabil şəkildə toplantılarımız keçirilir. Hazırda hərəkatın idarə heyətinin üzvü Yavər Mikayılov həbsdə qalıb. Ayın 20-də azadlığa buraxılacaq. Eyni zamanda AXH-nin Sabunçu şöbəsinin sədr müavini, hərəkatın Ali Məclisinin üzvü Ramiz Səlimov həbs edilib. Son həbslər AXH-nin fəaliyyətini zəiflətmədi, əksinə, gücləndirdi. Təşkilatlanma, tutulanların müdafiəsi işləri davam edir. Kütləvi aksiyaların keçirilməsi ilə bağlı müzakirələr gedir. Həftənin birinci günü idarə heyətinin toplantısında prinsipal və konkret qərarların qəbul edilməsi gözlənilir".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## "Dünyada dollara inam azalır" - Putin

**"Report" xəbər verir ki, bunu Rusiya prezidenti Vladimir Putin Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında çıxış edərkən deyib.**

V.Putinin sözlərinə görə, bunda elə ABŞ hökumətinin özü günahkardır.

O, dolların dünyadakı rolunu yenidən nəzərdən keçirməyə çağırıb.

"Bu dərin dəyişikliklər beynəlxalq maliyyə qurumlarının uyğunlaşmasını, dolların rolunun təkrar nəzərdən keçirilməsini tələb edir. Beynəlxalq ehtiyat valyutası olan dollar indi emitent-ölkənin dünyanın digər ölkələrinə təzyiq vasitəsi halına gəlib", - o bildirib.

Rusiya dövlət başçısı həmçinin hazırda regional valyutaların rolunun artdığını vurğulayıb.

## Vakant müəllim yerlərinin sayı açıqlandı

**Azərbaycanda orta məktəblərdə bütün fənlər üzrə 4925 vakant müəllim yeri var.**


Murad Camalzadə

«Trend»in məlumatına görə, bunu Təhsil İşçilərinin Peşə İnkişafı İnstitutu nəzdində İnsan Resursları Mərkəzinin müdiri Murad Camalzadə bildirib.

Nazirlik rəsmisi deyib ki, may ayında İnsan Resursları Mərkəzi tərəfindən məktəblərdəki vakant yerlər haqqında məlumatlar sistemə daxil edilib.

Mərkəzin rəhbəri iyunun 3-dən Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin dəyişdirilməsi müsabiqəsinə start verildiyini xatırladıb. M.Camalzadə qeyd edib ki, namizədlər hazırda elektron sənəd qəbulu üçün şəxsi kabinetlərinə daxil olarkən vakant yerləri görə bilirlər.

M.Camalzadə əlavə edib ki, müsabiqədə iştirak edən müəllimlər öz istəklərinə uyğun vakant yer seçirlər, ondan sonra isə bal ardıcıllığı prinsipinə uyğun olaraq, onların yerləşdirilməsi aparılacaq.

Nazirlik rəsmisi bildirib ki, müəllimlərin iş yeri diaqnostik qiymətləndirilmədə və ya işə qəbul üzrə müsabiqədə iştirak etdiyi ixtisas üzrə dəyişdiriləcək. Namizədlər yerdəyişmə müsabiqəsində diaqnostik qiymətləndirilmə və ya işə qəbul üzrə müsabiqədə topladığı balla iştirak edə bilərlər:

"Müəllimlərin ölkə üzrə diaqnostik qiymətləndirilməsi başa çatıb. Bu, o deməkdir ki, hər bir müəllimin diaqnostik qiymətləndirmə balı var. Namizədə şərait yaradılır ki, öz şəxsi istəyi əsasında istədiyi balı – diaqnostik qiymətləndirilmə və ya işə qəbul üzrə müsabiqədə iştirak etdiyi balı seçə bilsin. Yeni namizədlər üçün onun iştirak etdiyi ən sonuncu imtahanın nəticəsini seçə bilməsi ilə bağlı məhdudiyyət qoyulmayıb".

# Eldar Mahmudovun Londondakı kompromat sandığı

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla bağlı qeyri-müəyyənlik davam edir. 4 il bundan əvvəl Milli Təhlükəsizlik Nazirliyində başlanan qəfil yoxlamalar Eldar Mahmudovun evinin kandarına qədər gedib çıxdı. Ətrafında halqa son həddə qədər daraldı. Mətbuatda Eldar Mahmudovun malikanələrinin, maşınlarının fotoları yayıldı, şaxələnmiş, son dərəcə nataraz biznes şəbəkəsinə aid sənəd-sübutlar ortalığa çıxdı. Ətrafında olan, məlum əməliyyat zamanı həbsə alınanların, yaxasını həbsdə qurtara bilən MTN generallarının da çeşidli mal-mülkləri, cinayət əməlləri haqda xəbərlər bir-birini əvəzlədi.**

## Sabiq nazirin azadlığı üçün mühüm olan kompromatların İngiltərədə yaşayan qudası Zamirə Hacıyevada olması barədə iddialar nə dərəcədə gerçəkdir?



Həmin günlərdə belə təəssürat yaranmışdı ki, Mahmudovu bir müddət azadlıqda saxlamaqla ona psixoloji təsir göstərilir, oğurladıqlarını qaytarması üçün vaxt verilib. Onun tez bir zamanda həbs ediləcəyi haqda xəbərlər də yayılırdı. Bununla belə, Eldar Mahmudov bu günə qədər ayaqdadır. O, bunu necə bacardı? Eldar Mahmudovu azadlıqda saxlayan nədir?

2015-ci ilin oktyabrında, parlament seçkilərinə 2 həftə qalmış vəzifəsindən qəfil alınan Eldar Mahmudovun həbs olunacağına hazırda inanan az tapılar. 2017-ci ilin noyabrında Eldar Mahmudovun saxlanılmasına cəhd oldu. Onu Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə bir neçə dəfə çağırdılar. Məlum oldu ki, Eldar Mahmudovu cinayət işi üzrə dindiriblər. Bu dindirmədən əvvəl isə MTN-in Antiterror Mərkəzinin şöbə rəisinin müavini vəzifəsində işləmiş və faktiki olaraq nazirin köməkçisi funksiyasını həyata keçirmiş polkovnik-leytenant Vüqar Mahmudovu həbs etmişdilər. Vüqar Mahmudov Eldar Mahmudovun əmisi oğlu olmaqla bərabər onun köməkçisi olaraq sahibkarlardan aylıq toplanan xəracın bank hesablarına yerləşdirilməsi ilə məşğul olan biri kimi ad çıxarıb. Vüqar Mahmudovla bağlı Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumat da bu iddiaların həqiqiliyini təsdiqləyirdi. Vüqar Mahmudovun gözlənilmədən həbsi, bunun ardınca isə sabiq nazirin ilk dəfə istintaqa çağırılması belə əminlik yaratmışdı ki, tezliklə Eldar Mahmudov həbsə alınacaq. Maraqlı bir məqam da o idi ki, Vüqar Mahmudovun da həbsinə qədər adı bir çox məhkəmə işlərində keçirdi. O, məhkəmələrə dəvət edilədə özünü arxayın aparır, təkzibolunmaz faktlara baxmayaraq, yaxasını istintaqçıların əllərindən kənar saxlaya bilirdi. Belə görünürdü ki, Vüqar Mahmudovun arxayınlığı əmisi oğlunun ələqələrinə köklənib. Bununla belə, həbs edilməməsi də ciddi suallar doğururdu. Ehtimallar vardı ki, sabiq nazirin keçmişdən qalan əlaqələri möhkəm olduğundan onun ən yaxın adamını da həbs etmək mümkün olmur. Bütün ehtimallarda Vüqar Mahmudovun yaxasının istintaqçıların əlinə keçməyəcəyi iddiası olsa da, onu həbs edə bildilər.

Belə iddialar var ki, Eldar Mahmudov vəzifədə olduğu illərdə ən müxtəlif üsullardan istifadə etməklə topladığı kompromatları - əsasən gizli videoları, qanunsuz dinləmə yolu ilə əldə edilən səs yazılarını sipər kimi istifadə edir.

Eldar Mahmudov vəzifəsindən çıxarılandan sonra onun rəhbərlik etdiyi bandanın təkcə sahibkarları soyub-talamadığı, hələ də tam çevrəsi bilinməyən şəxslər barədə şantaj xarakterli videomateriallar topladığı üzə çıxmışdı.

MTN-in keçmiş zabiti Ərəstun Oruclu mətbuata müsahibəsində demişdi ki, MTN qruplaşmasının əlində tanınmış və imkanlı şəxsləri, ictimai fəalları və digərlərini şantaj etmək üçün gizli çəkilişlər var. Keçmiş MTN zabiti Mahmudovun videotekasındakı CD-lərin konkret sayını da açıqlamışdı - 2 min 800 şantaj videosu. Ərəstun Oruclu 2800 rəqəminin ona mötəbər mənbələrdən verildiyini diqqətə çatdırmış, lakin başqa detallar haqda danışa bilmədiyini söyləmişdi.

Hələ o dövrdə "Eldar Mahmudov həmin kompromatları harada saxlaya bilər" sualına cavab axtararkən ən çox diqqətçəkən persona sabiq nazirin qudası, hazırda Londonda başı qalda olan Zamirə Hacıyeva oldu. Britaniyada "İzahedilməz Sərvət Sərəncamı" (UWO) tətbiq olunmadığı dövrlərdə Zamirə Hacıyeva faktiki olaraq Azərbaycan hakimiyyəti üçün əlçatmaz idi. Bu gün vəziyyət dəyişib. Hacıyevanın Londonda qalıb-qalmayacağı yaxın 15-20 gün ərzində dəqiqləşəcək. Yada salaq ki, E.Mahmudovun həbs edilməməsi ilə bağlı ən ağlabatan iddialardan biri əlindəki kompromatlar göstərilirdi. Aydındır ki, sabiq nazir əlindəki materialları, onu həbsdən qurtaran videoları ölkə daxilində deyil, xaricdə və ən etibar etdiyi şəxsdə saxlayır. Belə şəxs kimi Zamirə Hacıyeva ən ideal persona kimi görünürdü. Eldar Mahmudovla Z.Hacıyevanı şəxsi tanışlıqları hələ quda olmazdan əvvələ söykənir. E.Mahmudov 2004-cü ildə nazir təyin olunandan 8 ay sonra - 2005-ci ilin martında "Qara kəmər" əməliyyatı baş tutdu. MTN-in gerçəkləşdirdiyi əməliyyat zamanı Hacı Məmmədovun bandası ifşa edildi. Sağ-salamat azad ediləndən sonra Z. Hacıyevanın onun azad edilməsinə rəhbərlik etmiş bir şəxsə dərin minnətdarlıq hissinin olması da təbiidir. Sonradan Mahmudovlarla Hacıyevlərin qohum olmasında bu olayın yer alması ehtimalı da böyükdür. Zamirə Hacıyeva ilə Eldar Mahmudovu yaxınlaşdıran bir qadının girovluqdan azad edilməsi və üzərindən yaranan qohumluq bağlarıdır. Tərəflər bir-birinin inamını, etibarını, etimadını illər əvvəl qazanıb və ötən zaman ərzində qohumluq bağları bu güvəni bir qədər dərinləşdirib. Bu səbəbdən də kompromatları ən etibarlı şəxslərindən bir olan Zamirə Hacıyevaya verməsi mümkün hesab olunurdu. "İzahedilməz Sərvət Sərəncamı" qəbul ediləndən sonra isə Zamirə Hacıyevanın özünün təhlükəsizliyi son dərəcə laxlamış durumdadır. Belə bir halda Eldar Mahmudovun oğlu Anar Mahmudov Böyük Britaniyada "MEA Capital Limited" adlı maliyyə şirkəti açıb. Bu, sırf bir təsadüfdür söyləmək çətindir. Anar Mahmudovun şirkəti Londonda 2018-ci ilin 11 oktyabrında qeydə alınıb və ona 11618237 nömrəli müvafiq sertifikat verilib. Şirkətin adındakı MEA abreviaturası simvolik məna daşıyır: Mahmudov Eldar və Anar. Yayılan məlumatlarda deyilirdi ki, pul vəsaitləri- hansı ki, E.Mahmudovun əlinin altında olan poqonlu quldurlar tərəfindən Azərbaycan biznesmenlərindən zor və şantajla qoparılıb - əsasən bu şirkətdə cəmləşib.

Mümkündür ki, təkcə pul vəsaitləri deyil, kompromat materiallar da Z.Hacıyevadan alınaraq həmin şirkətin seyflərinə doldurulub. Onun kompromat arxivi sahibinin qudasından oğluna dəyişdirməsi də təəccüblü olmamalıdır. Bu halda isə Z.Hacıyevanın Azərbaycan hakimiyyəti üçün əhəmiyyəti azalır, Anar Mahmudov əsas hədəfə çevrilir. Sabiq nazirin oğluna qarşı ittihamların artacağı halda bu ehtimalların reallıqla ələqələri də dəqiqləşəcək.

Xatırladaq ki, 2017-ci ilin noyabrında Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov da təsdiq etmişdi ki, Eldar Mahmudovun istintaq idarəsinə çağırılması köməkçisinin cinayət işi ilə bağlıdır. Hələ o dövrdə də bəlli idi ki, Eldar Mahmudovun istintaqa çağırılması bir müstəntiqin və ya bir idarənin qərar verəcəyi iş deyil. 11 il ölkənin ən strateji postlarından hesab olunan MTN-də rəhbər olub və onunla bağlı hətta işdən çıxarıldıqdan sonra da hər hansı bir qərar yenə hakimiyyətin ən üst düzəyindən verilib. Bu gün isə o günlərdə Eldar Mahmudovla bağlı başlanmış proses dayandırılmış duruma gəlib. Səbəbin kompromat sandığında gizləndiyi ehtimalları da qalmaqdadır.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# AXC hakimiyyətinin bir ili: Elçibəy hansı işləri gördü?

## Oqtay Qasımov: "O dövr Azərbaycanın milli dövlətçilik tarixində müsbət mənada özünəməxsus yer tutacaq"



**7 iyunda mərhum prezident Əbülfəz Elçibəyin dövlət başçısı seçilməsinin 27 ili tamam oldu. Hər ilin iyunu bir illik AXC hakimiyyəti üçün ən qızğın müzakirələrin getdiyi aydır. Elçibəy iqtidarına qarşı fərqli baxışlar mövcuddur. Xalq Cəbhəsi hökumətinin 1992-93-cü illərdə hansı işləri gördükləri, eləcə də görməli olub edə bilmədikləri işlər müzakirə edilir.**

Əbülfəz Elçibəyin köməkçisi olmuş **Oqtay Qasımov** "Yeni Müsavat"a AXC hakimiyyətinin gördüyü işlərdən ən vacib olanları sadaladı: "7 iyun Azərbaycan dövlətinin tarixində çox əhəmiyyətli bir gündür. Tariximizdə ilk dəfə olaraq, alternativ, demokratik şəraitdə seçkilər keçirildi. Milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəy Xalq Cəbhəsinin namizədi kimi 7 iddiaçının olduğu seçkilərə qatılıb və 59.5%-dən çox səslə ölkənin prezidenti seçilib. Onun hakimiyyətdə olduğu bir il hər bir siyasi lider üçün kifayət qədər kiçik zaman kəsimidir. Amma bütün bunlara baxmayaraq, Əbülfəz Elçibəyin rəhbəri olduğu milli hakimiyyət kifayət qədər ciddi işlər gördü, tarix qarşısında xidmətlərini göstərdi. Ən vacib işlərdən biri kimi, Azərbaycanda ordu quruculuğunun başladılması prosesini qeyd etmək olar. Ordumuz ilk dəfə Əbülfəz Elçibəyin hakimiyyəti dövründə uğurlu əməliyyat keçirdi, xaricdən göndərilən separatçılara qarşı əməliyyat nəticəsində ermənilər tərəfindən işğal edilən Ağdərə, Ağcakənd düşməndən təmizləndi. Elçibəyin dövründə pul vahidi dövriyyəyə buraxıldı. O, hakimiyyətdən gedənə qədər Qafqazda ən işlək və dəyəri yüksək olan valyuta kimi qiymətləndirilib. Bundan başqa, Əbülfəz bəyin zamanında uzun müddət ehtiyac duyulan təhsildə islahatlar həyata keçirildi, universitetlərə qəbul üçün test üsulu tətbiq olundu. İlk dəfə olaraq minlərlə azərbaycanlı gənc heç bir neqativ hallar olmadan təhsil almaq imkanı qazandı. Bundan başqa, Əbülfəz Elçibəyin şəxsi iradəsi ilə həyata keçirilən çox mühüm hadisə Azərbaycan rus ordusunun çıxarılması oldu. Xüsusilə bu ona görə önəmlidir ki, nəinki Şərqi Avropa, Almaniya kimi böyük dövlətin ərazisində rus ordusunun hərbi birləşmələri qaldığı halda Azərbaycanda bu problem sivil, operativ şəkildə həll edildi, rus ordusu ölkədən çıxarıldı. Xalq Cəbhəsi hakimiyyəti dövründə yüzdən artıq dərslik milli-mənəvi dəyərlərimizə uyğun şəkildə yenidən yazıldı, şagirdlərin istifadəsinə verildi. Bir illik hakimiyyət dövründə keçmiş sovet dövründən qalmış iqtisadi sistemdə dəyişikliklər başladı, müasir dövrün tələblərinə uyğun olaraq bazar iqtisadiyyatına keçid üçün lazım olan dövlət qurumları yaradılmağa başladı, bank sistemində islahatların aparılması barədə qərarlar qəbul edildi. Bir il ərzində Milli Məclis bu istiqamətdə yüzdən artıq qanun layihəsini müzakirə edib təsdiqləyib. Görülən tədbirlər nəticəsində 1993-cü ilin mart ayından başlayaraq, əvvəlki sistemdən, yeni sovet dövründən qalan iqtisadi böhran dayandırıldı, artıq iqtisadi artım müşahidə olunmağa başladı, 6% artım müşahidə olundu. Müasir tipli ordunun qurulması üçün də ciddi addımlar atıldı. Bu sahədə Türkiyə ilə əməkdaşlıq üçün şərait yaradıldı, türk hərbi mütəxəssisləri ordu quruculuğuna cəlb olundular. Əbülfəz Elçibəyin bir il müddətində xarici siyasətlə bağlı müəyyən etdiyi kurs bu gün də davam etdirilir".

**O.Qasımov qurduqları böyük planların həyata keçməməsindən də danışdı:** "O hakimiyyətin məhsuldar işlədiyini söyləmək olar. Çox böyük planlar qurulmuşdu. Azərbaycanın inkişafı üçün çoxlu layihələr planda tutulmuşdu. Təəssüflər olsun ki, onları həyata keçirmək imkanı verilmədi. 4 iyun qiyamı ilə hər şey durduruldu. Bu qiyamı bir növ 1920-ci il 27 apreldə Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə nəticələnən hadisələr kimi qiymətləndirmək olar. O hadisələr ölkəmizdə demokratik quruculuğu necə dayandırdısa, 4 iyun qiyamı da eyni mərkəzdən idarə olunaraq, demokratik quruculuğa, inkişafa ciddi zərbə vurdu. Amma bütövlükdə Əbülfəz Elçibəyin milli hakimiyyəti yaddaşlarda qalıb. Ən layiqli qiyməti tarix, tədqiqatçılar verəcək. Biz o dövrü yaşamış və həmin dövrdəki hadisələrin şahidi kimi deyə bilərik ki, o dövr Azərbaycanın milli dövlətçilik tarixində müsbət mənada özünəməxsus yer tutacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Buta Palace"ın art-direktoru həyat yoldaşını balkondan yerə ataraq xüsusi amansızlıqla öldürməkdə ittiham olunan Ramiz Taxvelinin cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Yada salaq ki, hadisə ötən il dekabrın 11-nə keçən gecə saat 3 radələrində baş verib.**





# Xalq artistinin nəvəsinin qorxu filmi kimi cinayəti-marixuana, rəngli kapsullar və qətl...

## Həyat yoldaşını balkondan yerə ataraq xüsusi amansızlıqla öldürməkdə ittiham olunan Ramiz Taxveli məhkəmədə özünü dəli kimi aparıb; Gülağa Məmmədovun qız nəvəsi barbituratlardan niyə istifadə edirmiş?

Ramiz Taxvelinin avtomaşınına baxış zamanı 1 ədəd kibrit qutusunda təmiz çəkisi 5.647 qram bitki mənşəli kütlə tərkibində narkotik maddələr olan çətənə (kannabis) bitkisindən kustar üsulla hazırlanmış, qurudulmuş marixuana götürülüb. Tibbi müayinə zamanı onda THC marixuana və BAR (barbiturat) qəbulu nəticəsində yaranmış psixi davranış pozuntusu aşkar olunub.

Virtualaz.org-un xəbərinə görə, Penitensiar Xidmətin Müalicə Müəssisəsində saxlanılan təqsirləndirilən şəxs məhkəmə zalına əlil arabasında gətirilib və şüşə kabinaya salınmayıb. Proses boyunca rabitəsiz nitqlər söyləyən R.Taxveli gah hakimə "ay sudya" deyə müraciət edib, gah da konvoya "belimi qaşıyın, ay brat" deyib.

Təqsirləndirilən şəxsin müdafiəçisi R.Taxveli barəsində təkrar tibbi və psixoloji ekspertiza keçirilməsini istəyib.

Hakim vəsatəti baxılmamış saxlayıb. Dövlət ittihamçısının, hüquq müdafiəçisinin və digər proses iştirakçılarının çıxışlarını diqqətlə dinləyən R.Taxveli vəsatətin təmin edilmədiyini görüncə isə bu dəfə günahsız olduğunu, həyat yoldaşını öldürmədiyini bildirərək ağlamağa, hönkürməyə başlayıb.

Prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttihama görə, R. Taxveli ilk qızı Aliyanin epilepsiya xəstəsi olaraq doğulmasında arvadı Adelyanı daim günahkar bilib və buna görə mütəmadi olaraq onunla mübahisə edib. Sonuncu dəfə ötən ilin 9-da axşam saat 22 radələrində narkotik vasitə qəbul edib, Adelyanı yuxudan oyadaraq onu döyüb, işgəncə verib, saçından tutub sürüyərək otaqları gəzdirib.

Daha sonra uşaqların yatdığı otağa aparıb , arvadını onlarla vidalaşmağa məcbur edib. Yataqda olan xəstə qızı Aliyanı götürərək uşağı yerə çırpıb, bu cür yuxudan oyadıb. Epilepsiya xəstəsi olan uşaq başından xəsarət alıb. Uşaqlar atalarına yalvarıb analarını çağırsalar da, R. Taxveli övladlarının göz yaşlarına əhəmiyyət verməyib. O, Adelyanı sürüyərək eyvana çıxarıb. Eyvanda qadının ayaqlarından tutaraq yuxarı qaldırıb və aşağı atıb.



**R.Taxveli ona elan olunmuş ittihamlarla özünü təqsirli bilməyib, ittihamı şər və böhtan adlandırıb:** "Mən onu qətlə yetirməmişəm. Biz bir-birimizi dəlicəsinə sevmişik. İlk övladımız xəstə doğuldu, beyin xəstəliyi vardı. Dəfələrlə Türkiyədə, İsraildə öz hesabımıza müalicə etdirmişdik. İkinci qızımız sağlam doğuldu".

Hakimin "Bəs hadisənin baş verməsinə nə səbəb olub" sualına təqsirləndirilən şəxs "Heç nə xatırlamıram" cavabı verib.

**İfadəsinin davamında hərdən narkotik vasitələrdən istifadə etdiyini gizlətməyib. Amma maşından aşkarlanan narkotik vasitənin ona aid olmadığını deyib:** "Hərdən marixuana çəkirdim. Maşından tapılanını isə kimin olduğunu bilmirəm, mənim ola bilməzdi. Xəstə qızımı yerə vurmağım isə mümkün deyil. Belə bir şey ola bilməz".

Vəkilin "Nədə ittiham olunduğunu bilirsənmi "sualına isə R.Taxveli "Arvadımın ölümündə ittiham olunuram, amma bu, mümkün deyil" deyə cavab verib.

**Prosesdə mərhumun anası Samirə Süleymanova da ifadə verib. Zərərçəkmişin ifadəsinə görə, hadisə baş verən gecə kürəkəni "WhatsApp"da ona qan tökülən barmaq şəkli göndərib:** "Dedi ki, işçimizi gətirmək istəyirəm. Mən həkim işləyirəm. Sonra yazdı ki, sizin evdə özümü şübhəli aparmışam, kimisə incitməmişəm? Yazdım ki, yox. O da mənə "öldürə bilmirəm də" yazdı. Yazdım ki, kimi, məni? Mənə cavab yazdı ki, hə, amma Aliyaya yazığım gəlir. Sonra yolka şəkli atdı. İki-üç dəfə təkrar-təkrar "bu gecə rahat yat" yazdı. Şübhələndim, qızıma zəng vurdum. Axırıncı oldu qızımla danışmağım. Dedi ki, uşaqların yanında yatmışam. Ramizin mənə yazdıqlarını qızıma dedim. Dedi ki, fikir vermə, yat, deyib sağollaşdı".

**S.Süleymanova ertəsi gün səhər tezdən bacısının və qohumlarının onlara gəldiklərini deyib:** "Səhər saat 8-də bacım zəng vurdu ki, qapını aç. Qapını açanda gördüm yaxın qohumlarım pilləkənlərdə dayanıb. Mənə dedilər ki, Adelya yıxılıb. Qızımın ölməyi heç ağlıma da gəlməzdi".

Məhkəmə prosesi iyunun 14-də davam edəcək.

Musavat.com xatırladır ki, Taxveli Ramiz "Buta Palace"ın art direktorudur. O, həmçinin tanınmış Azərbaycan müğənnisi, Azərbaycan SSR xalq artisti Gülağa Məmmədovun qız nəvəsidir.

Musavat.com-un məlumatına görə, 1994-cü ildə vəfat edən G.Məmmədovun yeganə qızının adı Gülarədir. 2002-ci ildə "Azərbaycantelefilm"in G.Məmmədov haqqında çəkdiyi filmdə mərhum müğənninin həyat yoldaşı Aliyə Məmmədova, qızı Gülarə və hadisəni törədən Ramiz də iştirak edib.

Qətlə yetirilən Adelya isə 2013-cu ildən "Atəşgah Sığorta" şirkətinin Anderraytinq və təkrarsığorta şöbəsinin baş mütəxəssisi vəzifəsində çalışıb. Məlumata görə, Adelya Taxveli ilə həyat yoldaşı Ramiz Taxveli arasında dərin sevgi münasibətləri olub. Adelya Taxveli internet gündəliyində tez-tez sevgi duyğuları barədə qeydlər edirmiş və şeirlər yazırmış.

Qeyd edək ki, barbituratlar tibdə yuxusuzluqdan əziyyət çəkənlərə kömək etmək üçün istifadə olunur. İnsana yuxu gətirir və sakitləşdirici təsir göstərir. Toz və rəngli kapsullar şəklində satılır. Daimi istifadə xəstəni dərmandan asılı vəziyyətə salır. Alkoqolla və başqa narkotiklərlə qəbulu olduqca təhlükəlidir.

Kannabis isə marixuananın beynəlxalq adıdır. "Marixuana" sözü ilk dəfə olaraq Meksika hərbi bölümündə yaranıb. Həmin bölmə ərazisində Mariya və Joanna adlı fahişələrin əsgərlər üçün gətirdiyi "uçuran vasitə"yə hər ikisinin adlarını birləşdirərək marixuanna adı qoymuşdular. O andan bəri narkotik vasitənin adı marixuana olaraq qalıb.

Cannabis bitkisi hər şəraitdə yetişə bilər. Bitkinin ölçüsü gün ərzində 3-5 sm arta bilir. Hündürlüyü isə yarım metrə yaxın olur.

Marixuananın ən fəal inqrediyenti THK-dur. Məhz bu kimyəvi maddə insan psixikasına təsir edərək marixuananın effektini yaradır. Qeyd edək ki, Rusiya və Azərbaycanda marixuana uzun müddət anaşa adlandırılırdı.

Marixuananın istifadəsi xoş bir rahatlıq və bəzən bir coşğu halı verə bilər. İstifadəçilər ayrıca görmə, iyləmə, dadbilmə və eşitmə duyğularında kəskinləşmə hiss edə bilərlər. Qısa vaxtda istifadəçilərin iştahında və nəbzində bir artım olar. İstifadəçilər ayrıca avtomobil istifadəsi və məntiqli düşünmə kimi fiziki və zehni işləri yerinə yetirməkdə çətinlik çəkərlər. Yüksək dozalarla istifadə edənlərin düşünmə bacarıqları yavaşlayar və bulanıqlaşar. Marixuana istifadəçidə paranoya yarada bilir. Paranoya isə həddindən artıq narahatlıq və ya qorxu ilə xarakterizə edilən, tez-tez məntiqsiz şiddət bildirən bir narahatlıq, psixoloji nasazlıqdır.

❑ **ORXAN, "Yeni Müsavat"**

# Nə amnistiya, nə əfv...

**Mirvari Qəhrəmanlı:** "Bu barədə parlamentdə iclas çağırılmalıdır"

**Səidə Qocamanlı:** "Avqustun sonları və ya sentyabrın əvvəllərində əfv gözləmək olar"



Mirvari Qəhrəmanlı



Səidə Qocamanlı

**Qurtuluş gününə bir həftə qalır. Bu günlə bağlı əfv sərəncamının verilməyəcəyi dəqiqləşsə də, amnistiya aktının parlamentdə qəbul olunacağı barədə xəbərlər dolaşır. Hətta qarşıdakı günlərin birində bununla bağlı qanunverici orqanın iclasının çağırılacağı bildirilir.**

Əslinə qalsa, ilk dəfə amnistiya anonsunu bir müddət öncə "Yeni Müsavat"da hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı vermişdi. O, əfvin olmayacağını bildirərək, amnistiyanın olacağını əminliklə söyləmişdi.

M.Qəhrəmanlı qəzetimizə açıqlamasında yenə də amnistiyadan söz açdı: "Hər şey amnistiya aktını parlamentdə təqdim edəndən daha çox asılı olur. Əgər hər zaman olduğu kimi, bu məsələni ölkənin vitse-prezidenti qaldırsa, o zaman hər şey olunmuş sayılacaq. Bildiyim qədəri ilə bu barədə parlamentdə iclas çağırılmalıdır. İnşallah, bu xəbər doğru olar. Təbii ki, bu, siyasi qərar olacaq. Ölkəmizin imicinin daha da artırılması baxımından çox önəmli qərar olardı. Mehriban xanım hər zaman humanist addım atıb, bu dəfə ümid edirəm ki, belə olacaq. Novruz əfvindən sonra həbsdə qalan siyasi məhbusların azad olunması çox vacibdir. Amnistiyanın verilməsinə çox böyük ehtiyac var. Bu qərar yalnız siyasi məhbuslar üçün verilmir. Əfv bağışlamadır, amma amnistiya belə deyil. Lakin bu akta bağışlanmalı olan bir çox maddələr düşə bilər".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı:** "Amnistiyaya düşən maddələr parlamentin iclasından keçməlidir. Ümid etmirəm ki, parlament ayın 15-nə kimi bu məsələyə baxıb hansısa bir qərar verəcək. Bilirsiniz ki, bu ilin martında böyük əfv sərəncamı verilib. Artıq o zamandan 3 aya yaxın müddət keçib. Belə bir qısa zaman kəsiyində əfvin olacağına, açığı, inanmıram. Amma AŞ PA-nın yaz sessiyasından sonra nəyəsə ümid etmək olar. Məsələn, avqust ayında əfv ola bilər. Amnistiyanın verilməsinə ehtiyac var. Hər halda, cəzaçəkmə müəssisələrində amnistiyanı gözləyən o qədər məhbus var ki. Onların ailələrinə qovuşmaları çox gözəl olardı. Amnistiyanın verilməsinin heç bir zərəri olmaz. Amma hansı maddələrlə amnistiyanın verilməsi çox mühümdür. Düşünürəm ki, hələ bu haqda danışmaq tezdir. Hər halda, avqustun sonları və ya sentyabrın əvvəllərində əfv gözləmək olar".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**Elçibəy iqtidarında baş nazir postu tutmuş Pənah Hüseyn 26 may 1993-cü il tarixində keçirilən Dövlət Müdafiə Komitəsinin məxfi iclasının protokolunu yayıb. Yaxın tarixə güzgü tuta bilən bu mühüm sənəd sabiq baş nazirin facebookdakı səhifəsində paylaşılıb. Sənəddən də göründüyü kimi, dövlətə rəhbərlik edən yüksək vəzifəli şəxslər Elçibəy iqtidarına qarşı başlayacaq və yekunda onu devirəcək 4 iyun Gəncə qiyamından cəmisi 7-8 gün əvvəl bir araya gələrək, ölkəni və onu əlaqədar edən digər məsələləri müzakirə ediblər. Stenoqramdan da göründüyü kimi, iqtidarın baş naziri Pənah Hüseyn iclasda yoxdur. Tarixə müraciət edəndə, bunun səbəbləri aydın olur: həmin zaman kəsiyində Pənah Hüseyn Londonda, danışıqlarda olub..**

# Elçibəyin Surət Hüseynovun məhvinə dair göstərişi niyə icra edilməyib...

## Pənah Hüseynin 26 il sonra yaydığı sənəd ilginc məqamları üzə çıxardı; "Əslində qiyam aprelin əvvəllərindən başlamışdı və onun açıq hərbi müstəviyə keçməsi hər an gözlənilirdi"



Musavat.com bu mühüm sənədi çap edib. Diqqətlə və düşünərək oxunulsa, buradan bir çox mətləbləri aydınlaşdırmaq mümkündür. Həmin iclasda Elçibəy iqtidarı qiyamçı polkovnik Surət Hüseynovun məhv edilməsi qərarını versə də, onun niyə həyata keçirilməməsi isə başqa bir yazı mövzusudur.

DMK-nın iclasının protokolunda gündəlikdə 4 məsələnin yer aldığı qeyd edilir: **1.** Qərarların icra vəziyyəti. **2.** Fövqəladə vəziyyət haqqında. **3.** 28 May İstiqlal günü haqqında. **4.** Mövcud hərbi vəziyyət haqqında.

Prezident Əbülfəz Elçibəy çıxışında mayın 25-dən rus ordusunun Azərbaycandan çıxdığını bildirir. Bildirir ki, nəhayət, 2 əsrə yaxın zaman ərzində ölkəmizi işğal edərək burada yerləşmiş rus ordusu Azərbaycanı tamamilə tərk etdi.

**Elçibəy bu hadisəni böyük tarixi hadisə adlandırır və hamını təbrik edir. Həmçinin qeyd edir ki, böyük dövlətlər - ABŞ, İngiltərə və sair bu hadisəni müsbət qiymətləndirir, həm də bu prosesi gərginlik yaratmadan operativ şəkildə həll etməyimizdən təəccüblənirlər:** "Postsovet məkanında bu prosesi ilk olaraq həyata keçirən dövlət bizik. Hətta Almaniya kimi güclü dövlətin də ərazisində rus ordusunun kontingenti qalmaqdadır. Artıq Azərbaycan ərazisində başqa dövlətin ordusunun olmadığı müstəqil dövlətdir".

Ali Sovetin sədri İsa Qəmbər isə rus ordusunun komandanlığının Ali Sovetə və Müdafiə Nazirliyinə vida məktubu hazırladığını deyir və təklif edir ki, biz də onlara təşəkkür məktubu göndərək.

Müdafiə naziri Dadaş Rzayev isə rus qoşunlarının Azərbaycandan mədəni şəkildə getdiklərini bildirir.

Prezident Elçibəyin hərbi məsələlər üzrə müşaviri Yaşar Paşa rus əsgərlərin yalnız Qəbələ RLS-də qaldıqlarını deyir və ona görə də Qəbələ RLS-lə bağlı sənədlərin öyrənilməli, Rusiya ilə yeni anlaşma imzalanmalı olduğunu bildirir.

Ə.Elçibəy isə RLS-lə bağlı sənədlərin öyrənildiyini, danışıqlar aparıldığını, müzakirələr yekunlaşandan sonra imzalanacağını nəzərə çatdırır.

İ.Qəmbər qeyd edir ki, Rusiya RLS-dən istifadəyə görə icarə haqqı ödəməlidir. Çünki hərbi obyekt milliləşdirildiyi gündən Azərbaycanın mülkiyyəti sayılır.

Dövlət katibi Əli Kərimov bununla bağlı Rusiyadakı səfir Hikmət Hacızadənin danışıqlar apardığını nəzərə çatdırır.

Gündəlikdə digər məsələlərin olduğunu xatırladan İsa Qəmbər təklif edir ki, Qəbələ RLS-lə bağlı müzakirə sonrakı iclaslarda davam etdirilsin.

Sonra Türkiyə Silahlı Qüvvələrinin təmsilçisi, Elçibəyin müşaviri Osman Paşa məlumat verir ki, aparılan danışıqların nəticəsi olaraq Azərbaycan ordusunun qurulmasına yardım etmək və NATO standartları səviyyəsində əsgər hazırlamaq üçün Türkiyədən istənən hərbi təlimatçılar da gəldilər.

MN Baş Qərargah rəisi Nurəddin Sadıqov xahiş edir ki, ehtiyatda olan 150-200 nəfər zabit toplansın və türkiyəli təlimatçılar onları da təlimləndirsin. Çünki zabitlərin də NATO və Türkiyə ordu sistemini öyrənməsi vacibdir. Belə olarsa, həm də ordunun müasir səviyyədə qurulması prosesi sürətlənər.

Bu mövzuda müzakirələrin gedişində milli ordunun şəxsi heyətinin durumu, silah, hərbi texnika təchizatında vəziyyət ətraflı təhlil edilir, prezidentə məlumatlar verilir, ordu quruculuğu sahəsində ciddi addımların atılması üçün təkliflər irəli sürülür.

Bəzi rayonlarda icra hakimiyyəti başçıları ilə hərbi komandanlıq arasında konfliktlərin olduğu qeyd edilir və bu problemin təcili həllinin vacibliyi bildirilir.

İclasda baş nazirin birinci müavini Vahid Əhmədov, daxili işlər naziri Abdulla Allahverdiyev də təkliflərlə çıxış edirlər.

A.Allahverdiyev ölkədə Fövqəladə Vəziyyətin vaxtının iyunun 2-də qurtaracağını bildirir, həmçinin qeyd edir ki, Gəncədə və s. yerlərdə FV rejiminin tətbiq olunması müsbət qarşılanır. Nazir deyir ki, Gəncədəki diviziya, Seyfəlidə və Hacıkənddəki hərbi hissələr camaatda narazılıq yaradır. Həmin hərbi hissələrin Surət Hüseynovla əlaqəsi var.

D.Rzayev isə Surətin Murovda heç nəyinin olmadığını, orada 701-ci briqada və 1 batalyon olduğunu bildirir və onları da 45-ci hərbi hissəyə göndərdiklərini, Surətin Seyfəlidə 1 batalyonunun olduğunu məlumat verir.

A.Allahverdiyev qeyd edir ki, FV rejimi saxlanılsa Gəncədə və Mingəçevirdə işlər qaydasında olar.

D.Rzayev Lənkəranda da Əlikram Hümbətovun vəziyyəti qarışdırmaqla məşğul olduğunu nəzərə çatdırır.

İ.Qəmbər bildirir ki, mayın 27-də MM-də FV müzakirə olunacaq. Ona görə də bu gün və ya sabah FV haqqında fərman verilməlidir.

Ə.Elçibəy Avropa Şurasında da bu məsələyə müsbət baxdıqlarını məlumat verərək bildirir ki, əgər yeni yaranan dövlətlərdə FV rejiminin tətbiqi vətəndaş sülhünə kömək edirsə, bu variant istisna olunmamalıdır.

Müzakirələrin sonunda FV rejiminin iki ay uzadılması qərarı verilir.

3-cü məsələnin müzakirəsində mayın 28-də bəzi rayonlarda tədbirlər keçiriləcəyi, bir neçə yerdə M.Ə.Rəsulzadənin abidələrinin açılacağı, Bakıda isə H.Cavidin heykəlinin açılışı olacağı, həmin gün 3 yerdə abidənin açılışı olacağı məlumat verilir. Cavidin heykəlinin açılışı və saraydakı tədbirdə prezidentin iştirakının nəzərdə tutulduğu bildirilir.

Gündəlikdəki 4-cü məsələnin müzakirəsi zamanı Ə.Elçibəy hərbi rabitə sistemində çalışanları ciddi nəzarətdə saxlamaq göstərişi verir. Sonra ermənilərin Ağdərə istiqamətində hücumunun gözlənildiyini, ermənilərin Umudlu kəndindən Talış kəndinə yol çəkdiyini bildirir və buna nəzarət edilib-edilmədiyini xəbər alır. Prezident sonra orduda nizam-intizam məsələsinə ciddi fikir verilməsi barədə tapşırıqlar verir.

Milli təhlükəsizlik naziri Fəxrəddin Təhməzov iki aya yaxındır Füzulidə yerləşdirilmiş Sərhəd Qoşunları artıq əvəz etməyin lazım olduğunu bildirir.

D.Rzayev məlumat verir ki, iyunun 15-də ehtiyat batalyonları hazır olacaq və o zaman Sərhəd Qoşunları əvəz ediləcək.

Müdafiə naziri cəbhə xətti boyunca vəziyyət barədə məlumatlar verir, atılacaq və atılmalı addımlardan danışır.

Sonra Surət Hüseynov məsələsi geniş müzakirə edilir.

Elçibəy bildirir ki, Seyfəlidə Surətin bir hissəsi var. Verilən məlumata görə, orada atışmada 3 nəfər bir-birini öldürüb.

Əli Kərimov isə məlumat verir ki, indi bəzi batalyon komandirləri Gəncədə Hərbi Birlik yaradıb imza atırlar ki, Surətə tabedirlər. Bu adamlar tezliklə ordudan təcrid olunmalıdır.

A.Allahverdiyev "getdikcə nüfuzdan düşürük ki, niyə o hərbi hissə ilə bacarmırsınız. Son vaxtlar Surətə yaxın cinayətkar ünsürlər Hacıkəndə yığışırlar. Bu məsələni birdəfəlik qurtarmaq lazımdır" - deyə qeyd edir.

Əli Kərimov isə bunların çoxunun komandirlər olduğunu deyərək həmin şəxslərin operativ şəkildə hərbi hissələrdən təcrid edilməli olduğunu qeyd edir.

İsa Qəmbər "bayramdan sonra bu məsələ həll olunmalıdır" deyir.

Ə.Elçibəy bəyan edir ki, Surət Hüseynovun dəstəsinin özbaşınalığı, törətdiyi cinayətlər Azərbaycan dövlətinə və onun nüfuzuna ciddi zərər verib. İndi də o həddə çatıblar ki, dövlət komissiyasını hərbi hissəyə buraxmırlar. Ona və onun ətrafındakı cinayət əməlləri ilə məşğul olanlara Azərbaycan dövlətinin qüdrəti göstərilməli və özbaşınalığa son verilməlidir: "Ordu vahid mərkəzdən idarə olunmalı, bütün hərbi hissələr Müdafiə Nazirliyinə tabe etdirilməlidir. Azərbaycan dövlətinin müstəqilliyinə qarşı çıxan şəxs doğma qardaşım olsa belə onu bağışlaya bilmərəm. 709-cu briqada dövlətə tabe etdirilməli, törətdiyi cinayətkar əməllərə və fəaliyyətinə görə Surət Hüseynov ya həbs edilməli, ya da məhv olunmalıdır".

**P.Hüseynin bu cür mühüm sənədi 26 il sonra ictimaiyyətə açıqlaması böyük maraq və suallar doğurub. Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan P.Hüseyn bildirdi ki, sənədin yüz faiz mötəbər olduğu və əsli olduğu qənaətindədir:** "Bir qayda olaraq o dövrdə Dövlət Müdafiə Komitəsinin sənədləri dövlət katibi olanda da, baş nazir olanda da mənə verilirdi, mənim tərəfimdən və sənədi tərtib eləyən katib tərəfindən imzalanırdı. Bu protokol Dövlət Müdafiə Komitəsinin axırıncı iclasınındır. Lakin imzalanmayıb. Mən Londondan qayıtdıqdan sonra imzalamaq üçün mənə təqdim olunmuşdu. Ancaq o vaxtkı hadisələr üzündən protokol imzalanmamışdı. Dövlət Müdafiə Komitəsinin iclaslarının həm protokolu tutulurdu, həm stenoqramı tutulurdu. Bu barədə daha müfəssəl məlumatları prezident Elçibəyin köməkçisi olmuş Oqtay Qasımovdan ala bilərsiniz. Son dövrlərdə Dövlət Müdafiə Komitəsinin iclaslarının protokol qeydlərini və sənəd halına salmağı prezident Oqtay Qasımova həvalə etmişdi. Dövlət Müdafiə Komitəsi prezident ölkədə olduğu dövrdə demək olar ki, hər gün toplanırdı, fasiləsiz fəaliyyət göstərən kollektiv orqan idi.

Tarix üçün o dövrdə hakimiyyətdə vəzifə tutmuş bəzi yoldaşlarla məsləhətləşdim və bu sənədi yaymaq qərarını verdim".

**Bəs 26 may iclasından cəmi 8 gün sonra Surət Hüseynovun hakimiyyətə qarşı qiyamının başlayacağı gözlənilən idimi?**

**Prezidentin göstərişi nə üçün yerinə yetirilmədi? Hansı faktorlar Surət Hüseynovu zərərsizləşdirməyə imkan vermədi və ya mane oldu?**

**P.Hüseyn bildirdi ki, əslində qiyam aprelin əvvəllərindən başlamışdı və onun açıq hərbi müstəviyə keçməsi hər an gözlənilirdi:** "Surət Hüseynovun məhv edilməsi ifadəsi müxtəlif cür şərh oluna bilər. Əslində söhbət hüquqi çərçivələr şəklində gedirdi. Çünki Surət Hüseynovun tabeliyində olan qeyri-qanuni hərbi dəstə və onun fəaliyyəti barədə Baş Prokurorluq aprel ayından iş aparırdı, hərbi əks kəşfiyyatın məlumatları var idi. Dövlətə, qanuni hakimiyyətə qarşı qiyam hərəkətləri açıq şəkildə ortada idi. Hətta prezidentə ultimatum da vermişdilər ki, mayın sonuna qədər tələbləri yerinə yetirilməsə ölkədə idarəetmə səlahiyyətini öz üzərlərinə götürəcəklər. Prezident də bütün bunları nəzərə alaraq Surət Hüseynov barəsində sərt hüquqi tədbir görülməsi göstərişini vermişdi. Lakin nəzərə alsaq ki, bizim qarşımızda zirehli maşınlarla, hərbi qüvvələrlə silahlanmış hərbçilər durmuşdu və onları bəzi xarici dövlətlər müdafiə edirdi, onları yönləndirirdilər, o zaman görəcəksiniz ki, məsələ elə də asan məsələ deyildi. Təəssüf ki, Surət Hüseynovun nə həbsinə, nə də məhvinə nail olmaq mümkün olmadı. Elçibəyin qanuni hakimiyyətini qoruyub saxlaya bilməmək komandanın birbaşa subyektiv səhvi idi. Bu işə cəlb olunmuş şəxslərin, o cümlədən mənim üzərimdədir məsuliyyət. Əlbəttə ki, Surət zərərsizləşdirilə, qiyam yatırıla və Azərbaycan bu taleni yaşamaya bilərdi".

**Prezident Elçibəyin köməkçisi olmuş Oqtay Qasımov isə "Yeni Müsavat"a açıqlamasında Pənah Hüseynə sözügedən sənədi ictimaiyyətə açıqladığı üçün təşəkkür etdi:** "Pənah bəy sağ olsun ki, gec də olsa o sənədi Azərbaycan xalqı ilə paylaşdı. Həmin protokolun həqiqəti əks etdirdiyini təsdiqləyirəm. Bu sənədin cəmiyyətə təqdim olunmasının müsbət tərəfi odur ki, cəmiyyətdə uzun müddətdən bəri formalaşmış müəyyən fikirlərin yanlış təbliğat nəticəsində formalaşdığını ortaya qoydu. Cəmiyyətdə formalaşmış bir fikir var idi ki, Elçibəy iqtidarındakıların dövlətçilikdən xəbəri yox idi, heç bir iş görə bilmirdilər, hər şey başıpozuq vəziyyətdəydi, prezident Elçibəyin baş verənlərdən xəbərsiz idi, Elçibəy qətiyyət göstərmirdi və sair. Cəmiyyət Pənah Hüseynin yaydığı həmin protokoldakı çıxışlara, təkliflərə, suallara nəzər salanda görəcək ki, prezident Elçibəy məsələlər barədə detallarına qədər məlumatlıdır, Surət Hüseynov barədə də ən ciddi tədbir görülməsinə qədər göstəriş verib. Əbülfəz Elçibəyin Surət Hüseynov məsələsi ilə bağlı mövqeyi 26 maydan əvvəl də birmənalı idi. Elçibəy təbiət etibarilə insan kimi nə qədər humanist olsa da dövlət məsələsində, Azərbaycanın taleyi ilə bağlı məsələlərdə o qədər sərt olub. Ona görə də Surət Hüseynova və onun ətrafındakı cinayətkar qruplaşmalara, Rusiya tərəfindən idarə olunan hərbi briqadaya qarşı Elçibəyin münasibəti son dərəcə kəskin idi. Prezident lazımi göstərişini vermişdi. Bu göstərişin sona qədər yerinə yetirilməməsinə o zaman güc strukturlarının rəhbərliyindəki bəzi şəxslərin səriştəsizliyi, qətiyyətsizliyi öz təsirini göstərdi. Bəzi şəxslərin isə Azərbaycan dövlətinə və onun başçısına xəyanətinin rolu oldu ki, Surət zərərsizləşdirilmədi. Təbii ki, Surət Hüseynovun arxasında Rusiya dayanmışdı, Rusiya hərbi kəşfiyyatı prosesi idarə edirdi. Rusiyanın arxasında durduğu qiyamı yatırmalı olan güc strukturları, onlara rəhbərlik edən şəxslər qarşılarındakı qüvvədən daha zəif və qətiyyətsiz çıxdı. Bir hissəsi isə xəyanət elədi. Ona görə də həyata keçirilməli olan əməliyyat uğursuzluğa düçar oldu. Xüsusilə də Müdafiə Nazirliyi, onun başında dayanan şəxs prezidentə xəyanət eləməklə Azərbaycan dövlətinə də xəyanət eləmək yolunu tutdu. Güc strukturları öz vəzifələrinin öhdəsindən gələ bilmədilər. Bəziləri hətta silahlarını Surətin adamlarına verib Gəncəni tərk eləmişdilər".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Regionun "div" komandasının cırtdana uduzması

Samir SARI

**Hər dəfə futbol millimiz və ya klub komandamız özündən zəif rəqibə uduzanda başımız çönür. Əlbəttə, güclü rəqibə uduzanda da deyinirik, giley-güzar edirik, məğlub futbolçularımızı qınayırıq (çox vaxt ələ salırıq, istehzaya məruz qoyuruq), amma bu, zəif rəqibə uduzduqları vaxt olduğu qədər şiddətli olmur.**

Əslində, "zəif rəqib" söhbəti burada şərti plandadır. Bir halda ki o əcnəbi komanda bizim komandanı udub, deməkgüclü odur, zəif bizik.

Amma biz kimisə "zəif rəqib" hesab edəndə həmin komandanın statistik göstəricilərini, FİFA-nın, UEFA-nın reytinq cədvəlindəki yerlərini nəzərə alırıq. Elə komandalar var ki, ömründə bir qələbəsi yoxdur, rəqib komandasının qapısına 3-4 ildən bir qol vurur, ya vurmur. O cür komanda təbii ki, bizim gözümüzdə zəif rəqibdir.

İntəhası, belə rəqiblə qarşılaşanda, oxumuş adamların sözü olmasın, fors-major durum yaranır, həmin komanda məhz 3 ildən bəri vura bilmədiyi qolu bizim komandanın qapısına vurur və tarixində ilk qələbəni bizim üzərimizdə qazanır. Bax, belə məqamda haqlı olaraq bizim azarkeşlərin başı çönür.

Axırıncı dəfə elə bir haqq-hesab srağagün baş verib. Lixtenşteynin U-21 millisi azərbaycanlı həmyaşıdlarına 1:0 hesabıyla qalib gəlib.

Artıq Lixtenşteyndə karnavaldır, festivaldır, ümummilli bayramdır. Çünki bu, onların tarixində ilk qələbədir.

Lixtenşteynlilərin baş məşqçisi Martin Ştoklaza "güclü rəqibə qarşı oynadıq" deyərək əlavə edib ki, qələbə qazandıqları üçün qürur duyur. Adam "yeni tarix yaza bilmək"dən də danışıb və bir balaca qudurğanlıq edərək deyib ki, "bu komanda daha artığını bacara bilər".

Adamın xəbəri yoxdur ki, bu, 40 ildə bir olan işdir, bir də bizimki kimi U-21-ləri hardan tapacaqsınız ki, çovumuş güllə kimi qapısına qol vurub qələbə qazanasız. Allahın Farer adaları indiyə qədər yeddi dəfə çiləyib sizi.

Amma biz özümüzə cavabdehik, öz məğlubiyyətimizə baxaq. Lap deyək ki, bu təsadüfi bir qol idi və Lixtenşteynin də qələbəsi təsadüfən oldu.

Adama deyərlər, sən qol vurdun, saymadılar?

Düzdür, bizim hücumçular Lixtenşteyn komandasının qapıçısı Armando Mayeri bir az incidiblər, amma məsələ onun qanını tamam qaraldacaq duruma çatmayıb. Əvəzində indi Mayer ölkəsində 3 qəhrəmandan biridir.

Ona görə də hazırda futbol azarkeşlərimiz çox qəzəblidir. Portuqaliyaya 6:0 uduzanda heç bu qədər yanıb-tökülməmişdik. Çünki Portuqaliyanın ən güclü vaxtında, Luiş Fiqunun, Nunyo Qomeşin, Rui Koştanın dövründə bu komandaya Bakıda dra-dra dedizdirmişdik, portuqallar məğlubiyyətdən güclə yaxa qurtarmışdılar. Fiqu Bakıdan nə təhər qəzəbli getmişdisə qatıldığı beynəlxalq futbol iclaslarında çıxış edərkən deyirdi ki, Bakıda stadionun qazonu eləydi, beləydi, meydança kələ-kötür idi, təşkilatçılıq yaxşı deyildi.

Amma ona deyən olmadı ki, qazon pis idisə, hər iki komanda üçün pis idi... Yəni adam Bakıdakı uğursuzluğu üçün elə hey bəhanə axtarırdı.

İndi Fiqunu Bakıdan pərt yola salan futbolçularımızın xələfləri gedib Avropanın ilk "qırxlığ"ına düşməyən komandaya uduzurlar.

Lixtenşteyn, bilirsiniz, nə boydadır? Təxminən bizim Sulutəpə boyda. Bəziləri onu Qubayla, Bərdəylə, Lənkəranla müqayisə edir, amma yox, bu rayonlar, əhali sayına qalsa, Lixtenşteyndən 3 dəfə böyükdür. Cəmi 37 min nəfər əhalisi var Lixtenşteynin. Bu cırtdan ölkəni bəlkə bizim Daşkəsənlə müqayisə etmək olar - hər ikisinin adında "daş" olduğuna görə.

Siz təsəvvür edin, orada 37 min nəfərin içindən 22 nəfər 21 yaşlı gənc tapıb futbol oynada bilirlər, biz 10 milyondan 10 nəfər çıxarda bilmirik (yerdə qalan 1 nəfəri də legionerlərdən birini milliləşdirməklə düzəldirik).

Bu, nədir axı? Fiziki gücə-qüvvətə, tatami üstündə süpürləşməyə, rinqdə yumruqlaşmağa qalsa, əmin olun ki, 100 idmançı Lixtenşteyndən çıxsa, yüzü də bizdən, ümumi hesab 100:0 olmasa da, 95:5 hesabıyla bizim xeyrimizə olar. Di gəl, futbolda 0:1 hesabıyla uduzuruq.

Bunun səbəbləri araşdırılmalıdır və tapılmalıdır. Ya da gərək ayağımıza butsi geyinib yaşıl sahələrə çıxmayaq.

# Azərbaycan politoloqları haradan və necə qazanır...







## **Nəzakət Məmmədova:** "Mənasız şərhlər verən bəzi politoloqlar hansı haqla qonorar tələb edə bilər?"
## **Elxan Şahinoğlu:** "Bu fəaliyyətimə görə mən əmək haqqı almıram"
## **İlham Şaban:** "Azərbaycandan kənarda çıxışım azı 500 dollardır"

**Dünyanın aparıcı ölkələrində tanınmış politoloqların aylıq gəlirləri kifayət qədər yüksək olur. Onlar təhsil müəssisələrində mühazirələr deməklə, mətbuatda şərhlər verməklə pul qazanırlar.**

Məsələn, ABŞ-ın sabiq dövlət katibi Hillari Klinton vəzifəsindən uzaqlaşdığı 16 ay müddətində 12 milyon dollar qazanıb.

Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili də hakimiyyətdən getdikdən sonra ABŞ-ın Tafts Universitetinin yanında Fletçer adına hüquq və diplomatiya məktəbində Avropa idarəetməsi üzrə mühazirələr deyib.

Bunun müqabilində məbləğ açıqlanmasa da eks-prezidentin yüksək qonorar aldığı bildirilir. Bəs bizdə necədir?

**"Mən politoloq olaraq elə hamı kimi dolanıram. Heç bir yerdən gəlirim yoxdur, qonorar da almıram. Bu fəaliyyətim könüllü, ictimai əsaslarla olan fəaliyyətdir".**

**Siyasi şərhçi Nəzakət Məmmədova "Yeni Müsavat"ın sorğusunu cavablandırarkən belə deyib.**

**Onun sözlərinə görə, dünyanın inkişaf etmiş ölkələrində hər yerindən duran analitik olmur:** "Heç də özünə hörmət edən ölkələrdə hər təsadüfi insan, müvafiq sahədə elmi məqalələri olmayan, ictimai fikrə təsir imkanı, nüfuzu olmayan şəxslər politoloq kimi qəbul olunmur.

Cəmiyyətin qəbul etdiyi əsl savadlı, dəyərli fikir, tezis bildirən politoloqlara isə qonorar ödənilir. Media o vaxt politoloqa qonorar ödəyə bilər ki, onun fikirləri saytlara, qəzetlərə reytinq gətirsin, media buradan pul qazansın və o puldan politoloqa qonorar ödəsin".

**N.Məmmədova hesab edir ki, özünə hörmət edən media bu sahədə savadı, erudisiyası, ideyaları olmayan şəxsdən heç fikir belə alıb onu cəmiyyətə təqdim etmir:**

"Bizdə isə hər sahədə olduğu kimi, təəssüf ki, bu sahədə də təsadüfi şəxslər var. Hansısa yollarla, vasitələrlə bəzi mətbuat orqanlarına sızıb cəmiyyətə özlərini sırımağa çalışırlar.

Elələri var ki, özlərini politoloq, ekspert kimi pafosla təqdim etməkdən utanmır, üstəlik, beynəlxalq hüquq və beynəlxalq münasibətlər üzrə mütəxəssis kimi təqdim edir. Mən Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm. Ancaq özümü beynəlxalq hüquq və münasibətlər üzrə mütəxəssis təqdim etmirəm, diplomumda beynəlxalq münasibətlər üzrə mütəxəssis yazılıb, o cür də təqdim edirəm".

**Müsahibimiz bildirdi ki, o cür yalançı şəxsləri cəmiyyətə yalandan sırıyan media mənsubları düşünməlidir:**

"Bu, ona bənzəyir ki, məsələn, türkəçarə ilə məşğul olan adamı yüksək ixtisaslı həkim, tibb mütəxəssisi kimi insanlara təqdim edəsən.

Bu, cəmiyyəti, insanları aldatmaqdır. Yevtuşenkonun gözəl bir şeiri var, orada deyilir ki, çətin tapşırıqdan yox, ucuz şöhrətdən qorxmaq lazımdır.

Ucuz şöhrətə can atan, millət vəkili olmaq, yaxud başqa vəzifə tutmaq məqsədilə yalandan mənasız şərhlər verən bəzi politoloqlar hansı haqla mediadan qonorar tələb edə bilər?!

Mənasız, boş fikirlərlə mediaya yük olan politoloq hələ şükür eləsin ki, media ona yer verib, onu reklam edir. Təbii ki, bu dediklərim nə bütün media orqanlarına, nə də bütün politoloqlara aiddir".

**N.Məmmədova çıxış yolunu dövlətin bu sahəyə nəzarəti artırmasında görür:** "Müəyyən kriteriyalar müəyyən edilməli, aidiyyəti olmayan, təsadüfi şəxslər bu sahədən kənarlaşdırılmalı, yalnız müəyyən standartlara, kriteriyalara uyğun şəxslər burada fəaliyyət lisenziyası almalıdır. Ondan sonra müvafiq attestasiyadan keçən şəxslər qanuni politoloq kimi fəaliyyət göstərə bilərlər".

**Politoloq Elxan Şahinoğlu "Atlas" Araşdırmalar Mərkəzini 14 ildir təsis etdiyini bildirdi:** "Təəssüf ki, Ədliyyə Nazirliyi bizi qeydiyyata almır. Səbəbini mənə izah etmirlər. Dövlət qeydiyyatımız olmadığına görə rəsmi ofisimiz də yoxdur.

Mərkəzin ekspertləri ilə ya hansısa müvəqqəti məkanda, ya da evimdə oturub müzakirələr və iş bölgüsü aparırıq. Mən 3 dəfə sənədlərimi təqdim etsəm də, Ədliyyə Nazirliyi məni qeydiyyatdan keçirmədi. Buna baxmayaraq, biz öz işimizlə məşğuluq, həftəlik hesabatlar hazırlayırıq, Azərbaycanla bağlı vacib hadisələrə anında reaksiya verir, analizlər hazırlayır və bunu mediada yayınlayırıq.

Qərbi Kaspi Universitetində dərs dediyim müddətdə tələbələrim içərisində fəalları seçdim, onlarla il yarım məşğul oldum və indi fəxr edirəm ki, ən azı 5-6 tələbəm mediada ekspert kimi çıxış edir, bu və ya digər hadisələrə münasibət bildirirlər".

**Ekspert öz imkanları hesabına fəaliyyət göstərdiyini söylədi:** "Nə daxildən, nə də xaricdən heç zaman qrant almamışam. Televiziyalardakı çıxışlarıma, qəzetlərdəki açıqlamalarıma və yayınladığım analizlərə görə heç yerdən qonorar almıram. Hansısa media quruluşunun siyasi ekspertlə və ya analitiklə müqavilə əsasında əməkdaşlıq etdiyini də eşitməmişəm. Mənə də bu günə qədər heç bir media quruluşu bu əsasda əməkdaşlıq etməyi təklif etməyib. Halbuki özümün bir müddət çalışdığım internet televiziyalarından birində aparıcı kimi çağırdığım qonaqlara hər gəlişlərində kifayət qədər yüksək qonorar verilməsinə nail olmuşdum.

Bunu ona görə etmişdim ki, dəvət etdiyim qonaqların fikirləri dəyərlidir, həmin şəxs beyin məhsulunun daşıyıcısıdır və həmin məhsul qiymətləndirilməlidir.

O, həmin məhsulu hazırlayana qədər xeyli informasiya ilə tanış olub, onları analiz edib və öz fikirlərini izləyicilərlə bölüşüb. Çox təəssüf ki, hazırda ölkəmizdə beyin məhsulu qiymətləndirilmir.

Elə bilirlər ki, elə belə də olmalıdır. Ona görə də bizdə politoloqların sayı azdır. Çünki politoloq öz peşəsindən birbaşa pul qazanmır. O, haradasa işləmək məcburiyyətindədir. Ancaq ikisini bir arada tutmaq da çətindir".

**E.Şahinoğlu dedi ki, gündə ən azı 10-15 jurnalistin sualına cavab verir:** "Yazılı cavablar göndərirəm, televiziyalara dəvət olunuram. Başqa sözlə, günümün əksər hissəsini buna sərf edirəm. Əgər özümü politoloq və ya siyasi analitik adlandırıramsa, bunu etməliyəm. Çünki özüm də istəyirəm ki, müxtəlif məsələlərlə bağlı həm öz fikirlərimi, həm də mərkəzimizin analizlərini cəmiyyətlə paylaşım. Ancaq bu fəaliyyətimə görə mən əmək haqqı almıram".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın məsələyə baxışı fərqlidir. Onun sözlərinə görə, "LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərovdan 10 dəqiqəlik müsahibə 5 min avrodur:** "Ağıllı söz deyən adama hər yerdə pul verilir. Vahid Ələkbərova 10 dəqiqəlik müsahibə üçün hər hansı media 5 min avro ödəyir.

Çünki onun ağzından çıxan söz dünya birjasına təsir edir. Amma hamı eyni sözü danışanda cəmiyyət üçün maraqsızdır, rəngarəngliк olmalıdır. Bizdə dədə-baba qaydasıdır".

**İ.Şabanın sözlərinə görə, Rusiyada Bakı pomidorunun qiyməti ilə kimsə maraqlanmır:** "Amma gəlir məndən soruşurlar ki, neft niyə düşdü, ya niyə qalxdı? Bunu məndən niyə soruşursan? Sən soruş Azərbaycanda neftin qiyməti necə formalaşır. Məni hara çağırırlarsa hər çıxışım qonorardır. Yəni bu bazara girəndən kommersiya ilə işləyirəm, şirkətlərlə əməkdaşlıq edirəm. Məsələn, 50 sifariş ola bilər, amma pul verməsən gəlmirəm".

**İ.Şaban Azərbaycandan kənarda çıxışının azı 500 dollar olduğunu bildirdi:** "Azərbaycanda isə hər çıxışım 500 manatdan aşağı deyil. O da var ki, medianın azad reklam bazarı olmalıdır və ekspertin çıxışına əldə etdiyi gəlirdən qonorar ödəyə bilməlidir. İntəhası, hamıya yox. Bizdə birja, səhm, qırmızı xətt, yaşıl xətt anlayışlarını bilməyənlər nə gəldi danışırlar. Ona görə ictimaiyyətə müəyyən qədər enerji sərf edirəm, əsas gücüm kommersiya şirkətlərinə gedir".

❑ Emil SALAMOĞLU
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

# "Amerikada bir dənə karton stəkanda çay 4 dollardır"

## Hadi Rəcəbli: "Bütün dünyada qəbul olunmuş orta deputat yaşı haradasa 60-65-dir; Amerikada 86 yaşında deputat var"

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Yeni Müsavat"a müsahibə verib. Sosial məsələləri də əhatə edən söhbətimizə komitə sədrinin ABŞ səfərindən başladıq. Parlamentin yaz sessiyasının son günlərində Hadı Rəcəblinin ABŞ-a səfər etdiyi barədə məlumat yayıldı. Nədənsə geri dönəndən sonra da səfərin məram-məqsədi barədə açıqlamalarına rast gəlmədik. Bu mənada səfərin məqsədi, həmçinin Amerika təəssüratlarını öyrənmək istədik.**

***- Hadi müəllim, ötən həftə səsiniz Amerikadan gəldi. Maraqlıdır, okeanın o tayına səfəriniz nə ilə əlaqədar idi?***

- Azərbaycanın dünya dövlətləri ilə əməkdaşlığı bizi və cəmiyyəti daim düşündürür. Həmişə narazılıq edirik ki, həqiqətlərimiz dünyaya yaxşı çatdırılmır, diaspordan bəhs edirik. Dünyanın da ən böyük dövləti ABŞ-dır. Amerika-Azərbaycan əməkdaşlığının, münasibətlərinin qorunub-saxlanması ən vacib məsələlərdəndir. Taleyimin qismətindən 2011-ci ilin iyun ayından ABŞ-ın Kaliforniya ştatının 30 min əhalisi olan Monterey şəhəri ilə Lənkəran qardaşlaşıb. Səfər təəssüratlarım zəngindir. Nə üçün məhz Kaliforniya ştatı? Kaliforniyada 1 milyon erməni yaşayır. Mən 2011-ci ildən oradakı yoldaşlarla əməkdaşlıq edirəm. Nensi xanım vaxtilə bələdiyyə üzvü olub. Çox gözəl, fədakar insandır. Azərbaycan-ABŞ dostluğuna varlığı ilə xidmət edən qadındır. O, dəfələrlə Bakıya səfər edib, nümayəndələri Lənkəranda olub. Nəhayət, onlar da bizi Monterey şəhərinə dəvət etdilər. Sağ olsun, spikerimiz bizi dəstəklədi. Parlamentdən mən getdim, Lənkəran Şəhər İcra Hakimiyyətindən birinci müavin və qəzet redaktoru getdi. Çox zəngin səfər oldu, xoş təəssüratlarla geri döndük.

***- Lənkəranla Montereyi birləşdirən nələr var?***

- Orada da subtropik bitkilər, limon, mandarin, feyxoa, çəltik bitir. Orada da Lənkərandakı kimi, tərəvəz əkirlər. Təsəvvür edin ki, ABŞ-ın Lənkəranına getmişdik. Şəhərin bütün görünüşü, mənzərəsi, evlər, təbiət Lənkərana o qədər oxşayır ki. Monterey okeanın kənarında, Lənkəran dənizin. Ən böyük təəssüratım bu oldu ki, mən Monterey də daxil olmaqla, böyük bir ərazini ABŞ Konqresində təmsil edən deputat Cimmi Panetta (Jimmy Panetta) ilə görüşdüm, geniş fikir mübadiləsi apardıq. Həqiqətlərimizi çatdırdıq, ərazilərimizin işğalından danışdıq.

***- Ənənəvi sual: ABŞ-dan Azərbaycanı necə gördünüz?***

- Bakı və Lənkəranı bir az da çox sevdim. Azərbaycan xeyli inkişaf edib. Həm demokratik sahədə, həm də sosial yönümdə sürətli inkişaf var.

***- ABŞ və Azərbaycan vətəndaşlarının maaş və pensiyaları barədə paralellik apardınızmı?***

- Əlbəttə, maaş və pensiyanı müqayisə etmək düz deyil. ABŞ-da əmək haqqı və pensiya yüksəkdir. Amma eyni zamanda Amerika vətəndaşının mənzil kirayəsi 2500 dollardır.

***- Bəs məvacibi nə qədərdir?***

- Orta əmək haqqı təxminən 3 min, 3 min 500. Pensiya da əmək haqqının 40-60 faizi. Onlarda ödənişin yığım forması var, vəsait qoyurlar, pensiyaya çıxanda onu da alırlar. Amerikada bir dənə karton stəkanda çay 4 dollardır. Özü də içərisinə yarpaq salıb içirsən. Limonun biri 2-3 dollardır. Üç yüz qramlıq qabda çiyələk 4 dollardır. Orada da kənd təsərrüfatı yarmarkası var idi. Küçəni bağlamışdılar, adamlar məhsullarını gətirib satırdı. Lənkəranda nə məhsullar varsa, orda da eyni mallar idi. (gülür)



"ABŞ-Azərbaycan əlaqələri bundan sonra da genişlənməli, inkişaf etməlidir"

***- Lənkərandan ora sovqat nə aparmışdınız?***

- Lənkəranın çayı, kiçik suvenir xalçalar. İyunun ikinci yarısında onlar da Lənkərana səfər edəcəklər, bələdiyyə sədri, şəhər meri və digərləri.

***- Ürəyinizdən "Amerikanın Lənkəranı"nda yaşamaq keçmədi ki?***

- Yox, qəti. Mən Azərbaycanı, Bakını, Lənkəranı San-Fransiskodan da, Montereydən də çox-çox sevirəm. Mühacirlərdən çox danışılır. Mən oradakı azərbaycanlılara görə qürur hissi keçirdim. Bir ailədə qonaq olduq. Qadın 3 oğlu, onların ailələri ilə bir evdə yaşayır, orta dolanışıqları var. Bu xanımda, oğlanlarında Azərbaycan sevgisi nə qədərdir... Montereydə keçirilən 28 May tədbirlərində iştirak etdilər. Fərhad dirijorluq edirdi, Eldar skripkada Azərbaycan mahnıları çalırdı. Vüsal adında gəncimiz isə San-Fransisko universitetində professordur, dərs deyir. İdris adlı cavan oğlan Montereydə Hərbi Akademiya tələbəsidir.

***- "Amerikanın Lənkəranı"nda villa almaq keçmədi könlünüzdən?***

- (Gülür). Lənkəran çox gözəl şəhərdir, kimin imkanı varsa, gəlib orada villa tikdirsin, Montereydə yox. Əlbəttə, orada mənzil baha deyil, 50 min dollara kiçik 1-2 mərtəbəli evlərdir. Mən bir daha torpağıma bağlandım, Bakının gözəlliyinə heyran oldum. Elə onlar bura gələndə də heyranlıqlarını gizlətməmişdilər. Bir məsələyə daha çox sevindim ki, 28 Mayda 4 şəhərdə "Azərbaycan günü" qeyd olunması ilə bağlı rəsmi sənəd imzalandı. Bu şəhərlərdə əhalinin orta hesabla sayı 250 mindir. Biz bütün görüşlərimizdə həqiqətlərimizi çatdırdıq, onlar da qəbul etdilər. Səfər müşahidələrim məndə bir qənaəti möhkəmləndirdi ki, Amerika-Azərbaycan əlaqələri bundan sonra da genişlənməli, inkişaf etməlidir. Qarşılanma yüksək səviyyədə oldu. Onlar çox sevindilər ki, qonaqların içərisində Azərbaycanın millət vəkili də var idi. Biləndə ki, mən 32 yaşımda Lənkəranın meri olmuşam, onlar bir az da qürurlandılar. Lənkəran-Monterey münasibətləri Azərbaycan-ABŞ münasibətlərinin elə bil ki, özəyi, ilkin rüşeymi kimi özünü göstərdi. İnanın, onların merləri, bələdiyyə sədrləri bizə necə vurulmuşdular.

***- Orada iqtidar-müxalifət münasibətlərini müşahidə edə bildiniz?***

- Bilirsiniz necədir? Müxalif fikirlər ümumi işə xeyir verməlidir, dağıdıcı olmamalıdır. Dünyada qəbul olunmuş sivil qayda var: iki qüvvə mübarizə aparır, biri hakimiyyətə gəlib hökuməti - Nazirlər Kabinetini formalaşdırır, ikincisi "kölgə kabineti"ni qurur, hökuməti nəzarətdə saxlayır, tənqid etməyə çalışır. Yəni bütün bu mübarizənin nəticəsi xalqa xidmətdir. Rəhmətlik Heydər Əliyevin vaxtında "Bakılı oğlanlar" hökuməti parodiya edirdilər, yaxud "Yeni Müsavat" onda da kəskin tənqid edirdi. Normal da qəbul olunurdu. Deməli, onda da cəmiyyət demokratik idi. Yoxsa "hər şey pisdir, gəl bunu dağıdaq" yanaşması doğru deyil axı. Təhqir, təhrif, yalan, iftira, anonimlik, söyüş..... Belə müxalifət, belə mübarizə olar? Mübahisənin, mübarizənin son məqsədi xalqın rifahının yaxşılaşmasıdır.



***- Görüşdüyünüz adamlar içərisində də 30 ilin konqresmenləri var idi?***

- 50 il deputat olanlar da var idi.

***- 71 yaşında deputat olduğunuza görə sizi qınayan olmadı ki?***

- Xeyr, orada 86 yaşında deputat var! Bütün dünyada qəbul olunmuş orta deputat yaşı haradasa 60-65-dir. Həyatı zaman-zaman yaşaya bilən, cəmiyyətdə tanınan adamlar seçilirlər. Mənim görüşdüyüm konqresmenin babası 1921-ci ildə İtaliyadan ora gəlib. Atası Montereydə yaşayıb və ABŞ-ın müdafiə naziri olub. İndi oğlu konqresmendir. Buyurun! ABŞ-da yaş limiti yoxdur. Əksinə, yaşlı adamlar idarətmədə daha səmərəli iştirak edirlər.

***- Hadı müəllim, yaz sessiyasının son iclasındakı çıxışınızda "Azərbaycanda iqtisadi inkişaf, maliyyə imkanlarının artması Azərbaycan vətəndaşının işlə təmin olunmasına, məşğulluğuna və əmək haqqının, pensiyaların artırılmasına yönəlməlidir" dediniz. Bu fikirləri növbəti addımların anonsu saymaq olarmı?***

- Yaz sessiyasının 13 iclasında 151 qanun və qərar qəbul olunub. Parlamentin bu dövrdəki fəaliyyətində bizim arzu-istəklərimizin böyük bir hissəsi öz əksini tapdı. Martdan başlayaraq cəmiyyətdə 25 ada qrup-stratlar faydalandılar. Minimum pensiyanın qaldırılması, minimum əmək haqqının yaşayış minimumuna çatdırılması, Qarabağ əlillərinin müavinətlərinin artması... Bu göstəricilər möhtərəm prezidentimizin parlamentə göndərdiyi sənədlərlə bağlı idi və Azərbaycanda bu proses indi də gedir. Dönə-dönə bildirmişik ki, möhtərəm prezident deyir artımlarla bağlı bu proseslər davamlı olacaq. Son olaraq əlillərə qayğı qurumla iki dəfədən çox artaraq 200-ə çatdı və bu sosial müdafiə mərkəzlərinə iyunun 1-dən 5 milyon manat vəsait ayrıldı. Bu qərar təqribən 20 min adamı əhatə edəcək.

***- Uşaqpulu ilə bağlı əhalinin gözləntisi qalır. Bu haqda nə demək olar? Amerikada uşaqpulu anlayışı varmı?***

- ABŞ-da bu məsələlər fərqlidir. Uşaq problemləri orda daim gündəmdə olan məsələdir. ABŞ-da əhalinin artımı aşağı düşür, əhalini maraqlandırırlar ki, daha çox uşaq dünyaya gəlsin və onlar ağıllı və zəhmətkeş böyüsünlər.

***- Amma siz də doğum faizinin aşağı düşməsindən narahat olduğunuzu demişdiniz...***

- Bəli, bunu həmişə deyirik. Amma son illər doğuş azalsa da, bizdə ildə 100 min təbii artım var. Əlbəttə, biz uşaqlara qayğını artırmalıyıq. Prezidentimizin son sərəncamı da məhz bunu nəzərdə tutur. Amma sosial müdafiə sistemində üç vacib şərt var: əlçatanlıq, ünvanlılıq və şəffaflıq. Biz 2002-ci ildə uşaqpulu institutundan ünvanlı yardım institutuna keçdik. Bunun kökündə ailəyə qayğı, dəstək durur. Əlbəttə, ailədə uşaq çox olanda ona ünvanlı yardım da düşürdü. Çünki gəlir bölünəndə adambaşına az vəsait düşürdü. Bu gün uşaqpulu mövzusu gündəmdədir. Lakin populizm lazım deyil. Biz də dəfələrlə bunu demişik. Təəssüf edirəm ki, mənim parlamentdə uşaqpulunun verilməsi ilə bağlı olan çıxışımı tərsinə yayırlar. Mən bunun formasını yazılan kimi deməmişəm. Demişdik ki, analığa görə müavinət artsın, möhtərəm prezidentimiz sərəncam verdi, iki dəfə artdı. 3 yaşa qədər uşaqlarla bağlı da fikirlər demişik, bunlar hamısı

**"3 yaşa qədər uşaqlarla bağlı da fikirlər demişik, bunlar hamısı gündəmdədir, araşdırmalar gedir, maliyyə tutumu öyrənilir"**

gündəmdədir, araşdırmalar gedir, maliyyə tutumu öyrənilir. Xoşa gəlmək üçün nəsə deyib adamları qıcıqlandırmaq düzgün deyil. Mənim səsləndirdiyim fikirlər qüvvədə qalır, uşaqlara görə müavinətlərin bu və ya digər formada verilməsinin tərəfdarıyam, bunu dönə-dönə demişəm və bu gün də deyirəm. Fikrimiz budur ki, uşaqlara qayğı daim ön plana çəkilməlidir.

***- Sizcə, uşaqpulunun miqdarı nə qədər olmalıdır?***

*(Davamı növbəti sayımızda)*

(Davamı növbəti sayımızda)

**Elşad PAŞASOY,**
**FOTO: "YM"**



# Millləti çəkidə aldadıblar

Zamin HACI
zaminhaci@gmail.com

"Örtülü bazar, dostluğu pozar"
*(Azərbaycan ata sözü)*

**Moskvada rusdilli "Meduza" saytının jurnalisti İvan Qolunovu tutub zindana salıblar. Mən bu hadisəni yüngülcə izlədim və açığı, bir qədər təəssüfləndim. Çünki dünyada yeniliklər olur, ancaq biz bunlardan qıraqda qalırıq. Nə üçün? Niyə? Zaçem? Biz gərək böyük qardaşımızdan dərs alaq. İndi mən yazım, siz də baxın görün nə qədər həlli vacib, zəruri problemdir.**

Söhbət ondadır ki, (əlbəttə, həll edilmədiyi üçün ona gəlib çatıb, yoxsa səkkiz, doqquz olanda tərpənərdik) həmin jurnalisti rus milisləri tutarkən üzərindən, çantasından və evindən çoxlu narkotik maddə və... tərəzi aşkar edərək götürmüşlər. Bax, bizi düşündürən də elə bu tərəzidir. Çünki jurnalist narkotik maddələri hazırlayıb satmaqda suçlanır. İndi gəlin yada salaq, lap istəsəniz Gogle-da "jurnalist, müxalifətçi, narkotik, tərəzi" sözlərini yazıb axtarış verək. Nəsə əldə edəcəyikmi? Yox. Belə xəbərlər sıfır səviyyəsindədir. Halbuki indiyə qədər bizdə onlarla, bəlkə yüzlərlə jurnalistin, müxalifətçinin narkotik alveriylə məşğul olması tərəfimizdən aşkar edilib götürülmüşdür. Hətta bizdə elə baş redaktor olub ki, kolumbiyalı narkobaron Pablo Eskobar müəllim arzu edib gəlib Bakıda ondan intervü alsın, işin sirlərini öyrənsin, lakin biz vətəni və milli dəyərlərimizi satmırıq. Biz heç xaricə xalça da satmamışıq tarixən, itimizin altına sərmişik. O üzdən indi xarici muzeylərdə tapılan xalçalarımızı itəbaxanların oğurladığı güman edilir. Nəsə, temadan uzaqlaşmayaq, qayıdıb görərik köşənin yerində pambıq əkiblər.

Uzun sözün qısası, bizdə narkoticarətlə məşğul olan müxalifətçilərin heç birisində tərəziyə rast gəlinməmişdir. Əks halda, rəsmi xəbərlərdə " ... və bir elektron tərəzi aşkar edilib götürülmüşdür" yazılardı. Ancaq tərəzi yoxdur. Mal var, hər cür heroin, marixuana, rəhmətlik Cəlal əmi demişkən, "kristal kokain" ələ keçirilir, tərəzi isə olmur.

İndi biz buradan hansı nəticəyə gəlməliyik? Deməli bu yaramaz müxalifətçilər, jurnalistlər xalqı narkotik satışı zamanı da aldadırmışlar! Tutalım, sən gəlirsən bunun yanına, deyirsən ordan 3 qram heroin ver, 25 ildir hakimiyyətə həsrətik, bəlkə bu yolla nəşələnək, qanımız qaralıbdır. O da tökür qaba 2 qramı, yalandan deyir 3 qramdır. Nə bilsən? Tərəzi yoxdur axı. Biz gərək hüquq-mühafizə orqanlarından, ədalət məhkəmələrimizdən xahiş eləyək, onların qarşısında vəsatət qaldıraq ki, bu yaramazları həmçinin istehlakçı hüquqlarını pozmaq maddəsiylə dama salsınlar. İşin üstünə bunun da cəzası gəlinsin. Özü də bu dəqiqə əhalinin istehlak hüquqları, qida təhlükəsizliyi, yemək-içməyin düzgün verilməsi çox aktualdır. Keçən həftə həmin yeməyə baxan idarənin şöbə müdirini tutub qoduqluğa saldılar, çünki qəssabla əlbir olub eşşək ətinə yalandan peçat vururmuş ki, guya ceyran bududur. Belə şeylərə yol verməməliyik.

Ancaq əlbəttə, uğurlar da qaçılmazdır. Bunlardan qeyd edə bilərik 21 yaşlı gənclərdən ibarət futbol yığma komandamızın Lixtenşteynə uduzmasını. Bu Lixtenşteyn cırtdan bir dövlətdir, hətta səhv eləmirəmsə, milli orkestrindəki skripkaçıların sayı ordusundakı əsgərlərin sayından çoxdur. Ordusu 22 əsgər və 1 itdən ibarətdir. Bütün tarixi boyunca Lixtenşteyn cəmi 2 dəfə futbolda qələbə qazanıb, təsəvvür edin ki, bunun ikisi də Azərbaycan üzərində olubdur. 21 il qabaq lap zırpılardan ibarət milli komandamızı qazlamağı bacarıbmışlar. İndi fikirləşin, əgər 21 il keçəndən sonra həmin il doğulan uşaqlar yenə uduzursa, bu bizim futbolun inkişafını göstərmirmi? Əlbəttə, göstərir. Tərəziyə qoysan, göstərər (bax: yuxarı). Özü də bu komandanın məşqçisi serbiyalıdır. Lixtenşteynə uduzmaq üçün Serbiyadan məşqçi gətirmək vacib idimi? Bunu elə Ağasəlim müəllim də edə bilərdi. Lakin belə düşünmək yanlışdır. Bəs o zaman Lixtenşteyn, Serbiya necə sevinərdi? Bizim məqsədimiz dünyaya sevinc səpələməkdir.

Şair demişkən, qoy həmişə günəş olsun, qoy həmişə mama olsun, qoy həmişə olum mən!



# Region böyük müharibə astanasında - Paşinyanın qorxulu Qarabağ gedişləri

## Ermənistanın baş naziri Rusiyadan yenə əliboş qayıtdı; İrəvanın "bir qarış torpaq da verməyəcəyik" ritorikasının mümkün sonucları; **rusiyalı politoloq:** "İrəvan Bakını bilərəkdən yeni müharibəyə təhrik etmək üçün əlindən gələni edib..."

**İyunun 6-da Sankt-Peterburqda Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında çoxdan gözlənilən görüş baş tutub. Bu görüş Azərbaycan üçün ən əvvəl Dağlıq Qarabağ kontekstində maraq kəsb edirdi. Ona görə ki, son vaxtlar erməni tərəfinin destruktiv mövqeyi və bəyanatları onsuz da kövrək olan sülh danışıqlarını yenidən dalana salıb. Ancaq Putinin mətbuat katibi Dmitri Peskov deyib ki, görüşdə Qarabağ məsələsi diqqət mərkəzində olmayıb.**

"Qarabağ münaqişəsi ətraflı müzakirə olunmadı. Dünənki (srağagünkü-red.) söhbətdə ikitərəfli münasibətlər və ticari-iqtisadi sahədə qarşılıqlı əməkdaşlığın müxtəlif aspektləri barədə müfəssəl müzakirələr aparıldı", - deyə Peskov Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu zamanı jurnalistlərə açıqlamasında qeyd edib.

Belə çıxır ki, Putin - konfliktin həllində 3 vasitəçidən birinin və ən mühümünün başçısı üçün Dağlıq Qarabağ mövzusu, son vaxtlar təmas xəttində artan gərginlik və müharibə riskləri ikinci dərəcəlidir. Yaxud Qarabağ tematikası Moskvanı ciddi ilgiləndirmir. Doğrudur, Peterburq tədbiri iqtisadi xarakterli idi. Hərçənd blokadada və iqtisadiyyatı yox durumunda olan cırtdan Ermənistanın forum iştirakçıları üçün hansı iqtisadi-ticari önəm kəsb elədiyindən danışmağa dəymir.

Qalır Ermənistanla Rusiyanı birləşdirən və Azərbaycana da dəxli olan ortaq problemlər - Qarabağ, qazın qiyməti məsələləri. Qarabağın diqqətdə olmadığı artıq yəqindir. İstisna deyil ki, Paşinyan Rusiya lideri ilə görüşdə bir daha Ermənistana satılan qazın qiymətində anlaşma əldə eləməyə çalışıb. Görünür, bu yöndə də İrəvanın istəyinə uyğun nəticə yoxdur. Əks halda, Paşinyan bunu dərhal reklam edərdi. Bir sözlə, Paşinyan budəfəki Rusiya səfərindən də əliboş dönüb.

Başqa nəticə gözlənilmir də. Görəsən, Ermənistan rəhbərliyi nə vaxt anlayacaq ki, onun xalqının nicatı və rifahı quru sərhədi olmayan Rusiya ilə yox, ən əvvəl həmsərhəd və qonşu, nefti-qazı bol Azərbaycana bağlıdır?

Əfsus ki, işğalçı ölkənin təzə rəhbərliyi inqilab yolu ilə devirib yerinə keçdiyi Sərkisyan rejiminin Qarabağa kursunu davam etdirir. Bu yolun hara, nəyə apardığı isə çoxdan bəlli - davam edən ağır blokada vəziyyəti, yoxsulluq, ölkədən kütləvi köç, Rusiyadan davam edən vassal asılılığı, kasıb əhalinin boğazından kəsilərək silahlanmaya yönələn vəsait.

*****

**Belə bir durum əlbəttə ki, ən çox Moskvaya sərf edir. Hərçənd rusiyalı politoloq Qriqori Trofimçuk hesab edir ki, Kreml Qarabağ probleminin həlli üçün bacardığını edir.**

"Rusiya tərəfinin Qarabağ nizamlanması üzrə İrəvana nə təklif elədiyindən danışsaq, prinsipcə, bu təkliflər çoxdan məlumdur. 2016-cı ildəki aprel müharibəsinin yekununa dair müvafiq sammitlərdə qərarlar qəbul edilib, müstəsna olaraq diplomatiya və danışıqlardan istifadə eləməyə onları yerinə yetirmək lazımdır. Burada yeni heç nə yoxdur", - deyə o qeyd edib (vesti.az).

**Politoloq bu zaman vurğulayır ki, Paşinyan Qarabağ məsələsində güzəştə getməyə hətta Serj Sərkisyandan da betər şəkildə, açıq-aşkar hazır deyil:** "Düşünürəm ki, Rusiya da daxil, danışıqlar prosesinin bütün tərəfləri özləri üçün bu faktı qeyd edirlər ki, Paşinyan sülh prosesinin gedişini və mahiyyətini öz xeyrinə dəyişmək istəyir. Ona görə fikirləşmək ki, bu cür davam edəcək, sadəlövhlük olardı".

**Politoloqa görə, N.Paşinyan Azərbaycanı bilərəkdən yeni müharibəyə təhrik etmək üçün əlindən gələn hər şeyi edib və Bakıya mesaj verib ki, torpaqları heç bir şərtlə qaytarmağa hazırlaşmır.** "Hamı anlayır ki, Qarabağ danışıqlarının real nəticəsi yoxdur. Əgər Qarabağda böyük müharibə baş versə, bu, artıq lokal olmayacaq, partlayış bütün regionu bürüyəcək", - deyə rusiyalı ekspert xəbərdarlıq edib.

*****

Partlayışı isə yalnız Ermənistanın işğal altındakı torpaqları azad eləməyə başlaması və yaxud buna hazır olmasını bildirməsi önləyə bilər. Təəssüf ki, onların heç biri yoxdur. Bu da növbəti dəlil-sübut.

AzadlıqRadiosunun erməni xidmətinin xəbərinə görə, Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan Paşinyan və hökuməti ilə Dağlıq Qarabağdakı saxta rejim arasında gərgin münasibətlərdən, bu gərginlik fonunda "torpaqların verilməsi hazırlıqları" barədə ittihamlardan danışarkən İrəvanla Xankəndi arasında ixtilafın olduğunu təsdiqləyib, amma tərəflərin bir-birlərinin ünvanına irəli sürdüyü son ittihamları, mübahisəni şərh etmək istəməyib. Yalnız onu deyib ki, torpaqların qaytarılması iddialarını müzakirə etməyə belə dəyməz (virtualaz.org).

**Sitat:** "Necə təsəvvür edirsiniz, hakimiyyət Ermənistanın, erməni xalqının və Dağlıq Qarabağın maraqlarına uyğun gəlməyən hansısa addım ata bilərmi? Və bütün bunları razılaşma sənədində əks etdirməyi təsəvvür edərmi? Belə şey ola bilməz. Torpaqların satılmasına dair qalan məsələləri heç müzakirə etməyə də dəyməz".

Qeyd edək ki, torpaqların qaytarılmayacağı haqda bəyanatlar Paşinyan hökumətinin təmsilçiləri tərəfindən əvvəllər də səsləndirilib. Paşinyan özü də bir neçə dəfə analoji ritorikadan çıxış edib. Habelə Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyan işğal altındakı Füzuli rayonunda olarkən Arazboyu ərazilərin qaytarılmayacağını, əksinə, orada yeni məskunlaşma aparılacağını bildirmişdi. Az sonra müdafiə naziri David Tonoyan Azərbaycanı yeni ərazi işğalı ilə hədələdi.

Belə olan təqdirdə sülh danışıqlarının heç bir anlamı qalmır. Halbuki beynəlxalq vasitəçilər ən azı, Dağlıq Qarabağ ətrafında 5 rayonun ilkin mərhələdə qaytarılmasını vacib hesab edirlər. Əks halda, müharibənin "fitili" çəkiləcək. Gec, ya tez...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

# “Parlamentarilər dövlət başçılarının apardıqları müzakirələrə və danışıqlara dəstək verməlidir”

## Azay Quliyev: “ATƏT PA prezidenti Azərbaycan və Ermənistan parlament sədrlərinin görüşməsi təşəbbüsü ilə çıxış edib”

**“Təxminən bir ay əvvəl Almaniyanın Laynsvayler şəhərində ATƏT PA-nın prezidenti, baş katibi və büro üzvlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan parlamentinin üzvləri arasında görüş təşkil edilib”.**



Bu sözləri APA-nın Gürcüstan bürosuna açıqlamasında ATƏT PA-nın vitse-prezidenti, **Milli Məclisin üzvü Azay Quliyev** deyib.

O bildirib ki, görüş parlamentarilər üçün təşkil olunmuş seminar çərçivəsində baş tutub: “Seminarda münaqişələrin həllində parlamentarilərin rolu müzakirə edilirdi və bizim regionla bağlı müəyyən təşəbbüslər vardı. Orada humanitar məsələlərlə bağlı razılıq əldə etdik. Buraya girovların "hamının-hamıya" prinsipləri ilə dəyişdirilməsi, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının görüşünün təşkil edilməsi və Ermənistan-Azərbaycan sülh platformasının fəaliyyətinin gücləndirilməsi kimi məsələlərə daxil idi. Təəssüflər olsun ki, Ermənistan parlamentinin üzvləri əvvəl razılaşsalar da, sonradan bu məsələ ilə bağlı konkret, müsbət cavab vermədilər. Düşünürəm ki, parlamentarilər istənilən halda dövlət başçılarının apardıqları müzakirələrə və danışıqlara dəstək verməlidir. Biz çox istərdik ki, bu problem sülh yolu ilə həll olunsun, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin və Ermənistanın işğalçı qoşunları Azərbaycan ərazisindən çıxarılsın".

ATƏT PA-nın vitse-prezidenti deyib ki, əvvəllər də ATƏT PA çərçivəsində prezident və baş katibin təşəbbüsü ilə müəyyən təmaslar qurulub, lakin Ermənistan tərəfi konstruktiv dialoqa və təşəbbüsə hazır olmadığı üçün bu müzakirələr konkret nəticə verməyib.

**Azay Quliyev əlavə edib ki, hazırda ATƏT PA-nın prezidentinin müəyyən təşəbbüsləri var:** “Bu təşəbbüslər sırasında Ermənistan və Azərbaycanın parlament spikerlərinin müəyyən vaxt çərçivəsində görüşü məsələsi də var. Bunun detallarına varmaq istəməzdim, amma deyə bilərəm ki, Azərbaycan tərəfi hər zaman konstruktiv və sağlam müzakirələrə hazır olduğunu bəyan edib, biz indi də buna hazırıq. Ancaq bu müzakirələr birtərəfli ola bilməz. Qarşı tərəf də bu müzakirələrə hazır olmalıdır”.

# “Ermənilərin bədbəxtliyi ondan irəli gəlir ki...”

## Arif Rəhimzadə: “Bu, erməni xalqını reallığı dərk etməyə vadar edəcək”

**Son günlər sərt ritorikaya üstünlük verən Ermənistan hakimiyyətinin yenidən Rusiyaya yaxınlaşmaq istiqamətində cəhdləri müşahidə olunmaqdadır. Bəzi müşahidəçilər hesab edir ki, sülh danışıqlarının nəticəsiz qaldığı bir dönəmdə Paşinyan hökuməti Azərbaycanın hərbi əməliyyatlara başlayacağından ehtiyatlandığı üçün Putinə sığınmağa qərar verib. Milli Məclisin Regional məsələlər komitəsinin sədri, YAP-çı deputat Arif Rəhimzadə Qarabağ məsələsi ətrafındakı vəziyyətlə bağlı “Yeni Müsavat”ın əməkdaşının suallarını cavablandırıb.**

***- Arif müəllim, necə bilirsiniz, Azərbaycan Qarabağı işğaldan azad etməyə qərar versə, Rusiya proseslərə müdaxilə edəcəkmi? İndiki situasiya sizə nə deyir?***

- Hazırki vəziyyətdə Rusiya bu məsələnin müsbət həllində çox da maraqlı deyil. Ancaq münasibət dəyişə bilər və dəyişir. Artıq erməni xalqı da vəziyyətin mümkünsüzlüyünü başa düşür və müxtəlif yollar axtarır. Ermənistanın baş naziri Paşinyanın hakimiyyətə gəlişi də bu fikirlərin nəticəsində mümkün olub.

Ermənistan cəmiyyətində NATO-ya, digər Avropa təşkilatlarına üzv olmaq niyyəti də formalaşmaqdadır. Düşünürəm ki, bu meyllər gücləndikcə, Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq normalar əsasında tənzimlənməsinə marağını artıra bilər.

***- Deputat həmkarınız Qüdrət Həsənquliyev hesab edir ki, Qarabağla bağlı danışıqların Ermənistanla aparılmasının mənası yoxdur və danışıqlar Rusiya ilə aparılmalıdır. Razılaşırsınızmı?***

- Həmkarım Qüdrət Həsənquliyevin fikrinə çox hörmətlə yanaşıram. Əlbəttə, Rusiya ilə də, Minsk Qrupunun digər üzvləri ilə də danışıqlar aparılmalı və onların konkret addımlar atmalarına nail olmalıyıq. Dağlıq Qarabağda son 25 ildə yeni nəsil əmələ gəlib. Nəzərə almalıyıq ki, bunların Azərbaycanın tərkibində yaşamaları üçün qorxu hissləri olmamalıdır. Qeyri millətlərdən olan vətəndaşlarımıza olduğu kimi biz onlara da yaxşı münasibət göstərəcəyimizi nümayiş etdirməliyik. Kütləvi informasiya vasitələrindəki çıxışlarımızda erməni xalqının hamısını bir rəngdə qaralamamalıyıq. Erməni xalqı azərbaycanlılarla uzun illər birgə yaşayıb. Ermənilərlə azərbaycanlılar arasında yaxşı dostluq münasibətləri və səmimiyyət az olmayıb. Bu vəziyyət ermənilərin içərisində olan, özlərini ziyalı adlandıran bəzi üzdəniraq ünsürlərin və hakimiyyət hərislərinin günahları ucbatından yaranmışdır.



Arif Rəhimzadə

***- Qarşı tərəfdən fərqli olaraq, Azərbaycan tərəf daim xoş məram nümayiş etdirir...***

- Dövlət səviyyəsində də, mətbuatda da, insanlar arasında da gərək bu məsələləri həmişə diqqət mərkəzində saxlayaq. Erməni xalqı istedadlı, bacarıqlı və işgüzar xalqdır. Azərbaycanlılarla uzun illər dostluq ediblər. İndinin özündə də ermənilərin heç də hamısı bizə qarşı aparılan aqressiv millətçilik siyasətini dəstəkləmir.

***- Amma bu məsələdə birtərəfli qaydada iş aparmaqla nəyəsə nail olmaq mümkün deyil. Erməni tərəfi eyni mövqeni sərgiləmirsə, onda necə?***

- Eybi yoxdur, qoy elə olsunlar. Ermənilərin bədbəxtliyi ondan irəli gəlir ki, bunlar millətçilik xəstəliyinə tutulublar. Özü də özbaşına yox, millətçilik siyasətini cəmiyyətə sırıyan təşkilatlar insanları bu mövqedə olmağa məcbur edirlər.

***- Deyirsiniz yəni biz onları sağalda biləcəyik?***

- İndi sağalda bilməsək də, biz gərək danışığımızda, münasibətimizdə onların sağalmasına çalışaq və hamısına düşmən kimi baxmayaq.

***- Paşinyan deyir ki, rəsmi Bakı Qarabağ erməniləri ilə danışıq aparsın. Sizcə, buna getmək olarmı?***

- Yuxarıda qeyd etdiyim kimi, danışıqların formatı beynəlxalq səviyyədə təsdiq edilmiş sənədlərdə öz əksini tapıb və Paşinyanın bu istəyinin heç bir hüquqi əsası yoxdur.

***- Hərbi əməliyyatların başlanmasını real sayırsınız?***

- Danışıq yolu ilə münaqişə həll olunmasa, torpaqlarımızı hərbi yolla azad etməyə bizim hüququmuz da, müsbət təcrübəmiz də var. Naxçıvanda aparılan uğurlu əməliyyatların vaxtaşırı təkrarlanması da məsələnin həllinə təsir göstərəcək. Bu, erməni xalqını reallığı dərk etməyə vadar edəcək.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

# Qarabağ üçün yeni “Yol xəritəsi”



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Rusiya xarici işlər naziri Sergey Lavrov ABŞ-ın Krımın ilhaqını tanıdığını iddia edib. Dediyinə görə, 2014-cü ildə ABŞ-ın o vaxtkı dövlət katibi Con Kerri səsvermənin nəticələrinin krımlıların arzusunu əks etdirdiyini etiraf edib, ancaq beynəlxalq normalara uyğun təkrar seçki tələb edib.**

Kerrinin belə bir ifadə işlədib-işlətmədiyi, Krımdakı referendumun beynəlxalq standartlara, Ukrayna konstitusiyasına uyğun olmadığı ilə işimiz yox. Adama deyərlər, referendum yolu ilə başqa suveren ölkədən torpaq qoparmaq belə yaxşı şeydirsə, onu özünüzə də rəva bilin də! Rusiyanın milli-muxtar qurumlarında keçirilmiş referendumları nəzərdə tuturuq.

Ötən əsrin 90-cı illərinin əvvəllərində, Yeltsin dönəmində Tatarıstanda müstəqillik referendumu olub. Ərazisində xeyli sayda rusun yaşamasına rəğmən, o zaman səsvermə hüququ olanların 50%-dən bir qədər çoxu Tatarıstanın müstəqilliyinə səs vermişdi. Çeçenistanda da ayrılma referendumu olmuşdu. Amma Putin hakimiyyətə gələn kimi çeçen xalqını qan gölündə boğdu, orada öz marionetini oturtdu. Ancaq bu gün yeni referendum keçirilsə, çeçenlərin 90%-i yenə müstəqilliyə səs verər.

İndi belə çıxır, digər ölkələrin ərazisində (Krım, Donbas, Dnestryanı bölgə) yaşayan ruslar öz müqəddəratını təyinetmə haqqına sahib xalq sayılır, ancaq öz tarixi vətənlərində min illərdir kök salmış çeçenlər, tatarlar isə yox? Deməli, harada ki, referendum Moskvanın imperiya maraqlarına cavab verir (Abxaziya, Cənubi Osetiya, Krım), həmin referendum beynəlxalq hüquqa uyğundur və insan haqlarının təcəssümüdür, harada ki, əksinə, imperiyanın varlığına təhlükə yaradır (Çeçenistan, Tatarıstan), o zaman bu separatçılıqdır?! Rusiya hələ federativ dövlətdir - unitar Ukrayna, Gürcüstan və Azərbaycandan fərqli olaraq.

Gəldik özümüzə. İşğal altındakı Qarabağda da separatçılar vaxtilə “müstəqillik” referendumu keçiriblər - köklü azərbaycanlı əhalini axırıncı nəfərinədək qovandan, Dağlıq Qarabağ və ətraf 7 rayonu etnik təmizlənməyə məruz qoyandan sonra. Üstəgəl, konstitusiyamız belə plebissiti qadağan edir. Yəni azərbaycanlılar Qarabağa qayıtsa belə, yerli ermənilərə bu haqq tanına, hansısa “Madrid prinsipləri” ilə onlara referendum vədi verilə bilməz.

Politoloq Eldar Namazov qəzetimizə son müsahibəsində bir neçə məqam bu xüsusda diqqət çəkir. Sitat 1: “Bu günədək Dağlıq Qarabağ məsələsində bizim o qədər yanşılıqlarımız olub ki - Minsk Qrupunun yaradılmasından tutmuş, "Madrid prinsipləri"ndə referendum məsələsinə kimi. Bu səhvlərdən nəticə çıxarıb ortalığa yeni gündəlik, “Yol xəritəsi” qoymalıyıq". Sitat 2: “Biz nəyin bahasına olur-olsun, torpağımızı azad etməliyik! Risklər, təhlükələr olacaq. Ancaq belə şeylərdən çəkinib torpaqlarımızı azad etməkdə tərəddüd etsək, onda bizi Qarabağı qaytarmaq yox, Naxçıvanı itirməmək haqqında düşünməyə məcbur edəcəklər”.

Təbii ki, Dağlıq Qarabağda referendum milli maraqlarımıza cavab vermir. Əgər Ermənistandan qovulmuş azərbaycanlıların sonuncu hissəsi - 250 minlik köklü əhali öz yurdlarına qayıdıb orada simmetrik referendum keçirilsəydi, o ayrı məsələ. Hər dövlətin öz maraq-mənafeyi yəni. O zaman biz niyə öz marağımızı gözardı edib risk altına qoymalıyıq? Öz müqəddəratı təyinetmə hansısa konfliktin həlli üçün belə yaxşı vasitədirsə, qoy Ermənistan, Rusiya onu özünə də tətbiq eləsin.

Qarabağa dair doğrudan da yeni, konseptual, barıt qoxulu təzə milli “Yol xəritəsi” hazırlayıb dünyaya bəyan eləmək zamanı deyilmi? Hansı sənəddə ki, referendum söhbəti yerli-dibli ola bilməz. Çünki erməni xalqı öz müqəddəratını çoxdan müəyyən edib. Yalnız yüksək muxtariyyət. Qoy hamı qəmişini bizdən birdəfəlik çəksin və boşuna ümidlənməsin...

25 illik atəşkəsdən, 2016-cı ildəki 4 günlük müharibədən sonra artıq gün kimi aydındır ki, “dua ilə donuz darıdan çıxmayacaq”, danışıqlarla, yürüş-mitinqlərlə torpağımızı işğaldan azad edə bilməyəcəyik. Demək, “Yol xəritəsi”ndə işğalçıya son möhləti də göstərməliyik. Risk, təhlükə həmişə var. Onları əsas götürsək, gərək heç nə etməyək. Qarabağı qaytarmaq, gerçəkdən də Naxçıvanı itirməmək haqda düşünməli olacağıq. Hələlik “addım-addım” taktikasına üstünlük verməliyik.

Yeni Lələtəpələrə doğru, ya Allah, bismillah!..

# 4 yaşlı Zəhranın oğurlanmasının ilginc təfərrüatları

## "Yeni Müsavat"ın əməkdaşları qaraçıların diləndirdiyi körpənin evindən reportaj hazırladı; "O qadın Zəhraya dönər, "Coca-Cola" alıb və...

**Ramazan Bayramı ərəfəsində Sabunçu rayonu ərazisində yaşayan 4 yaşlı Zəhra Bağırzadənin itkin düşməsi xəbəri hər kəsi sarsıtmışdı.**

Hadisədən iki gün sonra Bakı Şəhər Baş Polis İdarəsi, Sabunçu Rayon Polis İdarəsi və 12-ci Polis Şöbəsi əməkdaşlarının birgə həyata keçirdikləri intensiv axtarış tədbirləri nəticəsində paytaxtın Nizami rayonu ərazisində tapılaraq, sağ-salamat ailəsinə təhvil verildi.

Azyaşlı uşağın Masallı rayon sakini, 39 yaşlı Təzəgül Nəzərova tərəfindən qaçırıldığı və iki gün ərzində onun tərəfindən diləndirildiyi bildirilir. Mətbuatda yayılan məlumatlara görə, həmin qadın qaraçıdır, digər məlumatlarda isə onun qaraçı olmadığı, əqli cəhətdən problemləri olduğu deyilir. Qadının uşağı hansı şəraitdə qaçırtdığı, iki gün onu harada və necə saxladığı isə hələlik məlum deyil.

T.Nəzərova istintaqa ilkin ifadəsində uşağı oğurlamadığını, bunu ayrı adamın etdiyini deyib.

"Yeni Müsavat"ın əməkdaşları hadisənin təfərrüatlarını daha da yaxından araşdırmaq üçün hadisə yerinə yollandı. Sabunçu rayonunda azyaşlı Zəhranın yaşadığı məhəlləyə çatar-çatmaz qarşımıza iki qaraçı qadın çıxdı. Onlar əlil arabasında rəngi gündən qaralmış əlil uşağı aparırdı, çox böyük ehtimalla diləndirməyə...

Bağırzadələrin evinə çatdıqda isə ətrafda çoxlu sayda polis əməkdaşları olduğunu gördük. Polislər Zəhranın atası Rəsul Bağırzadəni sorğu-sual edir, kiçik qız isə tez-tez atasının əlindən çıxaraq gah üzüyuxarı evə, gah bacısı Laçına, gah da atasına tərəfə qaçırdı. Evlərinin önündə isə çoxlu sayda qonşular toplaşaraq hələ də üzündə qorxu hissi qalmış, eyni zamanda az yaşlı sonbeşik qızının tapılması sevincini yaşayan ana Cəmilə Hüseynovaya gözaydınlığı verirdilər.

**Uşağın atası Rəsul Bağırzadə ilə söhbətləşdik. Atanın dediyinə görə, adıçəkilən qadın uşağı oğurlayarkən heç bir iz qoymayıb:** "Sağ olsun hüquq-mühafizə orqanları, tez bir zamanda axtarışlara başladı. Uşaq təxminən saat 3 radələrində evdən çıxaraq mağazaya gedib, daha sonra bayıra çıxıb və itkin düşüb. Bu barədə mənə xəbər çatmamış, artıq qonşular axtarışa başlamışdı. Qadın uşağı kiminsə köməyi ilə aparıb".

**Atasının dediyinə görə, hadisə günü evin böyük qızı Laçın və valideynlər işdə olub, uşaq 11 yaşlı bacısının öhdəsində olub:** "Bacısı babasıgilə çıxanda, uşaq da evdən çıxıb, mağazaya girib, daha sonra itkin düşüb".

**R.Bağırzadə uşağı oğurlayan qadın haqqında hələlik dəqiq məlumatın olmadığını dedi:** "Onun ruhi xəstə olduğunu da deyirlər. Gördüyünüz kimi, polis əməkdaşları hələ də sorğu-sual aparır, ətrafdakı kameraları araşdırır, hadisənin necə baş verdiyini öyrənməyə çalışırlar.

Qadın Zəhranı metronun "Neftçilər" stansiyasının yanında dilənçilik məqsədi ilə əlindən tutaraq gəzdirib. Hər halda, məqsədi pul yığmaq olub, yoxsa ki, bu yaşda uşaq onun nəyinə lazımdır. Yenə, şükür Allaha ki, tapıldı. Hər kəsə minnətdaram".

**Atasının sözlərinə görə, uşaqda bir qədər qorxu olsa da, evinə gəldiyi üçün özünü çox rahat hiss edir:** "Qonşularımız çox mehribandır. Məhəllədəki hər kəs Zəhranı axtarıb. Mən uzun illərdir ki, burada yaşayıram, uşaq oğurlanması hadisəsi ilə rastlaşmamışam. İllər öncə bəlkə də kimsə itib, amma 3-4 yaşlı uşağın itməsi faktı olmayıb. Burada hər kəs bir-birini tanıyır, ona görə kimin hara getdiyini hər kəs görür".

**Övladına yenidən qovuşan Cəmilə Hüseynovanın da təssüratlarını öyrənməyə çalışdıq. Sevincdən gözləri yaşaran ana bundan sonra övladlarına daha ciddi nəzarət edəcəyini dedi:** "Səhərə qədər hər kəs gəlib-gedir, uşaqla maraqlanır... Gözüm çox qorxdu. Allah heç bir anaya belə bir hadisə yaşatmasın. Bu çox ağır hadisədir. Zəhra mənim sonbeşiyimdir. Çox şükür ki, sağ-salamat tapıldı. Polis əməkdaşları da gecə-gündüz axtarış etdilər, Zəhra tapılana qədər dinclik bilmədilər".

**Cəmilə Hüseynova deyir ki, qadın uşağı incitməyib, yedizdirib, içizdirib, özü ilə gəzdirib:** "Zəhra gəzməyi çox xoşlayır. Evə gələndə ac deyildi, ondan bilirik ki, ac saxlamayıb".

**Valideynlərlə söhbətimizə qonşular da qoşulur. Qonşu qadının dediyinə görə, bu günə qədər məhəllədə bu cür uşaq oğurluğu baş vermədiyindən hadisənin şokundan çıxa bilmirlər:** "Zəhra həmişə mənim nəvələrimlə oynayıb. Bu cür hadisə baş verəcəyini gözləmirdik. Böyük bacısı iki gün imiş ki, işə çıxıb. Bilməzdik ki, uşaq evdə tək qalar. Uşaq sərbəst şəkildə mağazaya gedib-gəlirdi. Heç biz qonşular onu tutub öpə bilmirdik. O qadın onu necə aparıb, hələ də anlaya bilmirik. Uşaq danışa bilmir, onu aldadıb aparıblar".

**Zəhra ilə birlikdə ailənin yaşadığı kiçik, yarıtikili evə keçirik. Kiçik qız ayağını haradasa əzib, ufuldayır və israrla anasına "dərman, dərman ver" deyir. Qonşu gülümsəyərək maraqlı bir fakt danışır:**

"Zəhra o qədər gəzib ki, indi də gəzmək istəyir. Və tez-tez "o biri mamamı istəyirəm" deyir. "O biri mama" deyəndə həmin qadını nəzərdə tutur. Görünür, qadın onunla yaxşı rəftar edib. Uşağın dediyindən belə başa düşülür ki, qadın ona yemək üçün dönər, "Coca-Cola", digər şeylər alıb, bu da uşağın xoşuna gəlib.

Qonşular ərazidə yaşayan qaraçıların hüquq-mühafizə orqanları tərəfindən nəzarətə alınmasının vacibliyini bildirdilər".

**Qonşular əraziyə jurnalist gəlməsindən istifadə edərək, qolumuzdan tutub, evlərin arxasındakı üfunəti beyin çatladan, ətrafı böyük zibillik və mazutluq olan gölməçə tərəfə apardılar.** "Baxın, polislər Zəhranı ilk olaraq bu gölməçədən axtardılar. Çünki tez-tez azyaşlı uşaqlar bu gölməçəyə düşüb və son anda onları qurtara bilmişik. Dəfələrlə aidiyyəti qurumlara bu barədə müraciət etsək də, bir nəticəsi olmur. Bəzən uşaqlar bilməyərək burada ocaq qalayırlar. Bu çox böyük təhlükədir. Çünki gördüyünüz kimi, ərazi mazutluqdur. Yanğın olarsa, buradakı evlər üçün böyük təhlükə ola bilər"...

Zəhra Bağırzadəni oğurlamaqda ittiham olunan 39 yaşlı Masallı rayon sakini Təzəgül Nəzərova istintaqa ifadə verib. O, ifadəsində uşağı oğurlamadığını, bunu ayrı adamın etdiyini deyib.

❑ **Xalidə GƏRAY,**
**Fotolar Elçin Əkbərovundur**
**"Yeni Müsavat"**











# Vaşinqton İranı "çarpaz atəş" altında saxlamaq istəyir

## Yaponiya baş naziri Tehrana sülh elçiliyinə getdiyi bir vaxtda, tanker təxribatında İran hədəf göstərilir...

**ABŞ və Fransa hökumətləri İranın nüvə proqramı mövzusunda həmfikirdir. Bu barədə açıqlama iyunun 6-da Fransa prezidenti Emmanuel Makronla görüşən ABŞ dövlət başçısı Donald Tramp arasında görüş zamanı verilib.**

İkinci Dünya savaşında Normandiyaya qüvvə çıxarılmasının ildönümü ilə bağlı bir araya gələn liderlər İran mövzusunu da müzakirə ediblər. Makron bildirib ki, Vaşinqtonla Parisin ortaq hədəfi İranın nüvə silahı əldə etməsinin qarşısını almaqdır. Fransa prezidenti deyib ki, bunun üçün yeni beynəlxalq nüvə danışıqları başlamalıdır.

Qeyd edək ki, iyunun 12-14-də Yaponiyanın baş naziri Şinzo Abe İrana səfər edəcək. Bu, İranda İslam inqilabının baş verdiyi tarixdən bu yana ilk hadisə olacaq. 41 ildən sonra Tehrana səfər edəcək Yaponiya baş nazirinin gündəmindəki əsas mövzu İranın nüvə proqramı və ABŞ-İran gərginliyidir. Yaponiya baş naziri İran prezidenti Həsən Ruhani və ali dini lider Əli Xameneyi ilə görüşəcək.

Yaponiya və İran arasında ciddi iqtisadi əlaqələr mövcuddur. ABŞ hökuməti ötən ilin noyabrında İrandan neft alması üçün güzəşt tanıdığı 8 ölkədən biri də Yaponiya olmuşdu. Baxmayaraq ki, Yaponiya regionda ABŞ-ın əsas müttəfiqi hesab olunur, bununla Tokio Vaşinqtonun təzyiqlərinə müqavimət göstərib, İrandan neft almağa davam edəcək. İran və ABŞ arasında vasitəçilik təklifini isə Yaponiya baş naziri özü irəli sürüb və ABŞ prezidenti ötən ayın sonunda Tokioya səfəri zamanı bu təklifi dəstəkləyib.



Yeri gəlmişkən, iyun ayında Almaniyanın xarici işlər naziri Heiko Maas da İrana səfər edəcək. Almaniya XİN rəhbəri İranla yanaşı İordaniya və BƏƏ-yə də gedəcək. O da bildirilir ki, səfər həm də Fransa və Britaniya ilə razılaşdırılmış şəkildə həyata keçiriləcək. Ehtimal ki, Yaponiya baş naziri və Almaniya XİN rəhbəri yaranmış gərginliyi müəyyən qədər yumşaltmaq və İran tərəfinin tələb etdiyi şəkildə nüvə anlaşmasının qorunması, yaxud tərəfləri qane edəcək formada yenilənməsi ilə bağlı Tehranla müzakirə aparacaq. Ancaq rəsmi Tehran nüvə anlaşmasının yenilənməsinə qarşı olduğu və yalnız köhnə anlaşmaya geri dönüləcəyi və İrana qarşı embarqoların ləğv olunduqdan sonra Vaşinqtonla danışıqların ola biləcəyini açıqlayıb. Ancaq istənilən halda, Yaponiyanın danışıqlar prosesinə qatılması İran-ABŞ gərginliyinin müharibə həddinə çatması ehtimalını zəiflədir.

Məlum olduğu kimi, may ayında Fars körfəzində vəziyyət gərginləşib. İran nüvə anlaşmasından çıxa biləcəyini elan edib. Vaşinqton isə körfəzə əlavə hərbi qüvvələr - gəmilər, təyyarələr və "Patriot" sistemləri göndərib. Pentaqon bu qərarı ABŞ-ın bölgədəki maraqları və qüvvələrinə hücum hazırlaması ilə bağlı xəbərlərlə izah edib. Mayın 12-də isə körfəzdə ikisi Səudiyyə Ərəbistanına, biri Norveçə, biri isə BƏƏ-yə məxsus 4 tanker hücuma məruz qalıb.

Qəzanın araşdırması ilə bağlı ortaq komissiya yaradılıb. Araşdırmaların davam etdiyi bir vaxtda ABŞ prezidentinin müşaviri Con Bolton körfəzdə tankerlərə hücuma görə İranı ittiham edib. Rəsmi Tehran isə ittihamları rədd edib.

BBC-nin məlumatına görə, Oman körfəzində tankerlərə hücumla bağlı BƏƏ hökumətinin yaratdığı komissiyanın hazırladığı yekun hesabat BMT-yə təqdim olunub. Hesabatda hücumun "inkişaf etmiş və koordinasiyalı" formada həyata keçirildiyi, hadisənin arxasında bir dövlətin olduğu qeyd edilsə də, həmin dövlətin adı yazılmayıb. Hesabatda qeyd olunur ki, tankerlərə hücum katerlər vasitəsilə edilib. Eyni zamanda qeyd olunub ki, təxribatçılar BƏƏ sahil sularına daxil olmaları üçün "inkişaf etmiş müşahidə sistemlərinə sahib olublar".

Hesabatda qeyd olunur ki, hücum katerləri ilə gələn dalğıclar tankerlərin gövdəsinə partlayıcı yerləşdirib. Bu partlayıcılar tankerlərə ciddi xəsarət yetirsə də, böyük miqyasda partlayışa səbəb olmayıb.

BƏƏ-nin hesabatında ad çəkilməsə də, işarələr İranı göstərir. Görünür ki, BƏƏ İranın ciddi təpkisi ilə qarşılaşmamaq üçün hesabatda konkret ad çəkməyib. Lakin aydın məsələdir ki, bu hesabatdan sonra İrana hücumlar artacaq. Bolton hələ istintaqın davam etdiyi vaxt açıq şəkildə bu hücuma görə İranı ittiham etdi. İndi isə ad çəkilməsə də, hesabat İrana işarə edir. Və Trampın "şahin" komandası bu hesabatdan İrana qarşı yetərincə istifadə etməyə çalışacaq. Lakin diqqəti çəkən odur ki, ABŞ prezidenti indi İranla müharibə ritorikasının tərəfdarı deyil. Baxmayaraq ki, sonuncu Avropa turu zamanı Tramp İranı müharibə ilə hədələyərək hərbi əməliyyatların gündəmdə olduğunu bildirib.

Görünən odur ki, Vaşinqton İrana qarşı müharibə başlatmasa da, gərgin atmosferi davam etdirəcək. Bu vəziyyət həm də Vaşinqtona Yaxın Şərq münaqişəsinin həlli üçün əlverişlidir. Çünki iyunun sonunda Bəhreyndə Trampın kürəkəni Kuşnerin Fələstin münaqişəsinin həlli planı müzakirə olunacaq. Lakin planın elanı isə sentyabra qalıb. Ən pis halda planın sentyabrda elan olunmasına qədər İranın belə demək mümkündürsə başının özünə qarışması lazımdır. Çünki hər kəsə aydındır ki, Fələstin və Livanda silahlı müqavimət qruplarını dəstəkləyən İrandır. Kuşnerin planının icrası qarşısında əsas manea də məhz bu silahlı qruplar olacaq. Yəni Həmas, "İslami Cihad", Hizbullah kimi silahlı qruplar olacaq. Bu mənada indi Yaxın Şərqdə gərgin atmosferin davam etməsi, İranın təzyiq altında saxlanılması Vaşinqtonun bütün hallarda maraqlarına uyğundur. Vaşinqton bir tərəfdən Avropa və Yaponiya vasitəsilə yumşalma görüntüsü yaradır, digər tərəfdən isə İranı hədəfə alan və bölgədə gərginliyi yüksəldən hərəkətləri davam etdirir. İndiki şərtlərdə bu, Vaşinqton üçün ən uyğun variantdır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

**Keçmiş prezident Robert Köçəryanın həbsdən buraxılmasından sonra baş nazir Nikol Paşinyanın rahatlığı pozulub. Liderlərinin əl-qolunun açılması Qarabağ klanının revanş əldə etməsinə imkan yaradıb. Vəziyyət o həddə çatıb ki, artıq Qarabağdakı separatçı rejimin başçısı Bako Saakyan N.Paşinyana açıq mətnlə cavab qaytarır, tərəflər bir-birini satqınlıqda ittiham edirlər.**





Məhəmməd Əsədullazadə

# "Azərbaycan ordusu hücum edib, əraziləri təmizləyə bilər" - politoloq

## Nikol Paşinyanla Bako Saakyan arasındakı uçurum dərinləşir, Qarabağın azadlığı üçün tarixi şans yarana bilər; erməni hakimiyyəti ağır durumla üz-üzə qalıb; Ermənistan XİN başçısının iddiasına rəsmi Bakıdan cavab gəldi

**İndi məlum olur ki, Ermənistandakı Respublika gününə B.Saakyan niyə dəvət olunmayıbmış. Paşinyan jurnalistlərlə görüşdə faktiki olaraq Dağlıq Qarabağı sabotajda ittiham edib.** "Mən Dağlıq Qarabağın hərbi-siyasi rəhbərliyi ilə dəfələrlə görüşmüşəm və Qarabağ probleminin nizamlanması ilə bağlı baxışımı paylaşmışam, mənim baxışım və ya təklifimlə bağlı irad olub-olmadığı, bu baxışla razı olub-olmadıqları ilə maraqlanmışam. Və məlum olub ki, hamı bununla razıdır. Amma bundan sonra oradakı insanlar öz köməkçiləri vasitəsilə hökumətin torpaq verdiyi barədə şayiələr yaymağa başlayıblar. Mən bu insanla məxfi şəraitdə bütün düşüncələrimi, irəliləmək üçün hansı addımları atmalı olduğumuzu danışmışam və bu insan çıxıb köməkçisinə deyir ki, facebook-a gir və yaz ki, Paşinyan torpaq verir, - o, bunu niyə edir?", - deyə Paşinyan Saakyana eyham edərək bildirib. Daha sonra o əlavə edib ki, indiyədək Ermənistan rəhbərliyi Qarabağ nizamlanma danışıqlarının gedişatı barədə məlumat verməyib. "Qarabağ danışıqları ilə bağlı sənədləri onlara mən verdim. Buna qədər onların, ümumiyyətlə, nə baş verdiyindən xəbərləri yox idi. Beş dəfə soruşdum, nə barədə danışıldığından, hansı razılıq əldə edildiyindən xəbəriniz var? Onların xəbəri yox idi", - deyə Paşinyan bildirib. (Contakt.az) Bir neçə saat sonra Bako Saakyan artıq mətbuat üçün bəyanat verərək, Paşinyanın iddialarını təkzib edib. "İndi də, keçmişdə də Azərbaycanla danışıqlardan əvvəl də, sonra da Ermənistan hakimiyyəti Qarabağ rəhbərliyinə müzakirə olunan məsələlər və son inkişaflar barədə məlumat veriblər", - deyə Saakyan bildirib. Yerli müşahidəçilər baş verənləri İrəvan və Qarabağ arasında etimadsızlığın artmasına dəlalət edən, sabitliyi pozan və Ermənistan tərəfin təhlükəsizliyini təhdid altına qoyan təhlükəli təmayülün davamı kimi qiymətləndirirlər.

Bako Saakyanın "ermənilərin birliyinə mane olmaq yolverilməzdir və beləlləri varsa, cəzalandırılacaqlar" deməsi isə Paşinyana "güllə kimi" cavab olub. Sözsüz ki, B.Saakyan kimi kərtənkələlərə zəhər verən ilanlar var. Ancaq bu da şübhə doğurmur ki, Qarabağ separatçıları cəsarəti təkcə Qarabağ klanının liderlərindən almır, həm də Rusiyadakı dairələrə arxayın olduqları üçün Paşinyana qarşı çıxırlar.

**Ermənistanın Sasna Srer Partiyasının rəhbəri Jirayr Səfilyan deyib ki, Ermənistanda olan "beşinci kolon"a Rusiya rəhbərlik edir. O, "beşinci kolon"un Qarabağda yerləşdiyini bildirib:**

"Biz son aylar ərzində Kremldən fərlqi komissarların, emissarların yerlərdə lazımi fəaliyyətin yoxlanılması məqsədiylə gəldiyinə şahid oluruq. Onların missiyaları uğursuzluğa düçar olub. Qarabağın abxaziyalaşdırılması ilə bağlı bütün cəhdlər uğursuzluqla nəticələndi". **Müsahibəsində Nikol Paşinyanı tərifləyən Səfilyan məhz onun sayəsində Kremlin Karen Karapetyanı hakimiyyətə gətirmək planının fiaskoya məruz qaldığını deyib. O, Kremlin Ermənistanda hakimiyyətin xalq nümayəndəsinə keçməsindən qorxduğunu bildirib:** "Beşinci kolon" çalışır ki, hakimiyyət uğursuzluğa düçar olsun. Onlar Nikol Paşinyandan qorxmurlar. Onlar dəyişikliyin xalqın öz iradəsini ifadə etməsi nəticəsində meydana gəlməsindən və bu rəhbərin uğur qazanacağı təqdirdə, inqilabın Rusiyaya çatmasından qorxurlar. Onların qarşısındakı hədəf bunu neytrallaşdırmaqdır. "Beşinci kolon"un qısamüddətli hədəfi Ermənistan və Qarabağda idarəolunan xaos yaratmaqdır". O qeyd edib ki, İrəvan mümkün qədər Qarabağa müdaxilə etməli və və burada Sərkisyan rejiminin qalıqlarını təmizləməlidir.

Bu deyilənlər bir daha sübut edir ki, Qarabağ klanını Paşinyana qarşı mübarizəyə həvəsləndirən Rusiyadır. Bu arada Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan da Paşinyan-Saakyan qarşıdurmasından bəhs edib. O, jurnalistlərlə söhbətində Nikol Paşinyan və hökuməti ilə Dağlıq Qarabağdakı qondarma rejim arasında gərgin münasibətlərdən, bu gərginlik fonunda "torpaqların verilməsi hazırlıqları" barədə ittihamlardan danışıb. Virtualaz.org AzadlıqRadiosunun erməni xidmətinə istinadən xəbər verir ki, Mnatsakanyan İrəvanla Xankəndindəki rejim arasında ixtilafların olduğunu təsdiqləyib. Amma tərəflərin bir-birilərinin ünvanına irəli sürdüyü son ittihamları şərh etmək istəməyib. Zöhrab Mnatsakanyan bu mübahisəni şərh etmək istəməyib, amma deyib ki, torpaqların qaytarılması iddialarını heç müzakirə etməyə belə dəyməz. "Siz necə təsəvvür edirsiniz, hakimiyyət Ermənistanın, erməni xalqının və Dağlıq Qarabağın maraqlarına uyğun gəlməyən hansısa addım ata bilərmi? Və bütün bunları razılaşma sənədində əks etdirməyi təsəvvür edərmi? Belə şey ola bilməz. Torpaqların satılmasına dair qalan məsələləri heç müzakirə etməyə də dəyməz" Mnatsakanyan bildirib.

Qeyd edək ki, torpaqların qaytarılmasını istisna edən bu kimi bəyanatlar Ermənistanın indiki hakimiyyətinin nümayəndələri tərəfindən əvvəllər də səsləndirilib. O cümlədən Paşinyan özü bir neçə dəfə belə ritorikadan çıxış edib. Habelə Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyan işğal altındakı Füzuli rayonunda olarkən Arazboyu ərazilərin qaytarılmayacağını, əksinə, orada yeni məskunlaşma aparılacağını bildirmişdi.

**Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a dedi ki, Ermənistanda siyasi böhranın davam etməsi istər-istəməz Azərbaycan üçün avantaj yaradır:** "Nikol Paşinyanla Qarabağ klanı arasında davam edən siyasi böhran əlbəttəki, bunlar arasında birliyin pozulmasına, orduda yekdil qərarlaşmaya mənfi təsir edir. Hazırda Qarabağdakı orduda Köçəryan və Saakyan tərəfdarları çoxluq təşkil edir. Bu da İrəvandan gələn göstərişlərin yerinə yetirilməməsi deməkdir. Bundan əlavə, separatçı rejim başçısı Bako Saakyanla Paşinyan arasında davam edən soyuqluğun silahlı müstəviyə keçməsi də mümkündür. Buna Bako Saakyan gedə bilər. Çünki ətrafı kriminallardan ibarətdir. Paşinyan oğlunu məhz Bako Saakyanla aralarında davam edən siyasi münaqişəyə görə Qarabağdan İrəvana gətirdi. Gələn il qondarma rejimdə seçkilər keçiriləcək. Paşinyan öz tərəfdarlarını bura yerləşdirməyə can atır. Buna Qarabağ klanı Bako Saakyanı qabağa verməklə müqavimət göstərir. Qarabağ hazırda Paşinyana qarşı əks-inqilab mərkəzidi. Hesab edirəm ki, bu problem daha da dərinləşəcək. Ölkəmiz bundan istifadə edib, lokal əməliyyat keçirə bilər. Ərazilərimizin işğaldan azad olunması üçün fürsət var. Çünki Saakyan rejimi cəbhədə təxribatlara əl atır. Bu təxribatların qarşısını almaq üçün mütləq şəkildə Azərbaycan ordusu hücum edib, əraziləri təmizləyə bilər. Siyasi iradə göstərmək lazımdır".

Ümumiyyətlə, Paşinyan hökuməti "bir qarış da torpaq verməmək" ritorikasına tez-tez əl atır. Və belə olan halda sual yaranır: əgər torpaqların işğaldan azad edilməsi barədə danışılmırsa, o zaman Mnatsakanyanla onun azərbaycanlı həmkarı Məmmədyarov vaxtaşırı olaraq baş tutan görüşlərində saatlarla nədən danışırlar?

Axı münaqişənin nizamlanmasına dair beynəlxalq vasitəçilərin bütün variantlarında ən azından Dağlıq Qarabağ ətrafındakı rayonların qaytarılması öz əksini tapıb. O cümlədən Azərbaycan üçün pis variant olan "Madrid prinsipləri" 5 rayonunun geri qaytarılmasını, daha 2 rayonunun isə Dağlıq Qarabağın yekun statusuna dair razılaşmadan sonra ən azından qismən boşaldılmasını nəzərdə tutur.

Bu qarşılıqlı ittihamlar isə Minsk Qrupunun bölgəyə səfərindən sonraya, Vaşinqtonda keçirilməsi nəzərdə tutulan görüş ərəfəsinə təsadüf edir. Təbii ki, rəsmi Bakının bəyan etdiyi kimi, danışıqların görüntü naminə aparılmasının mənası yoxdur, irəliyə doğru addım isə ərazilərin işğaldan azad olunması şəraitində mümkündür. Əgər Ermənistan XİN rəhbəri ərazilərin qaytarılmasını mümkünsüz sayırsa, onda okeanın o tayında danışıq aparmağa yollanmaq da, sadəcə, vaxt itkisidir.

**Azərbaycan XİN-in mətbuat katibi əvəzi Leyla Abdullayeva Ermənistan XİN rəhbərinin dedikləri ilə bağlı "Yeni Müsavat"a bunları söylədi:** "Azərbaycanın işğal olunmuş ərazilərindən işğalçı Ermənistanın silahlı qüvvələrinin çıxardılması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların əsasını təşkil edir".

****

N.Paşinyanın məhz bu durumda Sankt-Peterburqdakı forum çərçivəsində Rusiya prezidenti Vladimir Putinlə görüşməsi də təsadüfi deyildi. Ermənistanın baş naziri heç şübhəsiz ki, Rusiya prezidenti ilə dostu R.Köçəryanı azad etməsindən sonrakı münasibətlərin perspektivi barədə danışıb. Düzdür, bu barədə hər hansı açıqlama verilməyib, ancaq Putin aylardır onu eşitməyən Paşinyanı qarşısında məzlum durumda görməkdən təbii ki, zövq alıb. Bundan əvvəl Dmitri Medvedyev İrəvana səfəri zamanı Paşinyanı aşağılamışdı. Erməni klanının revanşı bundan sonraya təsadüf etdi.

Maraqlıdır ki, Putin-Paşinyan görüşündə Dağlıq Qarabağ münaqişəsinin müzakirə olunduğu barədə xəbər yayılsa da, Moskva bunu təkzib etdi. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov "Qarabağ münaqişəsi ilə bağlı danışıqlar şərt qoyulmamışdı. Dünən ikitərəfli münasibətlər, ticarət və iqtisadi əməkdaşlığın müxtəlif aspektləri ilə bağlı söhbətlər olub", - deyib.

Qeyd edək ki, bundan öncə Ermənistan baş nazirinin mətbuat katibi Vladimir Karapetyan tərəflərin Qarabağ məsələsinə də toxunduğu haqda məlumat yaymışdı.

Ermənistanın diaspora nazinin keçmiş müavini, "Milli gündəm" Partiyasının həmtəsisçisi Vardan Maraşlyan Azərbaycanın ərazi bütövlüyünə qarşı növbəti həyasız bəyanatla çıxış edib. Moderator.az xəbər verir ki, Xankəndindəki separatçı nəşrlərin yaydığı məlumata görə, Ermənistan-Diaspor-"Artsax" münasibətlərindən danışan sabiq nazir müavini Azərbaycanın işğal altındakı torpaqlarının təcili məskunlaşdırılması üçün xaricdəki erməni diasporunu, özəl sektoru xüsusi fəallıq göstərməyə çağırıb. V.Maraşlyan bu günlərdə "Kaşataq rayonu"nda (Laçın, Qubadlı, Zəngilan rayon əraziləri) 15 kəndə baş çəkdiyini, oralarda məskunlaşmış Suriya və Livandan qaçqın ermənilərin problemləri ilə tanış olduğunu bildirərək deyib: "İsrail nümunəsi əsas götürülərək Qarabağda yaşamaq istəyən soydaşlarımız mənzil problemi ilə bağlı dəstək almalı, onlara sosial güzəştlər edilməlidir. Onlar üçün aydın iqtisadi inkişaf modelləri yaradılmalıdır və s. Bu iş dövlət səviyyəsində inkişaf etdirilməlidir..."

**Göründüyü kimi, ermənilər danışıqlardan, sadəcə, vaxt udmaq üçün yararlanırlar və torpaqların hərbi yolla qaytarılmasından başqa variant keçərli deyil. Elə həmsədrlərin Bakıda olduğu gün Azərbaycan zabitinin qətlə yetirilməsi də bizə başqa yol qoymur. Hərbi ekspert, polkovnik Şair Ramaldanov deyib ki, Azərbaycan lokal hərbi əməliyyat keçirsə, Paşinyan hakimiyyətini itirəcək:** "Hazırda Ermənistanda gedən proseslər, həmçinin Qarabağ klanının Paşinyana qarşı birləşməsi onu sərsəm və radikal hərəkətlər etməyə sövq edir. Onların əsas məqsədi Azərbaycanı sərt addımlar atmağa vadar edib müharibə başlatmaqdır. Çünki Azərbaycan tərəfi müharibəyə başlasa, bu, Paşinyan üçün ağır zərbə olar və onun hakimiyyətinin sonunu gətirər".

İrəvanın yanlış siyasəti isə qarşı tərəfləri günbəgün müharibəyə yaxınlaşdırır...

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

# Nazirlik "kombayn çatışmır" iddialarına cavab verdi

## Hazırda ölkədə 1797 taxılyığan kombayn var



**Azərbaycanda taxıl biçini başlanıb. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu il ölkədə 1 009 139,8 hektar sahədə taxıl əkini aparılıb. Bundan 6 777 793 hektarı buğda, 331 346,8 hektarı arpa sahəsidir.**

İyunun 7-nə olan operativ məlumata görə, ölkə ərazisində 120 963,5 hektar ərazidə taxıl biçini aparılıb, 119 001,5 hektar ərazidə arpa, 1 962 hektar ərazidə buğda biçini başa çatıb. Ümumilikdə bu günə qədər ölkə üzrə 351 958,7 ton taxıl istehsal olunub, orta məhsuldarlıq hər hektara 29,1 sentner təşkil edir.

Ən aktiv biçin prosesi Aran rayonlarında və əsasən dəmyə əkilmiş ərazilərdə aparılır. Kürdəmir rayonunda 29 926 hektar arpa sahəsinin 26 937 hektarı artıq biçilib. Neftçalada 21 590 hektar, Biləsuvarda 10 360 hektar, Sabirabadda 6 136 hektar, Cəlilabadda 3 620 hektar sahədə arpa biçini yekunlaşıb. Digər rayonlarda da arpa biçini qrafikə uyğun davam etdirilir.

Qeyd edək ki, KTN biçindən öncə "Aqrolizinq" ASC-yə məxsus kombaynların ilk növbədə sahəsi 50 hektara qədər olan sahələrdə biçin aparacağını bəyan edib. Lakin bu günlərdə sosial şəbəkələrdə və bəzi internet resurslarında yayılan məlumatlarda Biləsuvar, İmişli və Bərdə rayonlarında kombayn çatışmazlığı üzündən arpa sahələrində məhsulun məhv olmaq üzrə olduğu qeyd edilir. Sosial şəbəkədə yazılan iddialara görə, kombaynlar vəzifəli şəxslərin və iri aqroparkların sahələrini biçirlər. Bu səbəbdən kiçik sahələr biçilməmiş qalır.

Qeyd olunur ki, Biləsuvarın İsmətli kəndində 500 hektara yaxın taxıl əkilib. Bu il məhsuldarlıq da yüksək olub. Lakin kombayn çatmazlığı səbəbindən fermerlər biçin apara bilmirlər. Təsərrüfat sahiblərinin sözlərinə görə, məhsul gün-gündən məhv olur: "Orta hesabla 30 sentner götürməli idim. Artıq vaxtında biçilmədiyinə görə 7-8 sentneri məhv olub. 2-3 gündən sonra məhsulun 50 faizi məhv olacaq. Bir həftə sonra isə sahəyə kombayn girsə sünbüllər qırılıb töküləcək".

**Başqa bir fermer isə bildirb ki, 3 hektar sahədə arpa əkib:** "Orta hesabla 10 ton məhsul götürməli idim. Əgər 2-3 günə arpa biçilməsə, mən 3-4 ton məhsul götürəcəm". Fermerlərə görə, aidiyyəti qurumlara müraciət edilib, amma heç bir nəticəsi olmayıb: "Hər dəfə deyirlər "gedin sabah gələcək". Bir həftədir yollardayıq, kombayn göndərilmir. Arpa isə gözləmir, məhsul yetişdikcə yerə tökülür".

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov bildirir ki, Biləsuvar, Bərdə və İmişli rayonlarında taxıl biçini zamanı kombayn çatışmazlığı ilə bağlı iddiaların əsası yoxdur:** "Konkret olaraq bu il Biləsuvar rayonunda 14900 hektar sahədə arpa əkini aparılıb. İyunun 7-dək arpa sahələrinin 10360 hektarı, yəni təxminən 70 faizi biçilib. Kombayn çatışmazlığı vardısa, sahələrin 70 faizi necə biçilib? Hazırda Biləsuvar rayonunda biçin prosesinə 65 kombayn cəlb olunub. Konkret olaraq İsmətli kəndində 3 kombayn işləyir, bu kənd ərazisində arpa biçini sabah axşam saatlarına kimi başa çatacaq. Bərdə rayonunda da 2568 hektar arpa sahəsinin 2058 hektarı biçilib. İmişlidə isə 6322 hektar arpa sahəsinin 2573 hektarında biçin başa çatıb".

**Nazirlik rəsmisi deyir ki, ölkədə olan kombaynların hamısı "Aqrolizinq"in balansında olan kombaynlar deyil:** "Sahələrdə gördüyünüz kombaynların bir hissəsi fiziki şəxslərə, digər hissəsi isə böyük təsərrüfatlara məxsus şəxsi kombaynlardır. Ölkədə kifayət qədər kombayn var, mövcud kombaynların sayı taxıl biçinini itkisiz başa çatdırmağa imkan verir. Bu baxımdan kombayn çatışmazlığı ilə bağlı iddialar əsassızdır. Biçin növbəli şəkildə aparılır, aqroservislərdən lizinqə verilmiş kombaynlar 50 hektardan aşağı ərazilərdə biçin aparırlar. Əgər kombayn çatışmazlığı olsaydı, qısa müddət ərzində 120 mindən artıq arpa sahəsi necə biçilə bilərdi?"

**Xatırladaq ki, KTN-in biçin ərəfəsində yaydığı məlumatda "Aqrolizinq" ASC-nin rayon bölmələrinin istifadəsində olan, GPS quraşdırılmış 590 taxılyığan kombayn olduğu bildirilirdi:** "Kombaynlardan 370-i Aran rayonları, 186-sı dağətəyi rayonlar, 34-ü isə dağlıq rayonlar üzrə dislokasiya olunub. Bildiyiniz kimi, taxıl biçini ilkin olaraq Aran rayonlarında başlayır, bu səbəbdən kombaynların əksər hissəsi bu bölgələrdə dislokasiya olunub. Hazırda ölkədə 1797 taxılyığan kombayn var, bunlardan yalnız 590 kombayn "Aqrolizinq"in sərəncamındadır. Ölkədə olan qalan kombaynlardan 789-u fiziki şəxslərə, 98-i isə iri təsərrüfatlara məxsusdur".

❑ **Düny SAKİT,
"Yeni Müsavat"**

**Onlara tez-tez rast gəlirik: "Sən o əziz qızın canı", "Sən o balanın canı" deyə nəzir-niyaz istəyirlər. Sədəqə almayana kimi əl çəkmirlər, adamın geyimindən yapışırlar. Çoxları da onları sevmir, görən kimi qovurlar.**

# BMT-də bayrağı olan, dövləti olmayan millət

## Balaca Zəhranı qaçırıb dilənçiliyə cəlb eləmiş qaraçılar dünyanın dörd yanına səpələniblər; onların mübarizəsi, bayramı, mistik və qeyri-adi adətləri haqda gizlinlər...



Söhbət dilənən qaraçılardan gedir. Dilənçilik onların köhnə sənətlərindən biridir. Amma heç də bütün qaraçılar dilənmir. Bununla belə, dilənçi qaraçılar pis yaşamırlar. Onların ev-eşiyi, şəraitləri normaldır. Üstəlik, dilənən qaraçılar özlərini və diləndirdiyi uşaqları çox zaman şikəst, əlil kimi təqdim edirlər. Öyrəndiyimiz məlumatda deyilir ki, onlar adətən körpə vaxtında uşağın əlini və ya ayağını sındırır, ona "əbədi çörək" verirlər. Məsələn, bir neçə il qabaq Yevlağın qaraçılar məhəlləsindən reportaj hazırlamışdıq, qaraçı ailəsində olmuşduq. Onların yaxşı imarətləri var idi.

Bu mövzunu aktuallaşdıran balaca Zəhranın qaraçılar tərəfindən qaçırılaraq dilənçiliyə cəlb edilməsi oldu.

"Yeni Müsavat" internet resursları üzərindən yazır ki, qaraçılar Azərbaycandan tutmuş, Mərkəzi və Şərqi Avropaya qədər yayılıblar. Onların ilk kiçik dəstələri XV əsrin əvvəllərində Avropanın şərq hissələrində görünüb. Lakin Avropaya haradan və nə üçün gəldikləri məlum deyil. Qəribə burasıdır ki, az vaxt içərisində bir-birindən çox uzaq olan ölkələrdə onların bu qədər artıb çoxalmasına heç kəs inana bilmir. Qaraçıların özləri də adət-ənənələri və mənşələri barədə indiyə kimi heç nə qoruyub saxlamayıblar.

Əksəriyyəti Misiri birinci vətənləri hesab edirsə, bu da onların ta qədimdən indiyə qədər öz aralarında yayılmış uydurma əsaslanmalardır. Digər mənbələrdə isə ana vətənləri Hindistan göstərilir. Şarl de Koster və Valter Skottun yazılı mənbələrində qaraçı tayfalarının dünyaya yayılmağa başlanması prosesinin XII əsrə yox XV əsrlərə aid edilir. İstanbulun Osmanlılar tərəfindən fəth olunması hind əsilli millətin qərbə sarı ayaq açmasına təkan verdi.

Qaraçılar ənənəvi olaraq atçılıqla və maldarlıqla yanaşı, həm də öz dədə-baba sənətləri olan nalbəndlik, xırda məişət avadanlıqları, kənd təsərrüfatı alətləri istehsalı ilə məşğul olublar. Siyasətdən tamamilə uzaq olan bu millətin heç vaxt dövləti olmayıb. Nəinki dövlət, qaraçıların birliyini göstərən təşkilata belə rast gəlinmir.

Getdiyi ölkələrdə belə qeydiyyata düşməyən qaraçılar özlərinin sərbəst və ata gələnəkləri müstəvisində yaşam tərzi ilə seçilir. Onlar BMT-də bayrağı olan, dövləti olmayan yeganə millətdirlər. Bu səbəbdən dünya qaraçıların üzünə açıqdır, istənilən ölkəyə vizasız keçib gedə bilirlər. Sadəcə, müasir dövrdə məskunlaşdıqları yerləri tərk eləmirlər.

Qaraçılar ən qədimdən (Şimali Pakistanda, Ərəbistanın şimal bölgələrində) ailə qurarkən qızlar bir qayda olaraq yalnız qaraçı tayfasından olan oğlanlara ərə gedə bilərlər. Bu gün də qaraçılar qeyri-millətlərlə evlənmirlər. Qaraçılar qan qohumluğu ələmətlərini hər şeydən üstün tuturlar. Qaraçı adətlərinə görə, qadın dilənərək ailəsinə baxmalıdır. Dilənçilik etmələrinə görə qaraçılar tarixdə ən çox təqiblərə məruz qalan birinci millətdir.

Hitler sivil olmayan bu milləti sevmir, zaman-zaman onların güllələnməsi əmrini verirdi. İşğal olunan ölkələrdə harada görülməsindən asılı olmayaraq onlar kütləvi şəkildə öldürülürdü. Hitlerə də xoş gəlməyən məhz qaraçıların dilənməsi olub. Son zamanlarda bəzi Avropa ölkələrində, xüsusən də Fransada Nikola Sarkozinin hakimiyyəti dövründə təqiblərə, irqi ayrı-seçkiliyə məruz qaldığından Avropa Şurası "Qaraçı proqramı"nı qəbul etmişdi.

Qaraçı tarixində istisna hal 1971-ci ilin 8 apreldə yaşanıb. İngiltərənin paytaxtı Londonda bir araya gələn kiçik qaraçı qrupu həmin günü Beynəlxalq Qaraçı Günü elan ediblər. Və o gündən dünyanın ayrı-ayrı dövlətlərində pərakəndə halda yaşayan qaraçılar aprelin 8-ni milli bayram kimi qeyd edirlər.

Ölümündən sonra məşhur ingiltərəli kino-ulduz Çarli Çaplinin qaraçı olduğu ortaya çıxanda insanların onlara qarşı olan fikirlərində azacıq olsa da dönüş yarandı. Ən azından dəfələrlə çıxışlarını xüsusi alqışlarla qarşıladıqları bəstəboy Çarli bu millətin bir nümayəndəsi idi axı.

Latın Amerikasında və dünyanın bütün yerlərində məşhur olan "Flaminqo" rəqsinin yaradıcıları qaraçılardır. Braziliya, Meksika, Çili, Kuba və başqa Amerika qitəsi ölkələrində sırf qaraçı həyatından bəhs edən yüzlərlə kino, sənədli film və serial var. Həmçinin ayrı-ayrı vaxtlarda lentə alınmış "Qaraca qız", "Budulayın qayıdışı", "Yeseniya" və başqa ekran əsərləri hind əsillilərin gündəlik məişət həyatından, o cümlədən onlara qarşı cəmiyyət təpkilərindən bəhs edir.

Moskvada "Romen" adlı qaraçı teatrı fəaliyyət göstərir. Bu günün özündə də Braziliyada, Rumıniyada, Meksikada, Venesuelada, Türkiyədə, Macarıstanda dövlət iş adamları arasında milliyyətcə qaraçı olanlar var. Həmçinin dünyanın biznes aləmində kifayət edəcək qədər tanınmış İon Çobae, Florian Çobae (Rumıniya) və Nəcməddin Nəsir (Albaniya) məşhur qaraçı milyonçulardır.

Əgər qaraçının yalnız bir qulağında sırğa görsəniz, bilin ki, o, ailənin yeganə övladıdır. Qısa saçı olan qaraçı xanımı heç görə bilməzsiniz, çünki bu, namussuzluq əlamətidir.

Qaraçı qızları üçün ailə qurmaq yaşı 14-dür. Adətə görə, 14 yaşı tamam olan qız artıq məclislərdə oynamağa, subay oğlanların və onların atalarının diqqətini çəkməyə çalışır. 19 yaşında ailə qurmayan qız "qoca qız" hesab edilir. Qaraçı ailələrində toy günü xeyli maraqlı olur. Gəlinin atası və qardaşı ona ya kiloqram, ya da bankalarda qızıl hədiyyə edir. Bankaların içi qızıl üzük, bilərzik, sırğa ilə dolu olur. Qaraçı ailəsi üçün qızın bakirə olması vacibdir. Qaraçı ailələrində məktəbə münasibət fərqlidir. Onlar hesab edir ki, uşaq bir neçə il məktəbdə oxusa, yetərlidir. Daha sonra ailə işi ilə məşğul olmalıdır.

Əsrlərdən bəri gələn inanclara görə isə ən güclü caduları qaraçı falçılar yazır. Cadunun sizə hansı yolla edildiyini tapandan sonra qaraçı təmizləmə ayinini gerçəkləşdirəcək.

2012-2014-cü illərə olan qeyri-rəsmi məlumata əsasən Azərbaycanda yaşayan qaraçıların ümumi sayı 10 min nəfərə yaxındır. Onlar iki qrupa bölünürlər: fars dilində və kurmanc dilində danışanlar.

Qaraçıların Rusiyaya gəlişi XVI əsrdə qeydə alınıb. Söz yox ki, dünyanın hər yerinə yayılan millət Azərbaycanda da məskən salıb. Onların Azərbaycan ərazisinə gəlişi I Şah Abbasın dövründə olması iddia olunsa da, rəsmi mənbələrdə qaraçı köçünün 1950-1960-cı illər aralığında olması göstərilir.

Qaraçılar Azərbaycana Qazaxıstandan gəliblər. Ökəmizdə yaşayan bu xalqın başqa ölkədə yaşayan qaraçılardan fərqi onların burada oturaq həyat sürmələrindən ibarətdir. Etnoqrafların araşdırmalarına görə, tayfaların XII əsrdəki köçündə onlar əsasən Ön və Orta Asiyada məskunlaşıblar. İlkin olaraq qaraçılar İran, Türkiyə və Qazaxıstan ərazilərinə daxil olmağa başlayıblar. XV əsrdə isə artıq onlar Avropada-Yunanıstan, Rumıniya, Fransa, İspaniya, Rusiya, Macarıstanda görünməyə başlayıblar.

Köçmə prosesinin sonrakı mərhələsində qaraçıların hədəf seçdikləri ölkələr Latın Amerikası-Meksika, Braziliya və ABŞ olub. Köçəri xalqın okeanın o biri tayına əsasən müstəmləkəçi ölkələrin təsiri və zor yolu ilə aparıldığı məlumdur.

❑ **Emil SALAMOĞLU,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

# DİM-in islahatlarına kölgə salan "700 bal" məsələsi...

## Yoxlama prosesində insan amilinin geri qaytarılması tənqid olundu

**Dövlət İmtahan Mərkəzi (DİM) ilə ictimaiyyət nümayəndələri arasında "700 bal" mübahisəsi böyüməkdədir. DİM builki imtahanlarda 700 bal yığan abituriyentin olmamasını yeni imtahan metodunun tətbiqi ilə əlaqələndirsə də, nəticələrə mənfi təsir edən bu metod bəzi ekspertlər və ictimaiyyət nümayəndələri tərəfindən mənfi qiymətləndirilib. Özəlliklə də açıq test suallarının markerlər tərəfindən yoxlanması və imtahan sisteminə insan amilinin gətirilməsi tənqid edilir.**

Bu müzakirələrə münasibət bildirən Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Sona Əliyeva "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu müzakirələrdə Dövlət İmtahan Mərkəzinin mövqeyini dəstəkləyir: "Onlar statistika da açıqlamışdılar ki, 1992-ci ildən 2005-ci ilə qədər ən yüksək bal olmamışdı və ondan sonra tədricən artmağa başlamışdı. Bu yeni imtahan modelidir və yeni təcrübədir. Həm müəllimlər, həm də uşaqlar üçün yeni bir formadır. Ona görə də bunun təcrübə tətbiqinin həm DİM, həm abituriyentlər üçün çətin olacağı gözlənilirdi. Bu il ən yüksək nəticəni gözləmək mənasız idi. Bütün bunlar hamısı təcrübə ilə formalaşır. Müsbət tendensiyanın formalaşması üçün zaman və təcrübə lazımdır".

**İmtahanların yoxlanılmasına yenidən insan amilinin, yəni markerlərin gətirilməsinə münasibət bildirən S.Əliyeva qeyd etdi ki, insan amilinin olmaması daha arzuolunan idi:** "Mən düşündürücü açıq testlərin əvəzinə məntiq testlərinin salınmasının tərəfdarıyam. Bu, insan amilinin maksimum azalmasına səbəb ola bilərdi. Hər bir müəllim ayrıca bir fərddir, onların tələbkarlığı bir-birindən fərqlənir. Ola bilər ki, eyni səviyyədə olan suallara hərəsi ayrı bal versinlər. Bütün təlimatlara, tövsiyələrə baxmayaraq, ola bilər ki, 0,5 və ya 1 bal fərq etsin. Bu 1 bal isə abituriyentin həyatına təsir edir və bəlkə də həlledici rol oynayır. Ona görə də insan amilinin olmaması daha təqdirəlayiqdir. Ona görə yox ki, bu sistemdə şəffaflıq yoxdur. Mənim övladlarım da buraxılış imtahanı veriblər. Onların şəffaflığına bir şübhəm yoxdur. Lakin hər müəllimin individual yanaşması baxımından belə düşünürəm. Zaman göstərəcək ki, bu meyar nə dərəcədə özünü doğruldur. Müasir dünyanın tələbi də odur ki, artıq düşünən insan yetişdirmək lazımdır. Sadəcə olaraq, sırf bilik mənbəyi olan bir insan yetişdirmək indiki reallıqlara uyğun deyil. O baxımdan, DİM-in həyata keçirdiyi imtahanlarda bir doğruluq payı var, dünya ilə ayaqlaşmaq var".




**Təhsil eksperti Kamran Əsədov isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, yoxlama prosesində markerlər müəyyən qədər səhvlərə yol verirlər:** "Maksimal bal təhsilin keyfiyyət göstəricisi olsaydı, 2007-ci ildən toplanan 700 ballar 12 ildə, ümumiyyətlə, 500-dən yuxarı ballar 27 ildə ölkə universitetlərini bitirmiş minlərlə istedadlı kadrın göstərici meyarı ola bilərdi - "bax bu kadrlar həmin şəxslərdir" nümunəsində. Amma MİQ, DQ, dövlət qulluğu və digər reallıqlar yuxarıdakı forma və məzmunca mürəkkəb olan cümləni gerçəkləşdirmir. Qəbul-seçim imtahanından sonra unudulan mexaniki əzbərləmə materialları tam göstərici deyil, prosesi dolğun əks etdirmir. Burada metodiki yanlışlıqlar və yanaşma natamamlıqları çoxdur. Test imtahanları 1992-ci ildən etibarən keçirilsə də, ilk 700 bal toplayanlar 2007-ci ildə qeydə alınıb. Bunun səbəbi o idi ki, imtahanlar üçün lazimi resurs yox idi, test imtahanı tam şəkildə oturuşmamışdı və hətta ixtisas qrupları daxilində müxtəlif fənlərdən iştirakçılar imtahan verirdi. Yəni ümumiləşmiş fənn bloku adı altında humanitar ixtisaslara gedənlər təbiət və texniki fənlərdən, təbiət və texniki fənlərdə gedənlər humanitar fənlərdən imtahan verirdilər ki, bu sualların cavablandırılmaması onların balına təsir göstərirdi. 2007-ci ildən etibarən ona görə 700 bal toplayan oldu ki, qeyd etdiyim maneələr, ümumi fənn bloku, resurs çatışmazlığı aradan qalxdı. TQDK (indiki DİM) ilk dəfə fənlər üzrə test bankı 2001-ci ildə çap etdi, siniflər üzrə testlər 2003-cü ildən sonra çap olunmağa başladı və bundan sonra imtahan iştirakçıları sistemli şəkildə qəbul imtahanlarına hazırlaşmağa başladılar. 2018-də 9 nəfər 700 bal toplayıb, amma bu il yox. Bunun 3 səbəbi var. Amma əsas səbəb odur ki, DİM yeni imtahan modeli üçün lazımi resursları hazırlamayıb. Yeni imtahan modeli adı altında nəşr olunan fənlər üzrə test banklarının hamısı köhnə dərsliklərindir. Yeni kurikulum dərsliklərinə uyğun test bankı yoxdur. Yeni test bankında olan minlərlə test var ki, hazırda qəbul proqramına daxil olunmuş dərsliklərdə yoxdur. XI siniflər üçün sinif testi çap olunmayıb. Bu il imtahan verən XI sinif şagird XI sinif üzrə sinif testlərini, yeni imtahan modelinə uyğun test görmədən qəbul imtahanı verir. Yoxlama prosesində markerlər müəyyən qədər səhvlərə yol verirlər. Şablon cavablar yalnız doğru hesab olunur ki, bu da qüsurlu yanaşmadır. Ümumiyyətlə, test imtahanında toplanan bal bilik, savad göstəricisi ola bilməz. Test, sadəcə olaraq, seçim üsuludur".

**Ekspertin sözlərinə görə, 2019-cu ildə ali məktəblərə qəbul imtahanlarındakı yeniliklərdən biri də buraxılış imtahanlarının tədris ili bitməmiş, yəni 11-ci sinif proqramı tam mənimsənilməmiş keçirilməsi oldu:** "Xatırladım ki, əvvəlki illərdə qəbul imtahanları tədris ili başa çatmamış, may ayında keçirilsə də, buraxılış imtahanları tədris ili başa çatandan sonra, iyun ayında keçirilirdi".

**K.Əsədovun fikrincə, ötənilki imtahanlar göstərdi ki, DİM keçirilməyən mövzulardan, reallaşmayan standartlardan imtahan iştirakçılarının bilik və bacarıqlarını yoxlayıb:** "Belə ki, 2018-ci ildə keçirilən qəbul imtahanlarında bütün ixtisas qruplarına daxil olan fənlərdə istifadə olunmuş test tapşırıqlarının azı ikisi imtahana qədər keçirilməyən, tədris proqramında mayın sonu, iyunun əvvəllərində nəzərdə tutulan mövzulardır. Belə olan halda çox maraqlı bir vəziyyət yaranır. 2018-2019-cu tədris ilində 19 abituriyent tədris ili başa çatmamış tədris proqramını mənimsəyib 700 bal toplamışdı. Əlbəttə, abituriyentlərin yüksək bal toplaması sevindirici haldır. Amma bu onu göstərir ki, qəbul imtahanlarında iştirak edən iddiaçılar imtahanda orta məktəbdə əldə etdikləri biliklərlə yox, məktəbdən kənar, repetitor yanında mənimsədikləri biliklərlə iştirak edirlər. Bu da onu göstərir ki, Azərbaycanda qəbul imtahanları çox çətin bir prosesdir, şagirdlər üçün əlçatan deyil. Qəbul imtahanlarını tədris ili başa çatmamış təyin edən DİM qəbul imtahanlarını orta məktəb proqramına, dövlətin təsdiq etdiyi tədris cədvəlinə uyğun olaraq yox, repetitor proqramına uyğun olaraq həyata keçirir. Burada bir ziddiyyətli məqam da ortaya çıxır. Əgər şagird aprel ayında keçirilən buraxılış imtahanında və may ayında keçirilən qəbul imtahanında yüksək nəticə göstərsə və müsabiqə şərtlərini ödəsə, o, orta məktəbə dərsə getməyə bilər. Çünki o, potensial tələbədir. Ancaq Azərbaycanda bir adam eyni zamanda həm şagird, həm də tələbə ola bilər. Qəbul və buraxılış imtahanlarının tədris ili başa çatmamış keçirilməsi orta məktəblərin 11-ci siniflərində davamiyyətə mənfi təsir göstərə bilər".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Kommersiya məhkəmələri - onlar nəyi, necə araşdıracaq...

## Hüquqşünas: "Ədalətli mühakimə üçün peşəkar və müstəqil hakim, bacarıqlı vəkil, təkmil hüquqi baza olmalıdır"

**Azərbaycanda kommersiya məhkəmələri yaradılır. Bu məhkəmələrdə sırf sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə baxılacaq.**

Bununla bağlı Mülki Prosessual Məcəllənin 26-cı maddəsinin yeni redaksiyada verilməsi təklif edilir. Artıq Milli Məclisdə olan layihəyə əsasən bundan sonra sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə (kommersiya mübahisələrinə) dair işlərə mülki məhkəmə icraatı qaydasında kommersiya məhkəmələri baxacaq.

Kommersiya məhkəməsi məhkəmə statistikasını təhlil edəcək, məhkəmə fəaliyyətinin təşkili vəziyyətini, məhkəmə təcrübəsini öyrənəcək və ümumiləşdirəcək, Azərbaycan qanunları ilə ona aid edilən digər səlahiyyətləri həyata keçirəcək.

Kommersiya məhkəməsinin sədri Ali Məhkəmənin Plenumunda və müvafiq apelyasiya instansiyası məhkəməsinin rəyasət heyətində kommersiya məhkəməsində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verəcək.

Kommersiya məhkəmələrinin yaradılması ilə əlaqədar olaraq mövcud inzibati-iqtisadi məhkəmələrin adından "iqtisadi" sözü çıxarılır, iqtisadi mübahisələrə baxmaq səlahiyyəti onlardan alınır. "Məhkəmələr və hakimlər haqqında" qanuna bununla bağlı edilən dəyişiklik layihəsi də Milli Məclisdədir.



Qeyd edək ki, prezident İlham Əliyevin 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanında sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması tapşırılmışdı.

**Hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, biznes mübahisələrinin həllinin xüsusi məhkəmələrə həvalə olunması təcrübəsi dünyanın bir çox ölkələrində mövcuddur:** "Bu, ölkədən-ölkəyə dəyişir: birində kommersiya məhkəməsidir, birində vergi məhkəməsi, digərində bank məhkəməsi və sair. Bunu əsas ona görə edirlər ki, hakimlər ixtisaslaşsın. Çünki müxtəlif istiqamətli işlərə baxmaq eyni hakim üçün böyük çətinlik yaradır: hər bir sahə üzrə qanunvericiliyi, elmi, praktiki məqamları öyrənməlidir. Bu, ona bənzəyir ki, bir jurnalist həm şou-biznesdən yazsın, həm kriminaldan, həm də iqtisadiyyatdan. Bu, çox çətindir, eyni zamanda işin keyfiyyətini aşağı salan faktordur. Son vaxtlar kommersiya mübahisələrinin də sayı artır".

**Hüquqşünasın fikrincə, biznes mübahisələrinin ədalətli həlli üçün kommersiya məhkəmələrinin yaradılması ilə iş bitmir:** "Kommersiya mübahisələrinin istinad etdiyi əsas sənəd Mülki Məcəllədir. Bəzən onu ölkənin iqtisadi konstitusiyası adlandırırlar. Həcminə görə ən böyük sənəd olsa da, dilinə, üslubuna, yanaşmaya görə ən bərbad qanundur. Niyə? Baxın, sahibkarlara toxunan 3 məcəllə var - Cinayət Məcəlləsi, Vergi Məcəlləsi və Mülki Məcəllə. Hüquqşünasların yazdığı Cinayət Məcəlləsinin səviyyəsi normaldır, Vergi Məcəlləsini iqtisadçılar yazıb - üslubu bir qədər fərqli olsa da, səviyyəsi normaldır. Amma Mülki Məcəlləni Azərbaycanda tərcüməçilər yazıb. Hər hissəsini bir ölkədən tərcümə edib bir yerə yığıblar. Belə qanunla necə mübahisə həll etmək olar? Mən vaxtilə Mülki Məcəllənin bir neçə fəslinin şərhini əks etdirən iki kitab yazmışam. Orada göstərmişəm nəyi haradan köçürüblər - Rusiyadan, Almaniyadan, Hollandiyadan. Bu yaxınlarda prezident də sərəncam vermişdi ki, Mülki Məcəllə tamamilə yenidən işlənsin. Bunsuz mümkün deyil, oturub elmi cəhətdən təkmil bir sənəd işlənməlidir, yoxsa kommersiya məhkəməsi hansı sənədlə işləyəcək? Bundan əlavə, bir sıra digər qanunlar var ki, onların da yenidən işlənməsi vacibdir: "İpoteka haqqında" və sair".

**Ə.Həsənovun sözlərinə görə, kommersiya məhkəmələrinin və təkmil qanunvericiliyin olması ilə yanaşı, biznes mübahisələrinin ədalətli həlli üçün daha bir amil vacibdir:** "Bu, hakimlərin müstəqilliyinin təmin olunması və məsuliyyəti məsələsidir. Bizdə hakimlərin maaşı çox aşağıdır, bildiyim qədərilə kommersiya məhkəmələrində də belə olacaq. Hakimlərin maaşı kəskin şəkildə artırılmalıdır. Kommersiya mübahisələrinin tərəflərinin pulu çoxdur. Özəl qurumları qoyuram bir kənara, hətta dövlətə məxsus elə qurumlar var ki, rəhbərləri prezidentdən də yüksək maaş alırlar. Məsələn, Beynəlxalq Bankın rəhbərinə belədir. Yəni hakimlərin də əmək haqqı onların müstəqil qərar vermələrini təmin edəcək səviyyədə olmalıdır. Eyni zamanda onların qanunsuz əməllərinə görə cəzaları da ağır olmalı, korrupsiyaya yol verən hakimlər ömürlük azadlıqdan məhrum edilməlidirlər".

Bəs vəkil korpusunda vəziyyət necədir: kommersiya hüququ üzrə işləri bacaracaq imkanlara malikdirlərmi? Ə.Həsənov bildirir ki, bu sahədə də ciddi problemlər var.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

# Yay istirahət düşərgəsi, yoxsa valideyni "qaz kimi yolma" siyasəti?

## İki həftəlik düşərgəyə 1000 manatı kimlər ödəyir?



**Məktəblilər üçün yay düşərgələri valideynləri ən çox maraqlandıran mövzulardandır. Həm istirahət, həm də səmərəli vaxt keçirmə istəyi yay düşərgələrini valideyn-uşaqlar üçün maraqlı edir. İndi sosial şəbəkədə bu sayaq onlarla elan var. Təbii ki, qiyməti yazmadan, dəbdəbəli elanlar verilir, füsunkar təbiətli məkanlardan fotolar paylaşılır. Bəs yay düşərgələrinin şərtləri necədir? Ödəniş, təklif edilən imkanlar və təhlükəsizlik hansı səviyyədədir?**

"Yeni Müsavat" bu mövzuda kiçik bir arayış hazırlayıb. Hazırda yay düşərgələri daha çox özəl şirkətlər tərəfindən həyata keçirilir. Qiymətlər isə 14 gün üçün 500 manatdan başlayır. Düşərgələrə daha çox aşağı sinif şagirdləri müraciət etdiyindən təhlükəsizlik məsələləri də xüsusi önəm kəsb edir. Yay düşərgələri təşkil olunarkən əsas üstünlük şagirdlərin dil bilgilərinin inkişaf etdirilməsinə, idman və istirahətlə yanaşı, biliklərinin artırılmasına verilir.

Yay istirahətini bölgələrdəki düşərgələrdə keçirənlərlə yanaşı xaricə üz tutanlar da az deyil. Amma burada da qiymətlər fərqlidir.

AMEA əməkdaşlarının uşaqlarının yay tətilinin səmərəli keçirilməsi üçün düşərgə təşkil ediləcək. "Mərdəkan" istirahət düşərgəsi AMEA əməkdaşlarının uşaqlarının yay tətilinin səmərəli keçirilməsi üçün yeni mövsümə start verir. Düşərgədə 7-14 yaş arası məktəbli uşaqların istirahəti nəzərdə tutulur. İstirahət müddəti hər biri 14 gün olmaqla 5 növbədə təşkil edilir: I növbə: 20 iyun - 04 iyul; II növbə: 7 iyul - 21 iyul; III növbə: 24 iyul - 8 avqust; IV növbə: 10 avqust - 24 avqust; V növbə: 27 avqust - 10 sentyabr . Tələb olunan sənədlər: doğum haqqında şəhadətnamə və ya şəxsiyyət vəsiqəsi, sağlamlıq haqqında arayış.

Düşərgədə komfortlu kotteclərdə gündə 4 dəfə qidalanma, ingilis dili və rəqs məşğələləri, məntiqi-əyləncəli oyunlar, yarışmalar, diskoteka, ekskursiyalar, gündəlik idman nəzərdə tutulur. Kompleksin ərazisində hovuz, tennis, qum üzərində futbol və voleybol meydançaları var. Bundan əlavə, 24 saat həkim və kamera nəzarəti mövcuddur.

Bir növbə üçün adambaşı ödəniş haqqı 250 manatdır (100 manat valideyn tərəfindən, 150 manat isə institutun Həmkarlar Komitəsinin fondundan ödəniləcək).

Nabranda yay düşərgəsi isə 25-31 iyul tarixlərində təşkil olunub. Düşərgəyə qatılacaq uşaqların yaş həddi 8-14-dür. Qiymət: may ayında qeydiyyatdan keçənlərə 295 AZN, iyun ayında 395 AZN.

Proqrama daxildir:

Səviyyə-təsbit sınağı;

Hər gün 2 saat ingilis dili dərsi (danışıq və dinləmə):

Düşərgədə gecələmə;

Gündəlik 3 dəfə qidalanma;

Düşərgədaxili fəaliyyətlər: futbol, voleybol, tennis, baseyn, kino, musiqi, parti, karaoke, əyləncəli və məntiqi oyunlar və s;

Düşərgəxarici fəaliyyətlər: Qusar-Laza şəlaləsi, dəniz, Xaçmaz gəzintisi, Aquapark;

SERTİFİKAT;

Düşərgə ərzində çəkilən şəkillərin DİSKİ;

Transfer (Bakı - Nabran - Bakı).

Daha bir düşərgə isə Qusar Olimpiya Kompleksində nəzərdə tutulur. Ödənişi 720 manatdır və "hər şey daxil" konseptindədir. Düşərgəyə 8-16 yaşlı uşaqlar qoşula bilər. Düşərgənin keçirilmə vaxtları:

1-ci qrup: 1 iyul -13 iyul (12 gecə, 13 gün).

2-ci qrup: 15 iyul - 27 iyul (12 gecə, 13 gün).

3-cu qrup: 29 iyul - 10 avqust(12 gecə, 13 gün).

4-cu qrup: 12 avqust - 24 avqust(12 gecə, 13 gün).

Creative Kids şirkəti isə Qax "El Resort" hotelində təşkil etdiyi yay düşərgəsi üçün qiymətlər:

5 gün, 4 gecə

18-22 iyun - 495 manat

7 gün, 6 gecə

18-24 iyun - 650 manat

10 gün, 9 gecə

18-27 iyun - 890 manat

"Oskar Group" şirkətinin təklif etdiyi yay məktəbi proqramının standart paket qiyməti bir mərhələ üçün 130 manatdır. İyun ayının 10-na qədər qeydiyyatdan keçənlərə isə bu məbləğ 100 manat olacaq. Standart proqramdan əlavə uşaqlara həftəlik gəzintilər, rəsm, məntiq, rus dili, şahmat dərsləri də təklif olunur. "Oskar Group" həmçinin valideynlər üçün ingilis dili və ya rus dili dərsləri də təşkil edir. Dərslər həftənin tək və ya cüt günləri səhər və ya günorta növbələri olmaqla 3 saat tədris ediləcəkdir. Bu dərslərdə valideynlər həm vaxtlarını səmərəli istifadə edəcək, həm də ingilis və rus dili ilə bağlı sadə və praktik biliklərə yiyələnəcəklər. Bu həm də onların öz övladları ilə ingilis və rus dilində daha rahat ünsiyyət qurmalarını təmin edəcəkdir. Valideynlər üçün ingilis dili və ya rus dili dərslərinin aylıq qiyməti 75 manatdır.

Dubayda yay məktəbi də təklif olunan variantlardandır.

Tarix: 19-28 iyul 2019

Məkan: Manipal Academy Of Higher Education, Dubay, BƏƏ. Bura 14-16 yaş arası şagirdlər qatıla bilər. Ödəniş 450 dollardır. Təyyarə bileti qiymətə daxil deyil.

Düşərgəyə daxildir: Dubay vizası, 10 gün MAHE kampusunda düşərgə, MAHE Hostelində yemək və gecələmə, ingilis dili dərsləri, elmi layihələr, Dubayın görməli yerlərinə səyahət, sertifikat və suvenir hədiyyə.

Eko Dizayn şirkətinin yay düşərgəsində də fərqli variantlar öz əksini tapıb. 15 iyundan 1 iyula qədər olan düşərgədə həftədə 6 dəfə məşğələ nəzərdə tutulur. Vaxt 10:00-18:00. Dil: rus dili

2-3 yaş - 400 manat

3-4 yaş - 450 manat

4-5 yaş - 500 manat

5-12 yaş - 550 manat

**Təhsil Nazirliyi məktəblilər üçün kütləvi yay düşərgələri təşkil edəcək. Bunu Təhsil Nazirliyinin Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsinin sektor müdiri Hilal Salmanov deyib. O bildirib ki, bu, gələcəkdə maddi-texniki baza yaxşılaşdırıldıqdan sonra mümkün olacaq:** "Bu halda məktəblilər düşərgəyə seçmə şəkildə aparılmayacaq, istənilən sayda şagird qatıla biləcək. Bu gün üçün Təhsil Nazirliyi tərəfindən məktəblilər üçün qısamüddətli yay düşərgələri təşkil olunur. Bura əsasən yerli icra hakimiyyəti orqanları tərəfindən təhsil sahəsində, idmanda seçilən, fənn olimpiadalarında qalib gələn şagirdlər yönləndirilir. Son 3 ildə bu düşərgələrə minlərlə şagird cəlb edilib".

Gördüyünüz kimi, yay düşərgəsi üçün bir-birindən fərqli şərtlər və məbləğlər müəyyən edilib. Amma bir çoxu orta statistik azərbaycanlının cibinə uyğun deyil. Bu şərtlərdə məktəblinin yay tətili də valideyn üçün əlavə yükdür.

**Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# Toy mövsümü başladı, Bakı yenə tüstüyə qərq oldu

## İradə İbrahimova: "Qurğulara davamlı olaraq texniki xidmət göstərilməli, filtrlər vaxtında dəyişdirilməlidir"

**Ramazan ayının bitməsi ilə toy mövsümü də başladı. Artıq dünəndən etibarən restoranlarda toylar, ad günü və digər bu kimi şənliklər start götürüb. Sosial şəbəkələrdən görünür ki, insanlar restoranların fəaliyyətə başlamasını əməlli-başlı hiss ediblər. Belə ki, yazılanlara görə, yenə də Bakının Babək prospekti boyunca bəzi restoranlardan havaya tüstü buraxılıb, kabab qoxusu ətrafı bürüyüb. Eyni zamanda Nizami rayonunda yerləşən bir sıra restoranlardan gecə yarısı fişəng atılıb, əhali səs-küylə narahat edilib. Açıq havada şənlik təşkil edən restoranlardan isə həm də ucalan yüksək musiqi səsi insanların əsəblərini tarıma çəkib.**



Nizami rayonunda söhbət etdiyimiz Bakı sakinləri bildirdilər ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin başladığı işi yüksək qiymətləndirirlər. Sakinlər bildirdilər ki, kabab qoxusu ətrafa yayılan zaman uşaqlarının yanında xəcalət çəkirlər. Çünki hər gün kabab ala bilmirlər, uşaqları isə qoxunu hiss edib, kabab istəyir.

Oxşar vəziyyət Xırdalanda, Sumqayıt şəhərində də hökm sürür.

**Məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əlaqə saxladıq. Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova "Yeni Müsavat"a bildirdi ki, artıq restoran və şadlıq saraylarının 90-95 faizində qurğular quraşdırılıb:**

"Lakin bəzi şadlıq sarayı və restoranlarda havaya tüstü və qoxunun yayılması ilə bağlı bir müddət öncə nazirliyə şikayətlər daxil olduğundan, əməkdaşlarımız tərəfindən monitorinqlər keçirildi. Bəzi şadlıq sarayları, ictimai-iaşə obyektlərində quraşdırılan qurğuların filtrlərinin vaxtı-vaxtında təmizlənmədiyi məlum oldu. Bununla bağlı həmin obyekt sahiblərinə xəbərdarlıq edildi. Onlara bildirildi ki, təmizləyici qurğuların quraşdırılması ilə iş bitmir. Bundan sonra da qurğulara davamlı olaraq texniki xidmət göstərilməli, filtrlər vaxtında dəyişdirilməlidir. Sevindiricidir ki, artıq həmin şadlıq saraylarının sahibləri filtrləri dəyişdirib, onlara qulluq göstərirlər. Ramazan ayının başa çatması və toyların başlamasını nəzərə alaraq, şadlıq saraylarının sahiblərinə müraciət edirik ki, filtrləri vaxtı-vaxtında dəyişib, vətəndaşlara diskomfort hallarına yol verməsinlər. Nazirliyin mütəxəssisləri tərəfindən monitorinqlər davam etdirilir".

Ekologiya və Təbii Sərvətlər Nazirliyi hələ ötən ilin may ayında məlumat yayaraq bildirdi ki, restoran sahiblərinə tüstünün qarşısını almaq üçün müvafiq qurğuların quraşdırılması ilə bağlı məktub göndərilib. Həmin zaman qeyd olundu ki, qanunvericiliyin tələblərini pozan iaşə sahiblərinə qarşı İnzibati Xətalar Məcəlləsinin 237.2 maddəsinin müvafiq tələblərinə uyğun olaraq tədbirlər görüləcək. Ətraf mühitə buraxılan tullantıların təmizlənməsi, aparatlardan istifadə edilməməsinə görə fiziki şəxslərin 600 manatdan 25 min manata qədər, hüquqi şəxslərin isə 20-25 min manat cərimələnməsi nəzərdə tutulub.

Nazirliyin səyi nəticəsində restoranların havanı çirkləndirməsinin qarşısı xeyli dərəcədə alındı.

**Qeyd edək ki, havanı çirkləndirən məişət obyektləri ilə bağlı birbaşa ölkə başçısının ciddi xəbərdarlığı olub. Belə ki, prezident İlham Əliyev ötən il oktyabrın 9-da Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında məsələ ilə bağlı ciddi tapşırıq vermişdi.** "Axşam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək",- deyə ölkə prezidenti bildirmişdi.

**Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 122 (7292) 8 iyun 2019

# Bakıda Gürcüstan nömrəli maşınlar artır - səbəb...

## Ekspert: "Gürcüstandan gətirilən avtomobillərə güzəştlər etmək, normal qaydalar yaratmaq lazımdır"

**Bakıda günbəgün Gürcüstanın dövlət nömrə nişanını daşıyan avtomobillərin sayı artır. Bu avtomobilləri hətta xidmət sektorunda da görmək mümkündür. Gürcüstandan gətirilən avtomobillər azərbaycanlılar tərəfindən gürcü vətəndaşının adına alınır. Qanunvericiliyə görə, avtomobili alan şəxs hər 90 gündən bir sərhədi keçib, sənədinə möhür vurdurmalıdır. Yeni avtomobili alan şəxs hər 90 gündən bir məsrəf sərf etməlidir ki, həmin maşını Bakıda sürə bilsin.**

Bəs bu avtomobillərin ölkədə artımının səbəbi nədir?

"Yeni Müsavat"a danışan **ekspert Elməddin Muradlı** bildirib ki, məsələ doğrudan da çox aktualdır və problemin kökünə diqqət edilməlidir:

"Ölkəyə gətirilən avtomobillərə ƏDV, aksiz vergisi və gömrük rüsumu yüksək olduğu üçün, qiymətlər iki dəfədən də çox bahalaşır. Bu, birmənalıdır. Hər ilin yanvar ayında bu vergilərdə artım olur. Beləliklə də Azərbaycan konkret olaraq köhnə avtomobillərin ümidinə qoyulur. Yeni artıq elə bir dövr gəlib çatıb ki, daxili bazarda satılan avtomobillərin 40 faizini Azərbaycana əvvəlcədən gətirilən avtomobillər təşkil edir. Bu avtomobillərin əksəriyyəti 2015-ci ilə qədər ölkəyə gətirilənlərdir. İnsanlar artıq son zamanlar Gürcüstandan maşın alıb, gürcü nömrəsi ilə onları Azərbaycanda idarə etməyə üstünlük verirlər. Onlar əgər bu nömrəli maşınlarla taksi fəaliyyəti ilə məşğul olurlarsa, qanunvericiliyə ziddir. Ancaq açıq-aşkar görünür ki, onlar taksi fəaliyyəti ilə məşğul olurlar. Hətta rayonlara da sərnişin daşıyırlar. Artıq müşahidə edilir ki, ölkəyə mikroavtobus və avtobuslar da gətirib, turizm sahəsində işləyənlər də var. Aidiyyəti qurumlar bunun qarşısını almağa çalışmasınlar. Sadəcə olaraq, səbəbi araşdırıb, nöqsanlarını görsünlər ki, insanlar niyə bu vəziyyətə düşüb. Gürcüstan bizdən nə ilə artıqdır? Bu ölkənin ərazisi bizdən az, enerjini də Azərbaycandan alır. Necə olur ki, həmin maşınlar Gürcüstana su qiymətinə gəlir? Gürcüstandan 5 min dollara alınan maşın, deməli, ora 3 min dollara gəlir ki, gürcü də onun üzərinə pul qoyub, azərbaycanlıya satır. Bu minvalla Gürcüstandan 3-5 minə alınan maşın Bakıda rüsumların sayəsində 15 mindən baha qiymətə satılır. Rüsumların sayəsində bir maşının qiyməti Azərbaycanda satışa çıxana qədər 3-4 dəfə bahalaşır. Avropaya inteqrasiya edirik, ancaq Avropanın maşınları Gürcüstana gəlir".

**Ekspert bildirib ki, məsələ nəqliyyat təhlükəsizliyi baxımından da önəmlidir:**

"Biz Azərbaycanda nəqliyyat təhlükəsizliyindən danışırıq. Deyirik ki, köhnə avtomobillər istismardan yığışsın. Çünki köhnə avtomobillərdə yol-nəqliyyat hadisəsi baş verən zaman ölüm təhlükəsiz yüksək olur. Normalda yüngül xəsarətlə sovuşmalı olan hadisələrdə belə, ölümlə rastlaşırıq. Çünki maşın bərbad vəziyyətdədir, təhlükəsizlik elementləri sıfırdır. Cənab prezident ötən ilin dekabr ayında yol hərəkətinin təhlükəsizliyinə dair 5 illik dövlət proqramı təsdiq edib. Həmin proqramda da göstərilir ki, köhnə avtomobillər yığışdırılsın, yeni avtomobillərin gətirilməsi üçün stimullaşdırma yaradılsın. Xüsusilə də orada hibrid avtomobillər qeyd edilib. Artıq yeni ildən 5 ay gedib. Aidiyyəti qurumlar bu istiqamət üzrə nə iş görüblər? Yenə də insanlar rüsumlardan narazılıq edirlər. Ona görə də insanlar məcburdur ki, gürcüstanlıya etibar edib,



onun adına maşın alsın. Bəziləri tanımadıqları gürcünün adına maşın alır. Yaxşı, həmin gürcünün başına bir iş gəlsə, vətəndaş gürcünün ailəsindən yenidən etibarnamə ala biləcəkmi? Yaxud da gürcü etibarnaməni ləğv edərsə nə olacaq? Bir şey ki, Azərbaycanda bu cür hadisə baş verir. Dəfələrlə olub ki, azərbaycanlı digər azərbaycanlıya verdiyi etibarnaməni maşının pulunun ödənilib bitməyinə 1000-2000 manat qalmış ləğv edib. Ona görə də aidiyyəti qurumlar rüsumlarla bağlı bir də düşünməlidir".

**Ekspert söyləyib ki, bu avtomobillərdə sığorta məsələsi də problemlidir:**

"Azərbaycanlı Gürcüstanda sığortasız maşın sürə bilməz. Çünki sərhəddən keçən kimi tələb olunur ki, avtomobil sığorta edilsin. Orada zamandan asılı olaraq müxtəlif qiymətə sığorta etdirmək mümkündür. Azərbaycanda isə bu sistem də tam qurulmayıb. Biabırçılıq da odur ki, məsələn, taksi kimi fəaliyyət göstərən gürcü nömrəli maşını sonradan axtarıb tapmaq çətin olur. Sərnişinin əgər maşında hansısa əşyası itirsə, sonra həmin avtomobilin nömrəsini yadında saxlayıb, maşını tapa bilmir. Bundan istifadə edib, insanları qarət edən taksi sürücüləri də olub. Əvvəl yol hərəkəti qaydalarını çox kobud şəkildə pozurdular. Qəsdən radarlarda sürəti artırırdılar. Yol polisi bunun qarşısını aldı. İndi sürücü gedib Gürcüstanda maşının nömrəsini dəyişsə belə, yol polisi yenə də onu tapa bilir. Bu dəqiqə 40-50 min manat cərimə borcu olan gürcü nömrəli maşınlar var ki, cərimə meydançasında çürüyür. Bunu da azərbaycanlılar ediblər. Düşünüblər ki, nömrə radara düşmür, indi də qalıb ortalıqda. Bütün bunlara rəğmən düşünürəm ki, Gürcüstandan gətirilən avtomobillərə güzəştlər etmək, normal qaydalar yaratmaq lazımdır. Çünki rüsumları onsuz da aşağı salmayacaqlar. Gətirilən maşınların qarşısını almaq isə ciddi gərginlik yarada bilər. İstəməzdim ki, gələcəkdə kimsə ortaya çıxıb, bu cür avtomobillərin ölkədə qalma vaxtını azaltsın, yaxud da buna bənzər addım atsın. Bu, ciddi probləmə səbəb olar. Gürcüstanda qeydiyyatda olan avtomobilə Azərbaycanda da texniki baxış, sığorta şamil edilməlidir. Bu cür olarsa, ölkədə normal vəziyyət yaratmaq olar. Başqa cür isə alınmaz. İnsanları sıxmaq fayda verməz. 3 minə Gürcüstanda olan maşın Azərbaycanda 15 mindirsə, belə çıxır ki, avtomobilin oturacaqlarını burada timsah dərisindən edirlər. Ya da qapılarına qızıl vururlar. Başqa ağıla nə isə gəlmir..."

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Azərbaycanı dağıdıcı zəlzələ gözləmir"

## Qurban Yetirmişli: "Hər bina üçün ayrıca tədqiqat aparılmalıdır ki, zəlzələyə davamlılığı nə qədərdir"

**İyunun 7-də Xəzər dənizində zəlzələ qeydə alınıb. AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata görə, zəlzələnin maqnitudası 4,7 bal, dərinliyi 62 km olub. Zəlzələ sahilə yaxın ərazilərdə 3 bala qədər hiss olunub.**

İyunun 2-də isə Türkiyənin Sakarya şəhərinin Hendek rayonunda 4,6 bal gücündə zəlzələ baş vermişdi. Yerin 5 kilometr dərinliyində meydana gələn təkanlar İstanbul da daxil olmaqla, ətraf şəhərlərdə hiss olunub.

Bəzi gözləntilərə görə, Türkiyədə yenidən güclü zəlzələ ola bilər. Azərbaycan da seysmik zonada yerləşir.

Zəlzələ proqnozları nə dərəcədə ciddidir? Xüsusən son illərdə Bakıda yeni tikililər artıb. Onların zəlzələyə davamlılığı hansı səviyyədədir?



Məlum məsələdir ki, heç bir ölkə təbii fəlakətdən sığortalanmayıb. 2000-ci illərdə ölkəmizdə baş verən güclü zəlzələlər də göstərdi ki, Azərbaycan seysmoloji zonada yerləşir və hər an bu cür arzuolunmaz hadisələr baş verə bilər.

Bəs görəsən, yaşadığımız evlər zəlzələdən nə dərəcədə sığortalanıb? Paytaxtda durmadan inşa edilən çoxmərtəbəli binalar neçə bal zəlzələyə davamlıdır? Sovet dövründən qalan, istismar müddətini başa vuran köhnə binalar təbii fəlakət qarşısında duruş gətirə bilərmi?

Bakının kosmosdan müşahidəsinin nəticələri göstərir ki, şəhər sürüşmə baxımından da təhlükəlidir. Buna görə də Bakıda maksimum 12-16 mərtəbəli binalar tikmək olar. Bundan əlavə, bir çoxları iddia edir ki, Bakının seysmik şəraiti ilə əlaqədar, Yaponiyada olduğu kimi, yalnız üzən özülə malik olan monolit binalar tikilməlidir.

**Bir müddət əvvəl Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin eksperti Cahangir Qocayev demişdi ki, elə binalar var konstruksiyası nəzəri cəhətdən zəlzələyə davamlıdır, amma inşa zamanı orada texnoloji proses pozulub, qaydalara düzgün əməl edilməyib:** "Bu baxımdan həmin bina zəlzələyə davamlı olmaya bilər. Ona görə də binaların seysmik davamlılığını dəqiq müəyyən etmək üçün inventarizasiya aparılmalı, binalar pasportlaşdırılmalıdır".

**Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanı katastrofik, dağıdıcı zəlzələ gözləmir. Onun sözlərinə görə, enerji boşalmaları gedir və qorxulu hal yoxdur.**

**Mərkəz direktorunun sözlərinə görə, təkanlar Xəzər sahillərində hiss olunub:** "Ötən gecə (sraağgün - E.S.) 25 təkan olub, əsasən dənizin Xaçmaz istiqamətində hiss olunub. Əslində elə gün yoxdur ki, təkan olmasın".

**Onun fikrincə, Bakı bioloji cəhətdən mürəkkəb quruluşa malikdir:** "Hər bina üçün ayrıca tədqiqat aparılmalıdır ki, zəlzələyə davamlılığı nə qədərdir. Məsələn, biri 8 bal, biri 9 bal dözümlü ola bilər. Bakı hamar deyil, dərəsi, sürüşmə zonası var. Amma bütün bunlara ciddi nəzarət var. Fövqəladə Hallar Nazirliyinin Tikintiyə Nəzarət Dövlət Agentliyi ekspertizanı həyata keçirir, monitorinqləri aparır, müvafiq texniki rəyləri ümumiləşdirib, yuxarı instansiyalara verir. Yəni bu məsələlərə ciddi yanaşılır".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 122 (7292) 8 iyun 2019



## Mozambikdə keçəlləri öldürürlər

Mozambik polisi keçəlləşmədən əziyyət çəkən sakinlərinə həyatlarına yönələn təhlükə barədə xəbərdarlıq edib. Bu barədə "The Guardian" xəbər verir. Problemin mövcudluğu barədə ölkədəki iki keçəl kişinin qəddarcasına öldürülməsindən sonra xəbər veriblər. Ölənlərdən birinin başı kəsilib və daxili orqanları çıxarılıb.

Mozambikin hüquq-mühafizə orqanları cinayətin baş vermesində 20 yaşlı iki kişidən şübhələnirlər. Onlar həbs olunandan sonra etiraf ediblər ki, daxili orqanları uğur gətirsin deyə müştərilərə satıblar. Polis nümayəndəsi İnasio Dinanın sözlərinə görə, qətlin motivləri sözügedən bölgədə yayılmış inancla bağlıdır. Həmin inanca görə, yerli insanlar keçəllərin varlı olduğu qənaətinə gəliblər. Dina ritual qətlləri albinoslar üzərindəki ovla müqayisə edib. 2014-cü ildə Mozambikdə 100-ə yaxın albinosun üzərinə hücum edilib. Onların orqanlarından dərman ləvazimatlarının hazırlanması üçün istifadə olunub. May ayında məlum olmuşdu ki, Sierra-Leonda doğulan və cadugərlərin əlindən xilas olan 19 yaşlı albinos daha sonra model olub.

# İllər öncə gördüyü qızı axtarır



Kanadalı diş həkimi Sendi Kroker 8 min kilometr yol qət edərək İrlandiyaya gəlib. Səfərdə məqsədi isə illər öncə cəmi bir neçə dəqiqə söhbət etdiyi bir qızı yenidən görməsi olub. Lenta.ru saytının xəbərinə görə, 34 yaşlı həkim cavan irland xanımı unuda bilmir və hesab edir ki, bu qız onun qismətidir. Krokerin sözlərinə görə, o, bu gözəl xanımı Kler qraflığında, Ennistimonda görüb. Bu, yerli kafedəki səhər yeməyi zamanı baş verib. Bu gözəl xanımı görən kimi onunla tanış olan Kroker ancaq hava, habelə ölkənin gəzməli yerləri barədə danışmağa fürsət tapıb. Stomatoloq etiraf edib ki, səfərdən sonra da bu qız haqda düşünməyə davam edib və nəhayət, ölkəyə qayıdaraq, qızı tapana qədər bütün şəhərləri gəzməyə qərar verib. Kroker deyib ki, bu qızın 20 yaşı və tünd-sarı rəngdə saçları, habelə çilləri var. Artıq ölkədə bu gəncin axtarışlarının nəticələri ilə bağlı mərclərə də başlanıb.

# Kök qadına oğlu elə bir jest etdi ki...




**Avstraliyanın Pert şəhər sakini danışıb ki, oğlu onun hər gün tərəziyə çıxıb, çəkisinə nəzarət etdiyini görərək, ilginc addım atıb. 35 yaşlı Kelli Makkerron deyib ki, əri ilə birlikdə yanvar ayından etibarən dietaya başlayıb. Son iki ildə qadın 9 kilo kökəlib və buna görə çox kədərlənib. Onu daha çox kədərləndirən isə əri arıqladığı halda, özünün arıqlaya bilməməsi olub. Qadın gündə bir neçə dəfə tərəziyə çıxır və nəticə onu kədərləndirirdi.**

"Mən özümə qarşı çox tələbkaram. Amma sənin iki uşağın varsa, bu halda uşaqların qayğısı birinci plana keçir, özün haqda unudursan. Mən vaxtilə 55 kilo idim, amma indi çəkim 64 kilodur. Mən başa düşürəm ki, bu, piylənmə deyil. Amma daha önceki halıma qayıtmaq istəyirəm" deyən qadın əlavə edib ki, bəzən kədərini azaltmaq üçün yeyir. Amma çox yeyib kökələndən sonra daha da çox kədərlənir.

Oğlu isə bu durumunda tərəzinin üstünə "Doğrudanmı burada yazılan rəqəm əhəmiyyət kəsb edir?" sözləri yazılmış kağız qoyandan sonra onun arıqlama proseduruna münasibəti dəyişib. Makkreron etiraf edib ki, oğlunun sözləri onun gözlərini açıb. "Mən artıq çəkimin necə və nə qədər dəyişdiyini fotolar, qeydlər vasitəsilə təqib etməkdən vaz keçdim".

Qadın oğlundan nəyə görə belə qeyd yazdığını soruşub. Sonuncu cavab verib ki, anasına xoş gələn nələrsə etməyə çalışıb. Eyni zamanda ana şübhələnib ki, oğlu yeni oyun istəyib. O, oğluna bu incə jestinə görə təşəkkür edib və ona arzuladığını alıb.

## Qoroskop




**QOÇ** - Ulduzlar pulla bağlı məsələlərdə, eləcə də fəaliyyət sahəsində sizi müvəffəqiyyətlər gözlədiyini bəyan edir. Odur ki, bu istiqamətdə istənilən təklifi qəbul etməyə dəyər.

**BUĞA** - Hansısa sövdələşmə ilə bağlı bəzi anlaşılmazlıq yarana bilər. Lakin bunu zorakı üsullarla yoluna qoymaq səmərəsizdir. Nahardan sonra sevgi sahəsində sevinəcəyiniz gözlənilir.

**ƏKİZLƏR** - Günün ümumi mənzərəsi qənaətbəxş olsa da, bəzi vacib məsələlərdə həlledici qərarı özünüz çıxarmalısınız. Xüsusən də nahardan sonra uzaqgörənliyinizə ehtiyacınız olacaq.

**XƏRÇƏNG** - Bir tərəfdən məqsədlərinizə gedən yolların bağlılığı, digər tərəfdənsə sizi başa düşməyənlərin artması ovqatınıza mənfi təsir göstərməkdədir. Amma xoş nəticə üçün azacıq dözməlisiniz.

**ŞİR** - Ay bürcünüzdə olduğu üçün nəqliyyatla, eləcə də təhlükəli cihazlarla ehtiyatlı davranmalısınız. Mübahisələr də istisna deyil. Axşama yaxınsa sevindirici məqamlar mümkündür.

**QIZ** - Ən ümdə arzularınızı gizli saxlayın. Özünüz də bilirsiniz ki, qabaqcadan nəyisə demək sizə düşmür. Ürəyinizi incitsə də, xoşbəxtliyiniz naminə kiməsə sirr verməməlisiniz.

**TƏRƏZİ** - İşgüzar əlaqələrinizi sıxlaşdırmaq, qlobal məsələləri həll etmək üçün sərfəli vaxtdır. Amma təşəbbüskarlığı və fikir mübadiləsində liderliyi öz əlinizdə saxlamalısınız.

**ƏQRƏB** - İkinci dərəcəli bütün planlarınızı təxirə salın. Çünki bu təqvimdə əsas müvəffəqiyyətiniz yalnız işlə bağlı olacaq. Həmkarlarınızla söz güləşdirməyin. Təmkinli olun.

**OXATAN** - Nədənsə son vaxtlar ulduzların tövsiyələrinə əməl etmirsiniz. Belə passivliklə irəli getmək isə çox çətindir. Bu səbəbdən də nahardan sonra gözlənilən önəmli şanslardan bəhrələnməlisiniz.

**OĞLAQ** - Bütün diqqətinizi ailə məsələlərinə və tərəf-müqabilinizlə münasibətlərə yönəldin. Hər hansı mübahisə başağrınıza səbəb ola bilər. Allaha düşmən olan falçı və cadugərə üz tutmayın.

**SUTÖKƏN** - Göy qübbəsi bəxtinizə neytral bir təqvim təyin edib. Odur ki, hansısa qlobal problemi həll etmək və ya hansısa təhlükə ilə üzləşmək barədə düşünməməlisiniz. Yalnız pul mümkündür.

**BALIQLAR** - Bəxtinizə inana bilərsiniz. Belə ki, ömrünüzün çoxsaylı məqamlarında olduğu kimi bu gün də gözləmədiyiniz halda hansısa probleminiz həll olunacaq. Maddi durumunuz da yaxşılaşacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 5 metrlik timsahı iplə bağladılar və...



Şri Lankanın Akuressa şəhər sakinləri uzunluğu 4.5 metrdən uzun olan timsahı yaxalayıb, onu qalın iplə bağlayıblar. Bundan sonra isə timsah vəhşi təbiəti qoruma departamentinə təhvil verilib. Baş vermiş hadisənin videoyazısı xəbər portalı olan Hiru Neus xəbər portalının YouTube kanalında nümayiş etdirilir. İki gün ərzində videoroliki 24 min dəfə izləyiblər. Hiru News-un xəbərinə görə, vəhşi heyvanı yerli kənd sakini olan qadın fərq edib və bu barədə kənd sakinlərinə məlumat verib. Timsahın təhvil verildiyi departament əməkdaşları onu yenidən təbiətin qoynuna, amma kənd sakinlərindən mümkün qədər uzağa aparıblar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 3.070